Xalqın qəzeti!

# Xalq qəzeti

№ 187 (30591) 31 avqust 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır   Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycan–Ermənistan: sərhəd üzrə komissiyaların əsasnaməsi razılaşdırıldı

**Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 2024-cü il aprelin 19-da imzalanmış 8-ci görüşünün Protokoluna uyğun olaraq, Komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamənin razılaşdırılması ilə bağlı işlər yekunlaşıb.**

Komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə müvafiq qaydada 2024-cü il avqustun 30-da imzalanıb. Hazırda Azərbaycan Respublikası və Ermənistan Respublikası dövlətdaxili prosedurların keçirilməsinə başlayıblar.



## “Etnik təmizləmə” şousu

***Rusiyanın mövqeyi və üçtərəfli bəyanatın məntiqi***

**Prezident Vladimir Putinin ölkəmizə səfəri əsnasında Moskva bəyan etdi ki, Bakı-İrəvan münasibətlərinin nizamlanması baxımından əsas mənbə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli bəyanatlarıdır. Bu barədə Putin özü də söz açdı. Bu bəyanatlarda isə Qarabağın erməni əhalisi barədə heç nə yoxdur. Yəni, sənədlərdəki hansısa müddəa onları ayrıca təbəqə kimi görməyə imkan vermir.**

(ardı 4-cü səhifədə)

# Azərbaycanın zəfəri və tərəqqisi Türkiyədə böyük qürur doğurur



Səhifə ⇨ 2

## Yeni təxribatlar İrəvana baha başa gələcək

**Azərbaycan torpaqlarının işğal altında olduğu dövrdə burada mövcud olmuş separatçı xunta rejiminin yaranmasının “ildönümü” (sentyabr ayının 2-si) yaxınlaşdıqca, İrəvandan ölkəmizə qarşı ərazi iddiaları ilə bağlı cəfəng fikirlər səslənməkdədir. Hiss olunur ki, rejimin Ermənistan paytaxtına sığınmış tör-töküntüləri, eləcə də onlara “züy tutanlar” bu hadisəni geniş qeyd etmək istəyirlər.**

Hazırda separatçı çıxışçıların başında erməni apostol kilsəsinin Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan dayanır. Onun canfəşanlığı dərhal nəzərə çarpır. Hələ bir müddət öncə sentyabrdan genişmiqyaslı etiraz aksiyalarına başlayacaqlarını bəyan edən



“Müqəddəs mübarizə” adlı hərəkatın rəhbəri, deyəsən, keçmiş qondarma rejimin “ildönümü”ndən yenidən siyasi meydana atılmaq üçün tramplin kimi istifadə etmək istəyir.

(ardı 4-cü səhifədə)

## Moskvadan İrəvana əsəbi “əməkdaşlıq” mesajı



Səhifə ⇨ 3

## COP29 qlobal su problemini də hədəfə alıb



Səhifə ⇨ 8

## Milli kinomuzun dünənini yaşadan Film Fondu

Səhifə ⇨ 10

## Transxəzər və Transqafqaz dəhlizləri Özbəkistanın Avropaya açılan qapısıdır



**Dost və müttəfiq ölkələr olan Azərbaycanla Özbəkistan arasında iqtisadi sahədə əməkdaşlıq əlaqələri getdikcə güclənir. Yaxın vaxtlarda iki ölkə ayrıca nəqliyyat-logistika dəhlizləri sistemini formalaşdırmaq niyyətindədir. Bu məqsədlə Özbəkistan Bakı Dəniz Ticarəti Limanının ərazisində terminal tikməyi planlaşdırır.**

Bu barədə Özbəkistan Prezidenti yanında Strateji və Regionlararası Araşdırmalar İnstitutunun şöbə müdiri Bəhrom Sotiboldiyev mətbuata açıqlamasında məlumat verib. O deyib ki, Özbəkistan Azərbaycanın mövcud infrastrukturu vasitəsilə daşımaları fəal şəkildə artırır. “Hazırda ölkələrimiz bu vəzifəni öz iqtisadiyyatlarının inkişafı üçün mühüm amil kimi qiymətləndirirlər. Bunu nəzərə alaraq nəqliyyat kommunikasiyalarının inkişafı sahəsində praktiki əməkdaşlığın genişləndirilməsi Özbəkistan–Azərbaycan qarşılıqlı fəaliyyətinin gündəliyində getdikcə daha prioritet yer tutmağa başlayır, – deyə şöbə müdiri əlavə edib.

(ardı 7-ci səhifədə)

## Avropa Türkiyənin Aralıq dənizində güclənməsindən niyə narahatdır?

**Türkiyə son beş ildə ilk dəfə Avropa İttifaqı XİN başçılarının qeyri-rəsmi toplantısında iştirak edib. Danışıqlara dəvət Ankaraya belə ümid verib ki, fikir ayrılıqlarına baxmayaraq, Brüssel Türkiyə ilə yaxınlaşmağa marağını artıracaq. Ancaq bəzi siyasi şərhçilər o qədər də nikbin proqnoz irəli sürmürlər.**

(ardı 11-ci səhifədə)



# Prezident İlham Əliyevin Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyəti ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 30-da Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib.**

Qəbula görə dövlətimizin başçısına təşəkkürünü bildirən Şamil Ayrım Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Qonaq Türkiyə Böyük Millət Məclisinin ölkəmizdə keçiriləcək parlament seçkilərində böyük heyətlə müşahidəçi statusunda iştirak edəcəyini bildirdi. Bu seçkilərin Azərbaycanın bütün ərazisində keçirilən ilk parlament seçkiləri olmasının önəminə toxunan Şamil Ayrım suverenliyimizin və ərazi bütövlüyümüzün tam təmin edilməsinin əhəmiyyətini vurğuladı.

O, Türk Dövlətləri Təşkilatının dövlət başçılarının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə təşkilata üzv ölkələrin başçıları ilə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidentinin bir masada olmasına və Azərbaycanın Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi davamlı dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Şamil Ayrım vurğuladı ki, Azərbaycan və Türkiyə prezidentlərinin qardaşlığı və dostluğu ölkələrimiz arasında münasibətlərin yol xəritəsini müəyyənləşdirir. Azərbaycanın inkişafının və əldə etdiyi nailiyyətlərin Türkiyədə böyük qürur hissi doğurduğunu deyən qonaq ölkəmizin Qafqazın parlayan ulduzu olduğunu vurğuladı.

Beynəlxalq münasibətlərdə Azərbaycanın artan roluna toxunan Şamil Ayrım bir sıra beynəlxalq təsisatlarda, xüsusilə də Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətimizə qarşı haqsızlığı və ədalətsizliyi qeyd etdi. Şamil Ayrım regionda davamlı sülhün təmin olunması istiqamətində Azərbaycanın atdığı addımları dəstəklədiklərini diqqətə çatdırdı. Azərbaycanda keçiriləcək COP29-a hazırlıq işlərinin çox mükəmməl şəkildə aparıldığını vurğulayan qonaq bu beynəlxalq tədbirlə bağlı ölkəmizə uğurlar arzuladı.

Azərbaycan–Türkiyə qardaşlığının və strateji müttəfiqliyinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı ölkələrimizin daim bir-birinin yanında olduqlarını qeyd etdi. Prezident İlham Əliyev regional vəziyyətə toxunaraq dedi ki, Azərbaycan bölgədə davamlı sülhün təmin olunmasının tərəfdarıdır. Dövlətimizin başçısı vurğuladı ki, bunun üçün özünün artıq dəfələrlə qeyd etdiyi kimi, Ermənistan Konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddiaları aradan qaldırılmalıdır və Konstitusiya dəyişdirilməlidir.

Azərbaycan Prezidenti vurğuladı ki, artıq keçmişin qalığı olan ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan təsisatlar tamamilə ləğv edilməlidir. Dövlətimizin başçısı Minsk qrupunun ləğv edilməməsi ilə bağlı Ermənistanın mövqeyinin heç bir halda başadüşülən olmadığını dedi. Çünki əgər münaqişə keçmişdə qalıbsa və Ermənistanın baş naziri Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini ifadə edirsə, onda keçmişin qalığı olan Minsk qrupunun saxlanmasına nə ehtiyac var?! Dövlətimizin başçısı dedi ki, görünür, Ermənistan sülh müqaviləsində və regionda davamlı sülhün əldə edilməsində maraqlı deyil. Azərbaycan Prezidenti qeyd etdi ki, Ermənistan qəsdən vaxt uzadır, Fransadan, digər Qərb ölkələrindən və başqa tərəflərdən yeni silahlar alır, öz ərazisində üçüncü tərəflərlə hərbi təlimlər keçirir.

Bir sıra Qərb təsisatlarında anti-Azərbaycan qüvvələrin ölkəmizə qarşı haqsız və ədalətsiz münasibətinə toxunan dövlətimizin başçısı vurğuladı ki, Avropa Şurası Parlament Assambleyasında bizim əleyhimizə olan mövqe bilavasitə öz ərazi bütövlüyümüzü və suverenliyimizi təmin etməyimizlə əlaqədardır.

Prezident İlham Əliyev Azərbaycanın Şimali Kipr Türk Cümhuriyyətinə davamlı şəkildə dəstək göstərdiyini qeyd etdi, Türk Dövlətləri Təşkilatının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə Şimali Kipr Türk Cümhuriyyətinin də iştirak etməsinin önəminə toxundu.

Görüşdə Azərbaycan–Türkiyə parlamentlərarası dostluq qrupunun üzvləri çıxış edərək, ölkələrimizin daim bir-birinin yanında olduqlarını, Azərbaycanın gücünün Türkiyənin, Türkiyənin gücünün isə Azərbaycanın gücü olduğunu vurğuladılar, Azərbaycan–Türkiyə qardaşlığının əhəmiyyətini qeyd etdilər.

***AZƏRTAC***

# "İlham Əliyev. İnkişaf məqsədimizdir", 137-ci cild

**"Bölgənin inkişafı bölgədəki ölkələrdə yaşayan xalqların iradəsi ilə təmin edilməlidir. Qeyri-regional ölkələrin bizim işlərimizə müdaxiləsi qəbuledilməzdir. Biz Azərbaycan olaraq, bütün ölkələrlə əlaqələri qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq və qarşılıqlı mənfəət əsasında qururuq və bundan sonra da quracağıq. Əgər kimlərsə - buradan minlərlə kilometr uzaqda yerləşən ölkələrin rəhbərləri bu bölgədə hər hansı bir nəticə əldə etmək istəyirlərsə, bizimlə danışsınlar. Yersiz və lazımsız müdaxilə bu günə qədər heç bir səmərə verməyib və verməyəcək. Hesab edirəm ki, Ermənistan səhv addım atmamalıdır. Regional məsələlər region ölkələrinin bilavasitə iştirakı və iradəsi ilə həll olunmalıdır".**

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 137-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı mayın 19-da Azərbaycan və İran prezidentlərinin iştirakı ilə "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız qalası" hidroqovşağının açılış mərasimində çıxışı zamanı söyləyib. Oxucu həmin tədbirin materialları ilə bu kitabda tanış ola bilər.




Çoxcildliyin 137-ci cildində toplanmış materiallar 2024-cü ilin may ayını əhatə edir.

Yeni kitaba Prezident İlham Əliyevin Azərbaycana səfər etmiş Belarus Prezidenti Aleksandr Lukaşenko ilə birgə mətbuata bəyanatlarının mətni, dövlət başçılarının Bakı Ekspo Mərkəzində XVII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro" və XXIX Azərbaycan Beynəlxalq Qida Sənayesi - "Interfood Azerbaijan" sərgiləri ilə tanışlığına, habelə Füzuli rayonuna və Şuşa şəhərinə səfərlərinə dair materiallar daxil edilib.

Prezident İlham Əliyev may ayında Cəbrayıl rayonunda səfərdə olub, Böyük Mərcanlı, Karxulu, Sarıcallı, Maşanlı kəndlərinin təməllərini qoyub. Dövlətimizin başçısı, həmçinin Zəngilan rayonuna səfər edib, Ağalı kəndində "Ağalı" hotelinin açılış mərasimində iştirak edib, Mincivan qəsəbəsinin təməlini qoyub, "Zəngilan" və "Şayıflı" su-elektrik stansiyalarının, Zəngilan məscidinin açılış mərasimlərində iştirak edib, Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin təməlini qoyub. Bütün bunlar haqqında informasiyalar yeni kitabda verilib.

Çoxcildliyin 137-ci kitabında Prezident İlham Əliyevin Azərbaycana dövlət səfərinə gəlmiş Tacikistan Prezidenti Emoməli Rəhmon ilə görüşünə, iki ölkənin liderlərinin mətbuata bəyanatlarla çıxışlarına, sənədlərin imzalanması mərasiminə dair materiallar da toplanıb.

Oxucu bu kitabda Azərbaycan Prezidentinin aprelin 26-da Berlində keçirilmiş "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirakı zamanı "Euronews" telekanalına müsahibəsi ilə də tanış ola bilər.

Yeni nəşrə Prezident İlham Əliyevin inkişaf etməkdə olan kiçik ada dövlətlərinin "Dayanıqlı firavanlıq üçün istiqamətin müəyyən olunması" mövzusunda 4-cü Beynəlxalq Konfransının iştirakçılarına müraciətinin mətni də daxil edilib.

Həmçinin kitabda dünya liderlərinin və nüfuzlu şəxslərin 28 May - Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidentinə göndərdiyi məktubları yer alıb.

"Azərnəşr" tərəfindən buraxılan 137-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin materiallarından istifadə olunub.

# Azərbaycan–Belarus: dostluğumuz davam edir

**Avqustun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya zəng edib.**

Dövlətimizin başçısı Aleksandr Lukaşenkonu ad günü münasibətilə təbrik edib, ona möhkəm cansağlığı və fəaliyyətində uğurlar arzulayıb.

Belarus Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını ifadə edib.

Telefon söhbəti zamanı ölkələrimiz arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub.

Yüksək səviyyədə təmasların əhəmiyyətinə toxunularaq bu il Belarus Prezidentinin ölkəmizə dövlət səfərinin əlaqələrimizin daha da möhkəmlənməsi işinə töhfə verdiyi bir daha qeyd edilib.

Dövlət başçıları əməkdaşlığımızın perspektivlərinə dair və gələcək təmaslarla bağlı fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

# Ermənistan 4 min soydaşımızın taleyinə aydınlıq gətirməlidir

**"30 avqust BMT qərarları ilə Beynəlxalq itkin düşmüş şəxslər günü kimi qeyd olunur. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində itkin düşmüş 4 minə qədər Azərbaycan vətəndaşının taleyinin müəyyənləşdirilməsi yalnız onların doğmalarını deyil, Azərbaycan dövlətini narahat edən ən kəskin humanitar problemlərdən biridir".**



Bu barədə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" platformasındakı paylaşımında bildirib.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistan öz qeyri-insani mahiyyətini bir daha göstərərək onların aqibəti və kütləvi məzarlıqlarının yeri barədə məlumatları verməkdən yayınır:

"Çoxsaylı şahid ifadələri və işğaldan azad edilmiş ərazilərimizdə aşkar edilmiş kütləvi məzarlıqlar əsir və girov götürülmüş azərbaycanlıların Ermənistan tərəfindən vəhşicəsinə işgəncələrə məruz qalaraq kütləvi şəkildə qətlə yetirildiyini sübut etmişdir. Bu insanlığa qarşı cinayətlərdə günahkar olanlar Ermənistanda nəinki cəzalandırılmır, hətta qəhrəmanlaşdırılır. Lakin haqq, ədalət öz yerini tapdı! Bu gün həmin cinayətkarların əksəriyyəti Azərbaycanın ədalət mühakiməsi qarşısında cavab verir. Erməni lobbisinin pulu müqabilində həmin müharibə canilərini azad etməyə çağıran bir sıra Qərb siyasətçiləri və Qərb media orqanları utanmalıdırlar. Ermənistan öz vəhşi əməllərinə görə Azərbaycandan üzr istəməli, digər günahkarları özü məsuliyyətə cəlb etməli və kütləvi məzarlıqların, o cümlədən Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımovun qalıqlarının dəqiq yerini bildirməlidir".

"Torpaqlarımızın işğaldan azad edilməsi itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi prosesinə böyük təkan verib. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq aşkar olunmuş insan qalıqlarının DNT analızı əsasında Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və müvafiq dövlət qurumu tərəfindən indiyə qədər Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 149 nəfərin şəxsiyyətini müəyyənləşdirmək və ailələrinə məlumat vermək mümkün olmuşdur. 30 ildən sonra onların tapılması və hərbi təntənə ilə dəfn edilməsi Prezident İlham Əliyevin hər bir Azərbaycan vətəndaşına olan şəxsi qayğısı və diqqətinin növbəti təzahürüdür. 30 il Ermənistan-Azərbaycan münaqişəsi kontekstində beynəlxalq humanitar hüquqa uyğun olaraq itkin düşmüş şəxslərimizin taleyini müəyyən etməli olan Beynəlxalq Qızıl Xaç Komitəsi kimi təsisatların fəaliyyətini




qənaətbəxş hesab etmirik. Əfsuslar olsun ki, bu gün BQXK öz nizamnaməsinə və beynəlxalq humanitar hüquqa zidd olaraq Ermənistanın pullu sifarişi ilə hesabat yazan şəxslərə yalan məlumatlar ötürməklə məşğul olur və qərəzli anti-Azərbaycan propaqanda kampaniyasında yer alır. Azərbaycan dövləti özü itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi üçün bundan da sonra əlindən gələni əsirgəməyəcək, onların ailələrinin həsrət və iztirablarına son qoymaq üçün bu xüsusda olan davamlı tədbirlərini davam etdirəcək", - H.Hacıyev vurğulayıb.

***XQ***

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələrinin (gömrük attaşelərinin) təyin edilməsi və onların fəaliyyətinin təmin edilməsi haqqında" 2005-ci il 16 dekabr tarixli 331 nömrəli və "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1305-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 20 noyabr tarixli 349 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələrinin (gömrük attaşelərinin) təyin edilməsi və onların fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 16 dekabr tarixli 331 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1100 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında, 3-cü və 4-cü hissələrində "dövlətlərdəki" sözü "dövlətlərdə və beynəlxalq təşkilatlarda" sözləri ilə əvəz edilsin;

1.2. 1-ci hissədə "dövlətlərdə" sözü "xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda" sözləri ilə əvəz edilsin və həmin hissədən "xarici dövlətlərdəki" sözləri çıxarılsın;

1.3. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin (gömrük attaşelərinin) təyin edilməsi barədə təkliflərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə razılaşdırdıqdan sonra bu Fərmanın 1-ci hissəsinə uyğun olaraq razılaşdırılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

2.2. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələri (gömrük attaşeləri) öz funksiyalarını təyin olunduqları xarici dövlətlərdə və ya beynəlxalq təşkilatlarda akkreditə olunmuş Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin tərkibində həyata keçirirlər və öz fəaliyyətlərini həmin nümayəndəliklərin fəaliyyəti ilə əlaqələndirirlər.".

**2.** "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1305-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 noyabr tarixli 349 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2262 (Cild I) 3.2-ci bəndinə "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi" sözlərindən sonra ", Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 avqust 2024-cü il**

# Zakir Həsənov türkiyəli həmkarını təbrik edib

**Avqustun 30-da Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov ilə Türkiyənin milli müdafiə naziri Yaşar Gülər arasında telefon danışığı olub.**



Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, general-polkovnik Z.Həsənov qardaş ölkənin Zəfər bayramı və Silahlı Qüvvələr Günü münasibətilə türkiyəli həmkarını təbrik edib.

Telefon danışığı zamanı ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə edilib.

***XQ***

# XİN-dən Türkiyəyə təbrik

**Azərbaycan Xarici İşlər Nazirliyi Türkiyəni 30 avqust - Zəfər bayramı münasibətilə təbrik edib. Bu barədə XİN-in "X" hesabında paylaşım edilib.**

"Qardaş Türkiyənin İstiqlal müharibəsinin həlledici qələbəsini, türk xalqının qətiyyəti və iradəsini simvolizə edən 30 avqust - Zəfər bayramı münasibətilə Türkiyə dövləti və xalqını ürəkdən təbrik edir, qardaşlıq və müttəfiqlik telləri ilə bağlı olduğumuz Türkiyəyə daim yeni zəfərlər arzu edirik", - deyə paylaşımda qeyd olunub.

***XQ***

# İrəvan Moskvanın vasitəçiliyinə qarşı

## *Yaxud "paşinyançı deputat"ın anti-Rusiya tezisləri*

**Prezident Vladimir Putinin Bakıya səfəri zamanı və ondan sonra Rusiya tərəfindən səslənmiş bəyanatlar, o cümlədən Putinin Azərbaycandan qayıtdıqdan sonra Ermənistanın baş naziri Nikol Paşinyanla telefon danışığı onu deməyə əsas verirdi ki, Moskva Bakı – İrəvan münasibətlərinin nizamlanması üzrə vasitəçiliyə geri dönür. Əslində, bu məqamı rusiyalı siyasi ekspertlər də vurğulayırdılar.**



Ermənistandan gələn reaksiyalar isə ölkə iqtidarının belə bir vasitəçiliyə qarşı olduğu barədə rəy formalaşdırır. Bu mənada Ermənistan parlamentinin hakim "Vətəndaş sazişi" partiyasından olan deputatı Ovik Ağazaryanın bildirdikləri həmin rəyi qətiləşdirməyə əsas verir.

Qeyd edək ki, Putinin Bakıya səfərindən sonrakı müddətə diqqət yetirsək, O.Ağazaryandan əvvəl də rus vasitəçiliyini süngü ilə qarşılayanlar olub. Fikrimizi izah etmək üçün bir məqamın üzərində dayanaq. Məlum olduğu kimi, Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Bakıda olarkən ölkəsinin "Birinci kanal"ına müsahibəsində bildirmişdi ki, Ermənistan regional kommunikasiyaların açılmasını sabotaj edir. Əslində, o, vurğunu rəsmi İrəvanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatı heçə saydığının üzərinə qoymuşdu. O bəyanatı ki, orada Azərbaycan və Rusiya liderləri ilə yanaşı, Ermənistanın baş naziri Nikol Paşinyanın da imzası var.

Lavrova cavab verən Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan ölkəsinin mövqeyini əsaslandırarkən, diqqəti Rusiyanın Bakı – İrəvan münasibətlərinin nizamlanmasındakı vasitəçiliyinin mümkünsüzlüyü üzərində cəmləşdirmişdi. Ona görə ki, İrəvanda regional kommunikasiyaların açılmasını özündə ehtiva edən üçtərəfli bəyanat məntiqinin Kremlin Azərbaycan və Ermənistan arasında vasitəçilik forması olduğunu bilirlər. Daha dəqiq desək, Moskva vasitəçilik baxımından təkcə 10 noyabr 2020-ci il tarixli deyil, ümumən 2020-ci ildən 2022-ci ilədək imzalanmış bütün üçtərəfli sazişlərə istinad edir, həmin sənədlərin fundamentallığını irəli sürür.

Paşinyanın partiyasından olan deputat O.Ağazaryan da buna qarşı çıxır və deyir ki, Rusiya təkbaşına vasitəçi ola bilməz. Nəinki ola bilməz, Moskvanın mövcud istiqamətdəki təşəbbüsləri yanlış və yersizdir. Çünki Rusiya, Ağazaryanın fikrincə, bir çox hallarda vasitəçi deyil, tərəf kimi davranır. Erməni deputatın tərəf dedikdə nələri nəzərdə tutduğundan söz açacağıq. Hələlik isə bir məqama nəzər salaq.

Xatırladaq ki, vaxtilə Qarabağda Rusiya sülhməramlıları var idi və onlar demək olar, bütün hərəkətləri ilə Ermənistanın tərəfində dayanırdılar. Qarabağ ermənilərinə yardım göstərirdilər, bölgədəki separatçı rejimin mövcudluğunu təmin edirdilər, bilavasitə Ermənistanın Qarabağ avantürasını saxlaması üçün lazım olan silah-sursatın əraziyə daşınmasına göz yumurdular. Bəs bunun qarşılığında rəsmi İrəvan nə etdi? Birincisi, sülhməramlıları öz işlərinin öhdəsindən gəlməməkdə günahlandırdı. İkincisi, Qərb vasitəçiliyi xəttinə üstünlük verdi.

Ermənistan onsuz da üzünü Qərbə çevirmişdi. Bu mənada indi Ağazaryanın söylədikləri bəhanədən başqa bir şey deyil. Nəzərə alaq ki, "Vətəndaş sazişi" partiyasından deputat fikirləri ilə təmsil olunduğu komandanın Azərbaycan və Rusiyanın eyni tərəf olmasına dair cəfəngiyyatını tirajlayır. Halbuki heç ölkəmizə də Moskvanın vasitəçiliyi lazım deyil. Ümumən, rəsmi Bakı birbaşa danışıqlar məntiqini əsas götürür. Yəni, heç bir vasitəçiliyə ehtiyac duymur.

Hazırda Rusiya rəsmilərinin bildirdikləri ilk baxışdan ölkənin Azərbaycan və Ermənistan arasında vasitəçilik reallaşdırmaq istəyi kimi görünsə də, məlumdur ki, Moskvanı düşündürən başlıca məqam regional kommunikasiyaların açılmasıdır. Sadəcə, Kreml oyun qaydalarına riayət edir və bu baxımdan üçtərəfli bəyanata söykənir. O bəyanata ki, 44 günlük müharibə məğlubu olan Ermənistanın öhdəliklərini vurğulayır.

Öhdəlikləri icra etmək lazımdır. Kremlin istəyi budur. İrəvan öhdəliklərini yerinə yetirməlidir ki, Rusiyanın Cənubi Qafqazla bağlı hazırkı maraqları təmin edilsin. Ancaq Ermənistan Moskvanı bölgədən sıxışdırmaq istəyir və bunu Qərbin köməyi ilə reallaşdırmaq niyyətindədir. Daha doğrusu, Qərb Ermənistanı buna təhrik edir. Nəticədə Paşinyançı deputat O.Ağacanyan Qərbə önəm verdiyini açıqlayır. Onun sözlərinə görə, guya, Avropa və ABŞ İrəvanın tərəfini saxlamır və bu səbəbdən onların vasitəçiliyi Rusiyanın subyektiv vasitəçiliyindən daha məqbuldur. Ən əsası isə Ağazaryan Qərb vasitəçiliyinin sırf "Zəngəzur dəhlizi" baxımından vacibliyi üzərində dayanır. Dayanır və S.Lavrovu tənqid edir. Erməni parlamentari deyir ki, Rusiya XİN rəhbərinin İrəvana yönələn sabotaj məntiqi gülməlidir.

Ağazaryan Moskvanın regional kommunikasiyaların açılmasının beynəlxalq standartlara uyğun, dövlətlərin suveren hüquqları əsasında həyata keçirilməsini istəmədiyini bildirir. "Hər şeyi başqa cür etmək istəyirlər, biz isə guya, sabotaj edirik", – deyən deputat vurğulayıb ki, Ermənistan sabotaj yolu tutmur, Azərbaycan, Türkiyə və Rusiyanın sərhədlərin açılması məsələsindəki təsəvvürünün əleyhinə çıxır: "Biz öz ərazilərimizdə hüquqlarımızın zərrə qədər itirilməsinin əleyhinəyik. Əgər Lavrov, Putin, Əliyev, Paşinyan, Ərdoğan, Gürcüstan və İran regionda sabit sülhün olmasında maraqlıdırlarsa, o zaman, bu, dövlətlərin gücünə və imkanlarına deyil, beynəlxalq hüquqa əsaslanmalıdırlar".

Qeyd edək ki, Paşinyanın komandasında ağazaryanlar, ağacanyanlar və digər yanlar çoxdur və onların hamısının ağlı, demək olar, eyni cürdür. Onlar, əvvəla, keçmişi unudurlar. Unudurlar ki, Ermənistan 44 günlük müharibənin məğlubudur və 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat məğlub ölkənin daha da rüsvayçı duruma düşməmək üçün üzərinə götürdüyü öhdəliklər məcmusudur. Sonrakı illərin üçtərəfli sazişləri də məhz 2020-ci il tarixli sənəddən qaynaqlanır və kompleks səciyyə daşıyır. İkincisi, məğlub Ermənistan, əslində, üçtərəfli sazişin nəinki 9-cu, eləcə də digər bir sıra bəndlərini də yerinə yetirmədi, Azərbaycan Ağazaryanın haqqında söz açdığı beynəlxalq hüququ və ədaləti özü bərpa etdi. Deməli, erməni deputatın beynəlxalq hüquqdan danışmasının özü gülüncdür. Üçüncüsü, böyük siyasət uşaq oyunu deyil ki, sözündən dönəsən, imzandan imtina edəsən. Bu düşüncə Paşinyanın və onun komandasındakı ağazaryan kimilərinin təfəkkürünə tam yad təmayüldür. Beləlləri öhdəliklərdən boyun qaçırmanın cəzasının olması reallığını anlamayacaq dərəcədə iflicdirlər.

Sonda onu da deyək ki, O.Ağazaryan Ermənistanın hakim "Vətəndaş sazişi" partiyasının nisbətən konstruktiv sayılan deputatıdır. Ölkədəki revanşist-şovinist kəsim onu bu mövqeyinə görə vaxtilə qəbul etməyib. Ancaq maraqlıdır ki, Paşinyanın komandasının hətta ən ağıllı sayılan təmsilçisi belə reallıqları görmək imkanından məhrumdur.

Ağazaryan Qərb vasitəçiliyi xəttindən söz açırsa, bu vasitəçiliyin Cənubi Qafqazla bağlı hansı avantürist məqsədlərə köklərdiyini bilməli və dərk etməlidir. Anlamalıdır ki, Ermənistan özünün suverenlik və ərazi bütövlüyü klişesi, "Dünyanın kəsişməsi" kimi sərsəm ideyası ilə bir növ, ortaya buraxılmış günah keçisidir. Necə deyərlər, hər keçi öz ayağından asılır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

**Rusiyanın Ermənistanla gərginliyin pik həddinə çatmış münasibətləri bir yolla nizamlamağa cəhd göstərəcəyi gözlənilən idi. Sadəcə Moskvanın bunu hansı üsulla reallaşdıracağı maraq doğururdu. Hər iki ölkənin siyasi düşərgəsində təzyiqin hərbi, yoxsa diplomatik xarakter daşıyacağı sualı ətrafında qızğın müzakirələr gedirdi. Göründüyqü kimi, Kreml ikinci yolu seçdi.**

# Moskvadan İrəvana əsəbi "əməkdaşlıq" mesajı

## *Rusiyanın Ermənistanı yenidən təsir dairəsinə qaytarmaq cəhdləri nə ilə nəticələnəcək?*







İrəvanın üzünü Qərbə belə kəskin bucaq altında çevirməsi, iyulun sonlarında "Eagle Partner 2024" birgə hərbi təlimlərə ABŞ-nin Avropa və Afrikadakı ordusunun və Kanzas Milli Qvardiyasının hərbçilərinin cəlb edilməsi Moskvanın səbrini daşıran son damla oldu. Ermənistan Müdafiə Nazirliyi açıqlamasında bildirdi ki, təlimlər "beynəlxalq sülhməramlı missiyalarda iştiraka hazırlıq məqsədilə" keçirilir. ABŞ-nin İrəvandakı səfirliyi isə "təlimlərin ABŞ və Ermənistan arasında uzunmüddətli əməkdaşlığı gücləndirmək məqsədi" daşıdığını qeyd etdi. Yəni, İrəvan və Ağ evin birgə hərbi təlimlərin xarakteri ilə bağlı açıqlamalarındakı ziddiyyət göz qabağındadır. Ən böyük anlaşılmazlıq və ziddiyyət isə Ermənistan baş nazirinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə əməkdaşlıqdan nümayişkaranə şəkildə imtina etməsindən sonra əmələ gəlmişdi. İrəvanın bu "siyasi şıltaqlığına" Moskvanın adekvat reaksiya verməsi mütləq idi...

* * *

Dünən Rusiyanın Ermənistandakı səfirliyinin yaydığı məlumatda deyilir: "Kreml 1997-ci ildə "Rusiya Federasiyası ilə Ermənistan Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım Müqaviləsi"ndə təsbit olunmuş prinsiplər əsasında ikitərəfli əməkdaşlığın inkişafını davam etdirməkdə qətiyyətlə israrlıdır".

27 il bundan əvvəl iki ölkə arasında imzalanmış müqavilənin ildönümü ilə bağlı yaydığı məlumatda səfirlik xüsusilə qeyd edib: "Bu sənəd dövlətlərarası münasibətlərimizin prinsiplərini və prioritetlərini müəyyənləşdirdi, eyni zamanda ikitərəfli tərəfdaşlığın həqiqi müttəfiqlik ruhunda qurulmasında mühüm mərhələ oldu. Xüsusilə, Rusiya və Ermənistan ənənəvi dostluq münasibətlərini və siyasi, iqtisadi, hərbi, elmi, mədəni və digər sahələrdə əməkdaşlığı hərtərəfli gücləndirmək barədə razılığa gəliblər. Ölkələrimiz, həmçinin həm TransQafqaz regionunda, həm də dünyada sabitliyin və təhlükəsizliyin gücləndirilməsi istiqamətində əməkdaşlıq etmək öhdəliyi götürüblər".

Bu, əslində, Moskvanın İrəvana xatırlatmadan daha çox ona xəbərdarlıq xarakteri daşıyan hirsli "əməkdaşlıq" mesajıdır. Məlumatda Moskva ilə İrəvanın "Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin artırılması istiqamətində əməkdaşlıq etmək öhdəliyi"nin yada salınması Rusiyanın bölgədə özəl maraqlarını bərpa etmək planlarından xəbər verir. Moskvanın diplomatik mesajının altında İrəvandan buna müvafiq cavab tələbi gizlənir. Kifayət qədər ciddi tələbdir. Göründüyü kimi, Kreml İrəvanla münasibətləri normallaşdırmaq fonunda bölgəyə müdaxiləyə cəhdlər edən Qərbin qarşısına yeni sipər çəkməyə hazırlaşır. Bəs, hazırkı məqamda Ermənistan 27 il əvvəlki öhdəliklərini yerinə yetirməyə razı olacaqmı? Paşinyan komandası yenə seçim qarşısındadır. Rəsmi İrəvan indi "kollektiv Qərb" və Rusiya ilə münasibətlərini əvvəlki tərzdə davam etdirə bilməyəcək. Onun üçün, nəhayət, hansı gücün yanında durmalı olduğu barədə qərar vermək məqamı yetişib. Bu seçimi Azərbaycan da maraqla izləyir...

* * *

"Moskva ümid edir ki, İrəvan və Bakı tezliklə sülh müqaviləsini imzalayacaqlar". Bunu **Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov** "RİA Novosti"yə müsahibəsində bildirib. Tərəflərin rəsmi bəyanatlarına əsasən, sülh sazişi layihəsinin praktiki olaraq razılaşdırıldığını vurğulayan səfir bunun Cənubi Qafqazda möhkəm sülhün və əmin-amanlığın əldə olunması baxımından mühüm addım olacağını nəzərə çatdırıb: "Bakı və İrəvan arasında sülhün əldə olunmasına dair danışıqlar Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında 2020-2022-ci illərdə imzalanmış üçtərəfli sazişlər qovluğuna tam uyğundur".



Cənubi Qafqazdakı bütün diplomatik korpusunu məlum istiqamətdə hərəkətə gətirən Moskva Azərbaycandakı səfiri M.Yevdokimovun dili ilə həm də gələcək sülh sazişi ilə bağlı razılıqdan savayı, gündəlikdə bölgədə nəqliyyat kommunikasiyalarının qarşılıqlı açılması, sərhədin delimitasiyası və demarkasiyası, vətəndaş cəmiyyətləri vasitəsilə əlaqələrin qurulması mövzularının da olduğunu qeyd edib. Bütün bunların reallaşması vaxtının Ermənistanın seçimindən asılı olacağı şübhəsizdir.

**Mövzu ilə bağlı "XQ"-yə açıqlama verən politiloq Fərhad Məmmədov** diqqəti Ermənistanla Rusiya arasında siyasi və təhlükəsizlik müstəvisində olan münasibətlərdə soyuqluğun yarandığına, ciddi geriləmə baş verdiyinə yönəltdi: "Maraqlıdır ki, iki ölkə arasında iqtisadi əməkdaşlıqda görünməmiş artım var. Cari ilin altı ayı ərzində 8,5 milyard dollarlıq ticarət dövriyyəsindən söhbət gedir. Digər tərəfdən Moskva yaxşı görür ki, İrəvan onun cızdığı "qırmızı xətlərə" çox yaxınlaşıb. Doğrudur, Ermənistan iştirakını dondursa da, hələlik KTMT-dən çıxmayıb. Avrasiya İqtisadi İttifaqından çıxmaq barədə isə heç düşünmür. Əksinə, burada əməkdaşlığın miqyasını artırır. Hazırda Rusiya fəallaşıb və bu prosesdə Azərbaycan müstəvisi də mövcuddur. Əgər biz Ermənistan–Azərbaycan münasibətlərinin tərkibinə nəzər yetirsək görərik ki, danışıqlar üç əsas mövzu ətrafında gedir. Birincisi sülh sazişi ilə bağlıdır. Burada Rusiyanın rolu, demək olar ki, yoxdur. İkincisi sərhədlə bağlı məsələdir ki, orada da Moskva dominant deyil. Rusiya yalnız kommunikasiyaların açılmasında tərəf kimi çıxış edir. Yəni, o, hökumətlərarası üçtərəfli komissiyanın üzvüdür. Burada vasitəçi deyil, tərəfdir. Məhz bu funksiyasından yararlanaraq yolların açılması prosesində iştirak etməyə çalışır. Söhbət onun sərhədlərini qoruduğu Ermənistan ərazisindən gedir".

Tanınmış politoloq hesab edir ki, hazırda Moskvanın məqsədi iki ölkə arasında siyasi təhlükəsizlik və iqtisadi müttəfiqlik münasibətlərini qoruyub saxlamaq, Azərbaycanla üçtərəfli formatda iştirakını davam etdirmək və kommunikasiyalar işə düşərkən Ermənistan ərazisində özünün rolunu önə çıxarmaqdan ibarətdir.

* * *

"Bəli, son vaxtlar İrəvan özünü çox məsuliyyətsiz aparır. Eyni zamanda, həm Qərb, həm də Şərqlə oynamaqda davam edir. Əsas məqsədi isə vaxt udmaqdır. Şəxsən Paşinyanın hədəfi növbəti seçkilərə qədər hakimiyyəti əldən verməməkdir". Bunu qəzetimizə açılamasında **siyasi şərhçi Tofiq Abbasov** söylədi. Onun fikrincə, Ermənistan heç vaxt Rusiyadan qırılan deyil, o, sadəcə Kremlə müqavimət göstərdiyini Qərbə nümayiş etdirir: "Doğrudur, Zvarnots hava limanından Rusiya sərhədçilərini çıxardılar. Başqa nə edə bildilər? Heç nə! Bununla Qərbə lazım olduğunu göstərir. Yəni, Hayastanın əsas məqsədi özünü mümkün qədər baha qiymətə satmaqdır. Bu prosesdə onun müstəqil subyekt olmadığı faktını nəzərdən qaçırmalı deyilik. Bu səbəbdən də eyni vaxtda hamının sözünü eşitməyə, işinə yarımağa çalışır. İrəvan nə ABŞ-dən, nə Avropadan, nə də Rusiyadan qırılacaq. Ermənistanın Vaşinqtondakı səfiri Lilit Makunts isə həm demokratların, həm də respublikaçıların bütün tədbirlərində iştirak edir və hamı ilə münasibət saxlayır. O, Ermənistanın, guya, onların yanında olduğunu nümayiş etdirir. Məqsəd nədir? Dilənmək! Hamıya ağız açır, hamıdan dəstək umurlar. Aprelin 5-də Avropa İttifaqından istədiklərinin axırı nə oldu? "Qəpik-quruş"la yola salındılar. Bəs Rusiya niyə Ermənistanı yenidən yanına çağırır? Kreml ona xatırladır ki, 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanata imza atmısan. İndi zəhmət çək, öhdəliyini yerinə yetir. Bəli, bu gün Rusiya üçün ən vacib məsələ dəhlizdir. Paşinyan bu məsələni qəsdən uzadır. Çünki bilir ki, Rusiyaya "hə" desə, ABŞ ondan imtina edəcək. Hamını özündən asılı vəziyyətdə saxlamağa çalışır. Bununla həm də özünün təhlükəsizliyini qoruyur".

Azərbaycanın Ermənistandan fərqli olaraq, Qərb və Şərqlə balanslı siyasət yürütdüyünü deyən siyasi şərhçi Paşinyanın hamını aldatdığını bildirdi: "Bu, fırıldaqçılıq siyasətidir. Hamıya söz verir ki, yanındayam, sonra nəsə qoparmağa çalışır ki, seçkilərə qədər siyasi ömrünü uzatsın".

Moskvanın Ermənistan isteblişmentinə qulaqburması verməsi gözlənilən idi. İntəhası, indiki durumda Paşinyan iqtidarının dəyişməsi Kremlin özünə də sərf eləmir. Ona görə də Rusiya XİN səfirliklər səviyyəsində İrəvana boynuna götürdüyü öhdəliyi yerinə yetirməyin məqamının yetişdiyini xatırladır. Hələlik bunu yumşaq tərzdə edir.

Nə qədər ki, Paşinyan ölkəsini KTMT-dən çıxarmaq niyyətindən əl çəkməyib, onda təzyiqin get-gedə ciddiləşəcəyi qaçılmazdır. Sadəcə, o, bunu KTMT-nin öz əli ilə etməyə çalışır. Əgər bu variant alınsa, onda İrəvan özünü bütün dünyaya "qurbanlıq quzu" kimi təqdim edəcək, üstəlik, NATO-dan imdad diləyəcək. Bəli, Paşinyan Rusiyadan birdəfəlik qırılmaq üçün əsl beynəlxalq qalmaqal yaratmaq istəyirdi, amma Moskva ona bu şansı vermədi...

***İmran BƏDİRXANLI***
***XQ***

# "Etnik təmizləmə" şousu



**(əvvəli 1-ci səhifədə)**

Ancaq neçə vaxtdır Ermənistan hakimiyyəti və ona yaxın dairələr Qarabağ erməniləri və "Azərbaycan tərəfindən həyata keçirilən etnik təmizləmə" mövzularını tirajlayırlar. Bu məsələdə Moskvaya qarşı ittihamlara gəldikdə, onlar əvvəl də olub və indi də var. İttihamla üzləşən Rusiyanın dövlət təmsilçilərindən biri də ölkənin Xarici İşlər Naziriliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovadır.

Əvvəlcə onu bildirək ki, Ermənistan iqtidarının üçtərəfli bəyanat məntiqindən uzaqlaşdığına şübhə yoxdur. Bununla bağlı ona, yumşaq desək, müxtəlif iradlar bildirilib. O cümlədən, Rusiya da narazılığını dəfələrlə ifadə edib. Ancaq iki maraqlı məqam var. Birincisi, İrəvan rəsmi şəkildə üçtərəfli bəyanatlardan imtina etməyib. İkincisi, Moskva hələ də ümidlidir ki, erməni iqtidarı həmin sənədlər üzərinə qayıdacaq.

Mariya Zaxarovanın ənənəvi brifinq zamanı mövzuya dair bildirdiklərində də iki mühüm məqam var. Əvvəla, hiss olunur ki, Kreml üçtərəfli bəyanat məsələsində İrəvanı sıxır və ondan müsbət, yaxud mənfi yönümlü hansısa cavab almaq istəyir. Digər tərəfdən, Moskvada ermənilərin nazı ilə oynamaq limitinin tükəndiyi də görünür. Vəziyyət qarışıqdır. Yəni, həm ümid var, həm də limit tükənib, habelə əsəblər tarıma çəkilib.

M.Zaxarova üçtərəfli bəyanatlardan uzaqlaşmağın təhlükəliliyi amilini qabardır. Deməli, Kreml öz egidasından kənar heç bir həll variantını qəbul etməyəcək. Bu məqamda erməni jurnalistin xanım sözçüyə sualı təxminən belədir: "Siz öz danışdığınıza inanırsınız? Başqa sözlə desək, Rusiya hələ də üçtərəfli bəyanatların etibarlılığı qənaətindədir?"

Zaxarovanın cavabı: "Bəli, biz Rusiya, Ermənistan və Azərbaycan liderlərinin həmin dövrdə əldə olunmuş üçtərəfli razılaşmalarından çıxış edirik. 2020-ci ildən 2022-ci ilə qədər olan bu bəyanatlar Ermənistan–Azərbaycan barışığının əsasını təşkil edəcək. İnanırıq ki, bunun alternativi yoxdur".

Ümumən, diqqətə çatdırdıqlarımız həm də Zaxarova ilə erməni jurnalistlər arasında gərginləşən epizodlardır. Yeri gəlmişkən, son aylar belə epizodların sayı çoxalıb. Hiss olunur ki, erməni jurnalistlər həm üçtərəfli bəyanat məntiqini, həm də ümumən əsl mahiyyəti anlamır, yaxud anlamaq istəmir və sualları ilə Zaxarovanın timsalında Rusiyanın Ermənistana qarşı haqsız davrandığı təəssüratı formalaşdırmaq məqsədi güdürlər.

Əvvəldə də vurğuladığımız kimi, Moskva Qarabağ erməniləri və "Azərbaycan tərəfindən həyata keçirilən etnik təmizləmə" mövzuları üzrə də haqsız davranmaqda ittiham olunur. Məsələn, erməni media təmsilçiləri Zaxarovadan Moskvanın "Azərbaycanın Qarabağda apardığı etnik təmizləmədən" sonra 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatı etibarlı hesab edib-etmədiyini soruşurlar. Nəzərə alsaq ki, Ermənistan hakimiyyəti və onun Qərbdəki havadarları haqqında bəhs etdiyimiz "etnik təmizləmə" şousu ətrafında ajiotajı artırıblar, əslində, Zaxarovaya da mövcud xüsusda qıcıqlandırıcı sualın ünvanlanacağını proqnozlaşdırmaq mümkün idi.

M.Zaxarovanın cavabları erməni ictimai rəyini əməlli-başlı əsəbləşdirib. Rusiya rəsmisi məsələnin artıq neçənci dəfədir gündəmə gəldiyini xatırladıb. O deyib ki, etnik təmizləmə xüsusunda heç bir fakt yoxdur: "Yaxşı, bilirsiniz, etnik təmizləmə ilə bağlı mövzunu artıq müzakirə etmişik. Hörmətli beynəlxalq təşkilatlar bu məsələyə dair hansısa nəticəyə gəliblər? Altı ay əvvəl biz bunu müzakirə edəndə belə, etnik təmizləmə ilə bağlı beynəlxalq təşkilatların və ya beynəlxalq təşkilatda çalışan ekspertlərin qələmindən çıxan bir qərar və ya bir qiymət mənə verə bilmədiniz. Əgər varsa, mənimlə paylaşın".

Bəli, Zaxarovanın cavabları onu da deməyə əsas verir ki, Qarabağ ermənilərinin qayıdışını istəməyən Ermənistan hakimiyyətidir. Xatırladaq ki, bir müddət əvvəl baş nazir Nikol Paşinyan məsələ ilə bağlı söz açarkən, indiki durumda geri dönüşün mümkünsüzlüyünü vurğulamışdı. Axı rəsmi İrəvanın tələbi var: Qarabağ ermənilərinə beynəlxalq təhlükəsizlik təminatı verilsin. Elə bir təminat ki, onları imtiyazlı təbəqə kimi göstərsin, beləliklə Azərbaycan yurisdiksiyası heçə sayılsın və gələcəkdə bölgə ilə əlaqədar iddialar irəli sürmək üçün tutacaq yer olsun.

M.Zaxarova bunları bildirməsə də, onun məsələ ilə əlaqədar N.Paşinyanın mövqeyi üzərində dayandığı aydındır: "Nikol Paşinyan bunu necə görür? Bunun üçün ətraflı proqram varmı? Məsələn, mən Azərbaycanın əhalinin qaytarılması təklifi ilə yayımladığı proqramı görmüşəm. Siz bunu başqa cür adlandıra bilərsiniz. Belə bir proqramı Azərbaycan tərəfi təqdim etdi. Əgər Ermənistanın baş nazirinin tərtib etdiyi hansısa proqram varsa, mən də ona baxıb, sonra şərh verməkdən məmnun olaram. Niyə başqa dövlətin nümayəndəsindən soruşursunuz ki, biz bunu necə görəcəyik?"

M.Zaxarova bir yandan başqa dövlətin təmsilçisi kimi, Qarabağın erməni əhalisinin bölgəyə qayıdışı məsələsində ona sual ünvanlanmasının düzgün olmadığını bildirir, digər tərəfdən isə bütün problemlərin üçtərəfli bəyanatlar xüsusunda həllinin mümkünlüyü üzərinə qayıdır. Düşünülə bilər ki, yanaşmada təzad var. Əslində isə Rusiya XİN-in təmsilçisi detalları deyil, ümumilikdə, prosesi əsas götürmənin tərəfdarıdır. Dolayısı ilə o, erməni jurnalistləri boş-boş danışıqlardan uzaq durmağa, vəziyyəti düzgün qiymətləndirməyə çağırır. Necə də çağırmasın. Axı, vaxtilə həmin Rusiyanın Qarabağdakı sülhməramlıları idi bölgə erməniləri üçün hər şeyi edən. Hələ separatçılara silah-sursat daşınmasına göz yumulmasını bir kənara qoyuruq. Ermənistanda buna qiymət verildimi? Xeyr! Deməli, indi Qarabağın erməni əhalisi ilə bağlı Moskvaya yönələn mənəvi məsələlərin qabardılması mənasızdır. Həmin əhalinin bölgəyə qayıtmaması kimi, ərazidən çıxmasını da istəyən Ermənistan hakimiyyəti olub. Paşinyan iqtidarı Qarabağ avantürasının davamını Rusiyada deyil, Qərbdə görməyi üstün tutmuşdu və yenə eyni mövqeyindədir. Zaxarova bunu diplomatik tərzdə bildirir və bütün məsələlərin bir-biri ilə bağlılığı amilini qabardır: "Biz tərəfləri bu problemin həllinə təşviq edirik. Lakin başa düşdüyünüz kimi, aktual məsələlər üzrə əldə edilmiş razılaşmaları həyata keçirmədən bunu etmək, yəqin ki, kifayət qədər çətindir".

***Ə.RÜSTƏMOV***
***XQ***

# Yeni təxribatlar İrəvana baha başa gələcək



**(əvvəli 1-ci səhifədə)**

Hər halda, revanşist hərəkatın lideri insanları mifik "Artsaxın müstəqillik günü"nü qeyd etmək üçün Qarabağdakı keçmiş qeyri-qanuni separatçı xuntanın İrəvandakı "nümayəndəliyi" önünə toplaşmağa çağırmaqla öz varlığını ortaya qoyub. Görünür, hakimiyyət dəyişikliyinə gətirib çıxarmayan etirazlar silsiləsi qalmaqallı "din xadimi"ni Ermənistan əhalisi arasında yeni narazılıq dalğası yaratmaq istəyindən çəkindirməyib.

Qeyd edək ki, B.Qalstanyan Nikol Paşinyan iqtidarının 2024-cü il aprelin 19-da Qazax rayonunun işğal altında olan 4 kəndinin qaytarılmasına razılaşmasından sonra etirazlara başlamış və mayın 4-9-da revanşistlərin Tavuşdan İrəvana yürüşünə rəhbərlik etmişdi. Mayın 9-da keçirdikləri mitinqdə öz gücünü düzgün qiymətləndirməyən Baqrat Hayastan baş nazirinə istefa vermək üçün bir saat vaxt vermiş və nəticədə gülüş obyektinə çevrilmişdi. İndi isə cizgi filmi personajına bənzəyən bu varlıq özünü "erməni milli kimliyinin xilaskarı" kimi qələmə verərək, cəmiyyətin diqqətini öz şəxsiyyətinə cəlb etməyə çalışır.

İrəvandakı İnsan inkişafı üzrə beynəlxalq mərkəzin icraçı direktoru Tevan Poqosyan isə bütün hayları "Artsax respublikası"nın Hayastan nümayəndəliyinə axın etməyə çağırıb. O, ümid etdiyini bildirib ki, həmin gün ora minlərlə erməni axın edəcək və "Artsax" bir daha ermənilərin milli birliyini möhkəmləndirməsinin başlanğıcı olacaq.

Əlbəttə, istər Qalstanyanla, istər Poqosyanla, istərsə də digər revanşistlərlə bağlı məsələ aydındır. Aydın olmayan bir tərəfdən, Azərbaycanla sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsi üzrə danışıqlar aparan, digər tərəfdən separatçılara, necə deyərlər, qucaq açan Ermənistan hakimiyyətinin ikibaşlı mövqeyidir. Təbii suallar yaranır: Qarabağdakı keçmiş separatçı rejimin "ofisi" İrəvanda niyə hələ də fəaliyyət göstərir? Əgər Paşinyan iqtidarı, həqiqətən də, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyırsa, o zaman bu "ofis"in fəaliyyətini davam etdirməsinin anlamı nədir?

Əlbəttə, suallar ritorikdir. Biz onların cavabını çox yaxşı bilirik. Faktlar açıq şəkildə göstərir ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü sözdə tanıyır. Reallıqda isə Hayastan hələ də torpaqlarımıza iddialıdır. Bu, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına əsas verən müstəqillik bəyannaməsinə istinadın yer aldığı konstitusiyasına yenidən baxılmasına təşəbbüs göstərməyə cəhd etməyən baş nazir Paşinyanın hərəkətlərinin məntiqinə də uyğundur. Rəsmi İrəvan konstitusiyaya düzəliş etməyə tələsmir və bunun sırf daxili məsələ olduğunu vurğulayır. Bu yanaşma göstərir ki, Ermənistan rəhbərliyi Azərbaycanla sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli sazişi imzalamaqda maraqlı deyil. Yəqin ki, danışıqları tam dalana dirənənə qədər uzatmaq niyyətindədir. Halbuki, İrəvandakı separatçı tör-töküntülərin "ofisinin" bağlanması Cənubi Qafqazda sülh gündəliyinin təşviqində mühüm addım ola bilər. Ancaq göründüyü kimi, bu, rəsmi İrəvanın planlarına daxil deyil.

Əksinə, Ermənistan aktiv şəkildə Fransa və Hindistandan silah-sursat alır. Məlumata görə, bu yaxınlarda ölkəyə xaricdə istehsal olunmuş xeyli miqdarda silahlar daxil olub. Bu isə hərbiləşdirmənin və Azərbaycanla yeni potensial münaqişəyə hazırlığın Ermənistanın dövlət siyasətinin prioritetləri olaraq qaldığını açıq şəkildə göstərir. Digər tərəfdən, bədnam Amerika Erməni Milli Komitəsinin (ANCA) təşəbbüsü ilə sentyabrın 19-da erməni lobbiçilərin çoxluq təşkil etdiyi ABŞ Konqresində lokal xarakterli antiterror tədbirlərinin birinci ildönümü ilə bağlı tədbir keçiriləcək. ANCA-nın icraçı direktoru Aram Ambaryanın sözlərinə görə, onlar Amerikanın hər yerindən Vaşinqtona ona görə toplaşırlar ki, Azərbaycana hərbi yardıma qanunvericilik yolu ilə qadağa qoyulsun və ölkəmizə sanksiyalar tətbiq etməklə bizi məsuliyyətə cəlb etsinlər. O qeyd etmişdi ki, Vaşinqton BMT Təhlükəsizlik Şurasının "Artsax"ın yerli ermənilərinin beynəlxalq himayəyə alınmasını tələb edən qətnaməsinin icrasına rəhbərlik etməklə bu prosesi geri qaytara bilər və qaytarmalıdır.

Ermənistanda revanşistlərin və xaricdəki erməni diasporunun fəallaşması, ölkənin sürətlə hərbiləşdirilməsi, Fransa və ABŞ-nin təhrikedici addımları, Paşinyan iqtidarının separatçı rejimin ofisini bağlamaqdan imtina etməsi və konstitusiyaya dəyişiklik etmək istəməməsi kimi faktlar İrəvanın qisas ideyasına möhkəm qapıldığından xəbər verir.

Ancaq qarşı tərəf anlamalıdır ki, bu mənfur ideya Ermənistanı indiyədək üzləşmədiyi ən böyük fəlakətə sürükləyə bilər. Ermənistan tərəfinin düşünməyə vaxtı getdikcə azalır. Onlar bilməlidirlər ki, hətta, sutkanın qaranlıq vaxtında belə gördükləri heç bir iş gizli qalmır. Yüksək texnologiyaların mövcud olduğu, peyklə hər şeyə nəzarət edildiyi müasir dünyada bütün gizli işlər çox tez aşkara çıxır.

Prezident İlham Əliyevin avqustun 30-da Azərbaycan–Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edərkən səsləndirdiyi fikirlər Ermənistan tərəfinə ciddi xəbərdarlıq olmalıdır. Regional vəziyyətə toxunan Prezident İlham Əliyev deyib ki, Azərbaycan bölgədə davamlı sülhün təmin olunmasının tərəfdarıdır. Dövlətimizin başçısı vurğulayıb ki, bunun üçün özünün artıq dəfələrlə qeyd etdiyi kimi, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları aradan qaldırılmalıdır və konstitusiya dəyişdirilməlidir. Azərbaycan Prezidenti qeyd edib ki, artıq keçmişin qalığı olan ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan təsisatlar tamamilə ləğv edilməlidir. Cənab İlham Əliyev Minsk qrupunun ləğv edilməməsi ilə bağlı Ermənistanın mövqeyinin heç bir halda başadüşülən olmadığını deyib. Çünki əgər münaqişə keçmişdə qalıbsa və Ermənistan baş naziri Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini ifadə edirsə, onda keçmişin qalığı olan Minsk qrupunun saxlanmasına nə ehtiyac var?! Dövlətimizin başçısı deyib ki, görünür, Ermənistan sülh müqaviləsində və regionda davamlı sülhün əldə edilməsində maraqlı deyil. Ermənistan qəsdən vaxt uzadır, Fransadan, digər Qərb ölkələrindən və başqa tərəflərdən yeni silahlar alır, öz ərazisində üçüncü tərəflərlə hərbi təlimlər keçirir.

Zənnimizcə, Ermənistan, nəhayət, əsl niyyətini ortaya qoymalıdır. Ya Azərbaycanla sülh istiqamətində ciddi hərəkət etməli, ya da danışıqların imitasiya ilə məşğul olmamalıdır. Onu da bildirək ki, qondarma "dqr" 1991-ci il sentyabrın 2-də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və ona bitişik Şaumyan rayonunun sərhədləri daxilində yaradılmışdı. Daha sonra ölkəmizin keçmiş DQMV-yə heç bir aidiyyəti olmayan 7 rayonu (Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər) Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunaraq qondarma "respublika"ya birləşdirilmişdi. Ermənistanın hərtərəfli dəstəklədiyi rejim ətraf 7 rayondan bufer zonası, təhlükəsizlik zolağı kimi istifadə edirdi. 2023-cü il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində ərazilərimizdə 32 il mövcud olmuş qanunsuz rejim süqut etdi. Onun sonuncu başçısı Samvel Şahramanyan sentyabrın 28-də rejimin 2024-cü il yanvarın 1-dək mövcudluğuna xitam verilməsi haqqında "fərman" imzaladı.

Elə antiterror tədbirlərinin keçirilməsinə əsas yaradan hallardan biri də Ermənistanın atdığı bəzi addımlar idi. N.Paşinyan 2022-ci il oktyabrın 6-da Praqada "Avropa Siyasi Birliyi" zirvə toplantısı çərçivəsində keçirilmiş dördtərəfli görüşdə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan etsə də, 2023-cü il sentyabrın 2-də qondarma "Dağlıq Qarabağın müstəqillik bəyannaməsi"nin ildönümü ilə əlaqədar rejimə təbrik məktubu ünvanlamışdı. 2023-cü il sentyabrın 9-da isə Qarabağ iqtisadi rayonunun həmin hissəsində qondarma "prezident seçkiləri" keçirilmişdi. Bütün bunlar Azərbaycanın səbrini daşırdı və nəticədə lokal xarakterli antiterror tədbirləri baş verdi. Bu baxımdan Ermənistan məsələnin ölkəmiz üçün həssaslıq dərəcəsini anlamalı və növbəti təxribatlardan çəkinməlidir. Çünki bu təxribatlar ona baha başa gələ bilər. İrəvan ötən illərdə yol verdiyi təxribatların acı nəticəsini unutmamalıdır...

***Səxavət HƏMİD***
***XQ***

# İtkin düşmüş vətəndaşlarımızın taleyinin aydınlaşdırılması mühüm və təxirəsalınmaz vəzifədir

**Avqustun 30-u dünyada Beynəlxalq İtkinlər Günü kimi qeyd edilir. İtkinlər gününün təsis edilməsi ilə bağlı ilk təşəbbüs 30 avqust 2007-ci ildə Filippində itkin düşmüş şəxslərin ailə üzvləri tərəfindən irəli sürülmüşdür. Bir il sonra, 2008-ci ilin avqust ayında bu təşəbbüs dünya ictimaiyyəti tərəfindən ciddi dəstək almış və səbəbindən asılı olmayaraq itkin düşmüş bütün şəxslərin anım gününün qeyd edilməsinin zəruriliyinə dair ümumi fikir formalaşdırılmışdır.**




Problemin həssas və humanitar xarakterli olması nəzərə alınaraq, həmin dövrdə Birləşmiş Millətlər Təşkilatında (BMT) bu təşəbbüslə bağlı bir sıra müzakirələr və fikir mübadiləsi aparılmışdır. Müzakirə və təhlillərin yekunu olaraq, BMT Baş Assambleyası tərəfindən 21 dekabr 2010-cu ildə qəbul edilmiş Qətnamə ilə hər ilin 30 avqust tarixinin Beynəlxalq İtkinlər Günü kimi qeyd edilməsi qərara alınmışdır.

İnsanların itkindüşmə səbəbləri müxtəlifdir. Lakin ötən dövrlərin tarixi göstərmişdir ki, ən çox itkindüşmə halları silahlı münaqişələr zamanı baş verir. 1992-ci il fevralın 26-da Ermənistan ordusu və terrorçu-quldur birləşmələri tərəfindən Azərbaycanın Xocalı şəhərində dinc əhaliyə qarşı törədilmiş soyqırımı aktı qeyd olunanlara bariz nümunədir.

Beynəlxalq Qızıl Xaç Komitəsindən (BQXK) Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasına (Dövlət Komissiyası) verilmiş məlumatlara görə, hazırda silahlı münaqişələrlə bağlı dünyada 239 min 700 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınmışdır. Aydındır ki, bu kiçik rəqəm deyil və hər sayın arxasında bir itkinin və onun 10-larla yaxın qohumunun uzun illər davam edən iztirablı taleyi, acı həqiqəti dayanır.

Məlumdur ki, 1988-ci ildən etibarən Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü əsassız ərazi iddiaları və həyata keçirdiyi işğal faktı ilə bağlı ölkəmiz silahlı münaqişəyə cəlb edilmiş və bunun da nəticəsində genişmiqyaslı humanitar fəlakətlə üzləşmişdir. Münaqişə davam etdiyi müddətdə Ermənistan silahlı birləşmələri tərəfindən etnik təmizləmə və soyqırımı cinayətləri törədilmiş, mülki azərbaycanlı əhali kütləvi şəkildə qətlə yetirilmiş, əsir-girov götürüldükdən sonra qeyri-insani şəkildə saxlanılaraq dəhşətli işgəncələrə və məhrumiyyətlərə, humanizm prinsiplərindən kənar rəftara məruz qoyulmuşdur. Bütün bu hallar xeyli sayda soydaşımızın itkin düşməsinə və taleyinin bu günə kimi qeyri-müəyyən qalmasına səbəb olmuşdur.

Dövlət Komissiyasında 01.08.2024-cü il tarixinə olan məlumatlara əsasən, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 3 min 968 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınmışdır. Onlardan 3 min 962 nəfəri Birinci Qarabağ müharibəsində, 6 nəfəri isə Vətən müharibəsində itkin düşmüşdür.

3 min 968 nəfərdən 3 min 202 nəfəri hərbçi, 766 nəfəri mülki şəxslərdir. Mülki şəxslərdən 69 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 283 nəfəri qadın, 334 nəfəri ahıl yaşlı şəxs olmuşdur.

Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərdən 872 nəfər, o cümlədən 29 uşaq, 98 qadın və 112 ahıl yaşlı şəxs əsir-girov götürülmüşdür. Ermənistan bu şəxslərin saxlanılması faktını beynəlxalq təşkilatlardan gizlədərək onların sonrakı taleyi barədə məlumat verməkdən müxtəlif bəhanələrlə boyun qaçırır.

Bu sahədə ən ciddi və təkzibedilməz fakt isə 1998 və 2001-ci illərdə BQXK-nin Dövlət Komissiyasına təqdim etdiyi məktublarda adları qeyd edilən 54 azərbaycanlı ilə bağlıdır. Həmin materiallara əsasən, intensiv hərbi əməliyyatların gedişində erməni hərbçiləri tərəfindən əsir-girov götürülərək Ermənistanda və bu ölkə tərəfindən işğal edilmiş Azərbaycan Respublikasının Qarabağ ərazisindəki saxlanma yerlərində saxlanılan 54 Azərbaycan vətəndaşına BQXK nümayəndələri baş çəkərək onları rəsmi qeydiyyata almışlar. Lakin sonradan həmin 54 nəfərdən 17 nəfərinin meyiti qaytarılmış, 4 nəfərin sonrakı taleyi barədə məlumat verilməmiş, 33 nəfərin saxlanma yerində öldüyü bildirilsə də, meyitləri təhvil verilməmişdir.

Müharibə qurbanlarının, xüsusən də əsir-girov götürülmüş və itkin düşmüş vətəndaşlarımızın taleyi ilə bağlı məsələlər hər zaman Ulu öndər Heydər Əliyevin, daha sonra möhtərəm Prezident cənab İlham Əliyevin daim diqqət mərkəzində olmuşdur.

Vətən müharibəsindən sonra cənab Prezident bütün aidiyyəti platformalarda Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş şəxslər problemini qaldırmışdır. 2021-ci ilin sentyabr ayında keçirilən BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində çıxış edən Prezident İlham Əliyev bu məsələni diqqətə çatdıraraq demişdir: “Birinci Qarabağ müharibəsi nəticəsində 4 minə yaxın vətəndaşımız itkin düşmüşdür. Ermənistan onların taleyi ilə bağlı bizə məlumat verməlidir. Bizdə olan etibarlı məlumatlara əsasən, onların demək olar ki, hamısı işgəncələrə məruz qalaraq qətlə yetirilib və beynəlxalq humanitar hüquqa zidd olaraq Ermənistan ordusu tərəfindən kütləvi məzarlarda basdırılıb. Ermənistan hərbi cinayətkarları tərəfindən qətlə yetirilmiş 12 mülki şəxsin qalıqları 2021-ci ilin aprel ayında işğaldan azad olunmuş Kəlbəcər rayonunun Başlıbel kəndində kütləvi məzarda tapılıb. Beynəlxalq hüquq və BMT Nizamnaməsinə əsasən, Ermənistan dövlət səviyyəsində Azərbaycana qarşı hərbi təcavüz və digər ağır cinayətlərə görə məsuliyyət daşımalıdır”.

Vətən müharibəsi və antiterror tədbirlərindən sonra erməni işğalından azad edilmiş ərazilərdə məzar yerlərinin müəyyən olunması, zəruri qazıntı və ekshumasiya işlərinin aparılması ilə itkin vətəndaşlarımızın taleyinə aydınlıq gətirilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlət Komissiyasının qarşısında qoyduğu ən ümdə vəzifədir. Bu məqsədlə həmin ərazilərdə intensiv şəkildə axtarış proseslərinə başlanılmış və tapılmış kütləvi məzarlıqlardan 2021-ci ilin fevral ayından etibarən insan qalıqlarının ekshumasiyasına başlanılmışdır.

Məlumdur ki, Azərbaycanın beynəlxalq hüquqla tanınan suveren ərazilərinin 30 ilə yaxın müddət ərzində işğal altında saxlanılması itkin düşmüş vətəndaşlarımızın taleyinin aydınlaşmasına imkan verməmişdir.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin yüksək zəkası, diplomatik və sərkərdəlik bacarığı, Azərbaycan əsgər və zabitlərinin qəhrəmanlığı sayəsində suveren ərazilərimizin erməni işğalından azad edilməsi Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılmasına böyük ümidlər yaratsa da, hazırda həmin ərazilərin mina və partlamamış hərbi sursatlarla çirkləndirilməsi və Ermənistan tərəfinin itkin düşmüş şəxslərə aid məzar yerləri barədə məlumatları verməməsi bu prosesə mane olan əsas amillərdir.

Ermənistanın rəsmi şəxslərinin kütləvi informasiya vasitələrində itkin düşmüş azərbaycanlıların dəfn yeri barədə onlarda məlumatların olduğunu bəyan etmələrinə baxmayaraq, bu məlumatlar hələ də Azərbaycana təqdim edilmir. Halbuki bu məsələ beynəlxalq təşkilatların vasitəçiliyi ilə Ermənistan tərəfinin diqqətinə çatdırılmışdır.

Qeyd etmək yerinə düşər ki, hazırkı dövrədək erməni işğalından azad olunmuş ərazilərdə aparılmış qazıntılar zamanı 18 kütləvi məzarlıq aşkarlanmış və həmin məzarlıqlardan 169 şəxsə aid olduğu ehtimal edilən meyit qalıqları müəyyən olunaraq istintaq orqanlarının nümayəndələrinin iştirakı ilə ekshumasiya edilmişdir. Həmin meyit qalıqlarının eyniləşdirilməsi prosesində onlardan 59 nəfərinin Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərə aid olduğu müəyyənləşdirilmişdir.

Bununla yanaşı, Ermənistanın işğalından azad edilmiş ərazilərdə aparılmış genişmiqyaslı tikinti-quruculuq işləri və həyata keçirilmiş digər təxirəsalınmaz tədbirlər nəticəsinə 259 şəxsə aid meyit qalıqları aşkar olunaraq ekshumasiya edilmişdir. Bu istiqamət üzrə 16 nəfər itkin-şəhidin şəxsiyyəti eyniləşdirilmişdir.

Eyni zamanda, Birinci Qarabağ müharibəsi zamanı şəhid olmuş və respublikanın 13 şəhər və rayonunun ərazisində yerləşən 21 qəbiristanlıqdakı naməlum şəhid məzarlarından 185 nəfərə aid meyit qalığı ekshumasiya edilmişdir. Naməlum məzarlıqlar üzrə 74 itkin-şəhidin şəxsiyyəti eyniləşdirilmişdir. Bugünədək ümumilikdə 613 şəxsə aid meyit qalıqları aşkar edilərək götürülmüşdür.

Meyit qalıqlarının məhkəmə molekulyar-genetik ekspertizasının nəticəsi olaraq, Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərdən 149 nəfərin şəxsiyyəti eyniləşdirilərək ictimaiyyətə açıqlanmışdır.

Bundan başqa, aidiyyəti dövlət qurumları tərəfindən aparılmış axtarışlar nəticəsində cari ilin iyul ayının 3-də Kəlbəcər rayonu, İstisu qəsəbəsindəki Yüzbulaq yaylağının ərazisində tapılmış meyit qalıqlarının ekspertizası nəticəsində onların 3 mart 2022-ci ildə hava şəraitinin qəfil dəyişməsi səbəbindən istiqaməti itirərək itkin düşmüş Azərbaycan Ordusunun iki əsgərinə aid olduğu müəyyən edilmişdir. Bununla da meyit qalıqları eyniləşdirilmiş itkin şəxslərin sayı 151 olmuşdur.

Qazıntılar zamanı aşkarlanmış meyit qalıqlarının ilkin tədqiqi zamanı insanların dini ayinlərə riayət olunmadan, xaotik halda basdırılması, sümüklərin üzərində küt, iti və kəsici alətlərlə yetirilmiş xəsarətlər, güllə izləri, əsgər çəkmələri və digər artefaktların aşkarlanması, o cümlədən antropoloji müayinələr bu şəxslərin Birinci Qarabağ müharibəsində itkin düşmüş azərbaycanlılara aid olduğunu deməyə əsas verir. Hazırda aşkar edilmiş digər meyit qalıqlarının eyniləşdirilməsi istiqamətində Dövlət Komissiyası tərəfindən zəruri işlər davam etdirilir.

Eyni zamanda, ötən dövrdə bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilmişdir. Dövlət Komissiyasının müraciətinə əsasən, “Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında” Qanunda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2023 cü ildə müvafiq fərman imzalamışdır. Fərmana əsasən, Azərbaycan Respublikasına qarşı hərbi təcavüz nəticəsində, habelə xəbərsiz itkin düşmüş şəxslərin bioloji qohumlarından və işğaldan azad olunmuş ərazilərdə aşkar edilmiş naməlum meyitlərdən əldə olunmuş bioloji material və məlumat DNT analizinin aparılması, DNT profilinin əldə olunması və DNT Məlumat Bankında saxlanılması üçün Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Hərbi-Tibb Baş İdarəsinə göndərilir. Bununla əlaqədar, ölkə başçısı tərəfindən ayrılmış vəsait hesabına çox qısa zamanda DTX-nin Hərbi-Tibb Baş İdarəsində müasir tələblərə cavab verən və zəruri texniki avadanlıqlarla təchiz edilmiş Genetik Araşdırmalar Mərkəzi yaradılmışdır.

*“Təəssüf ki, Ermənistan beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərini kobud şəkildə pozaraq itkin düşmüş şəxslərin taleyi və kütləvi məzarlıqların dəqiq yeri haqqında məlumatları Azərbaycan tərəfinə təqdim etmir. Bunun səbəbləri aydındır. Ermənistan hesab edir ki, bununla törətdiyi hərbi cinayətlərin, vəhşiliklərin üstü açılacaq. Beynəlxalq ictimaiyyət itkin düşmüş şəxslərin taleyinə və kütləvi məzarlıqlara dair məlumatların Azərbaycan tərəfinə təqdim edilməsi məqsədilə Ermənistana təzyiq göstərməlidir. Bu, sırf humanitar məsələdir və onun siyasiləşdirilməsi yolverilməzdir. İtkin düşən şəxslərin taleyinin müəyyənləşdirilməsi Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması baxımından da vacibdir. Bu sahədə əməkdaşlıq effektiv etimad quruculuğu tədbirlərindən biri ola bilər”.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Vurğulamaq lazımdır ki, 2008-ci ilin aprel ayında BQXK-nın Azərbaycandakı Nümayəndəliyi ilə Dövlət Komissiyası arasında imzalanmış Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslər haqqında “Ante mortem” məlumatların toplanması və mərkəzləşdirilmiş şəkildə idarə olunması üzrə çərçivə Sazişinə əsasən, itkinlərə aid sorğu anketləri, həmçinin itkin ailələrinin əksəriyyətindən bioloji nümunələr toplanmışdır. Bu işdə Qızıl Aypara Cəmiyyətinin könüllüləri yaxından iştirak etmişlər. Toplanmış bioloji nümunələrin hamısından DTX-nin Hərbi-Tibb Baş İdarəsinin Genetik Araşdırmalar Mərkəzində DNT profilləri çıxarılaraq arxivləşdirilmişdir. 2014-cü ildən etibarən ümumilikdə 3 min 600-dən artıq itkinin ailə üzvlərindən 11 min 236 bioloji nümunə toplanmışdır.

Bundan başqa, Vətən müharibəsində aparılmış hərbi əməliyyatlar və sonrakı dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəhid ailələri və müharibə əlillərinin sosial təminatının gücləndirilməsi və onların dövlət qayğısı ilə əhatə olunmasına xüsusi diqqət yetirilməsini dövlət orqanları qarşısında əsas vəzifə kimi qoyması əsas götürülərək, hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşmüş hərbi qulluqçuların və ya digər şəxslərin məhkəmə qaydasında ölmüş elan edilməsi üçün qanunvericiliklə müəyyən edilmiş iki illik müddətin işin halları nəzərə alınmaqla 6 ayadək endirilməsi məsələsi ilə bağlı 2023-cü ildə Dövlət Komissiyası tərəfindən müvafiq məsələ qaldırılmışdır.

Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev AR Mülki Məcəlləsində müvafiq dəyişikliyin edilməsinə dair 13 iyun 2023-cü il tarixli Qanun imzalamışdır. Qanuna əsasən, məhkəmə şəxsin hərbi əməliyyatlarda həlak olduğunu güman etməyə əsas verən halları nəzərə alaraq, onu iki illik müddət bitməzdən əvvəl, lakin hərbi əməliyyatların qurtardığı gündən altı aydan tez olmayaraq ölmüş elan edə bilər.

O da məlumdur ki, müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikası bir sıra beynəlxalq sənədlərə qoşulmuş və bununla bağlı zəruri prosedurların həyata keçirilməsinə nail olmuşdur. Azərbaycan Respublikası 1993-cü ilin aprel ayında beynəlxalq humanitar hüququn əsas mənbələri olan 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyalarını (“Quruda döyüşən silahlı qüvvələrdəki yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında”, “Dənizdəki silahlı qüvvələrin yaralı, xəstə və gəmi qəzasına uğramış üzvlərinin vəziyyətinin yaxşılaşdırılması haqqında”, “Hərbi əsirlərlə rəftara dair”, “Müharibə zamanı mülki şəxslərin qorunmasına dair”) və “Silahlı münaqişələr zamanı mədəni sərvətlərin mühafizəsi haqqında” 14 may 1954-cü il tarixli Haaqa Konvensiyasını qəbul etmiş, bu sənədlərlə bağlı müvafiq qanunların qəbulu, aidiyyəti qanunlarda uyğunlaşmanın aparılması istiqamətində işlər görmüşdür.

Xüsusilə qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə görə Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarla bağlı itkin düşmüş şəxslər də şəhid hesab edildiyindən şəhid ailələri üçün müəyyən edilən bütün imtiyaz və güzəştlər itkin düşmüş şəxslərin ailələrinə də şamil edilir.

Ötən illər ərzində Azərbaycan Respublikası silahlı münaqişələr zamanı itkindüşmə hallarının qarşısının alınması və itkin ailələrinin iztirablarının azaldılması məqsədilə bir sıra beynəlxalq təşəbbüslərlə də çıxış etmişdir. 2002-ci ildən Azərbaycanın BMT Baş Assambleyasında “İtkin düşmüş şəxslər”lə bağlı qətnamələrin qəbul edilməsi təşəbbüsünü irəli sürməsi buna bariz misal ola bilər. İki ildən bir qəbul edilən qətnamələr silahlı münaqişə tərəfləri olan dövlətləri itkin düşmüş şəxslərlə bağlı halları effektiv şəkildə həll etmək üçün əməkdaşlığa, o cümlədən məlumat mübadiləsi, qurbanlara yardım, itkin düşmüş şəxslərin yeri və şəxsiyyətinin müəyyən edilməsi, habelə insan qalıqlarının tapılması, müəyyən edilməsi və qaytarılması, eləcə də məzarlıqların müəyyən edilməsi və mühafizəsi yolu ilə qarşılıqlı yardım göstərməyə çağırır. Bundan başqa, dövlətlər, hökumətlərarası və qeyri-hökumət təşkilatları silahlı münaqişə ilə bağlı itkin düşmüş şəxslər probleminin həlli üçün lazımi tədbirlər görməyə və bu məqsədlə müvafiq yardım göstərməyə təşviq edilir.

Beş il əvvəl BMT Təhlükəsizlik Şurası silahlı münaqişələrdə itkin düşmüş şəxslərlə bağlı 2474 saylı Qətnamənin qəbulu ilə daha qətiyyətli səylərin göstərilməsi istiqamətində mühüm addım atdı. Qətnamə problemin qarşısını almaq və həll etmək üçün kompleks tədbirləri ehtiva edir və beynəlxalq humanitar hüquqla bağlı mühüm öhdəlikləri bir daha təsdiqləyir. Təhlükəsizlik Şurası qətnamədə itkin düşmüş şəxslər probleminin həlli yönündə atılan addımların etimad, barışıq, sülhün qurulması və qorunması prosesinə töhfə verə biləcəyini vurğulayır.

2021-ci ildə İtkin düşənlər üçün Qlobal Alyansın yaradılması itkindüşmə probleminə beynəlxalq diqqətin daha da artırılmasına təkan vermişdir. BMT-nin 13 üzvü – Azərbaycan, Argentina, Kolumbiya, Xorvatiya, Estoniya, Qambiya, Küveyt, Meksika, Nigeriya, Norveç, Peru, Koreya Respublikası və İsveçrə bu qrupa daxildir. İtkin düşənlər üçün Qlobal Alyans itkin düşmüş şəxslərlə bağlı halların qarşısının alınması və problemin həlli məsələsini diqqətdə saxlamağa çalışır.

Dövlət Komissiyası olaraq, beynəlxalq İtkin düşmüş şəxslər günü ilə bağlı baş vermə səbəbindən asılı olmayaraq, itkin düşmüş bütün insanların, o cümlədən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş vətəndaşlarımızın xatirəsini hörmətlə anır, ailələrinə səbir diləyirik. İtkin şəxslərin ailə üzvlərini əmin edirik ki, bundan sonra da itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması sahəsində yorulmadan çalışacaq və bütün imkanlarımızı səfərbər edəcəyik. Xüsusilə bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi, yeni texnologiyaların tətbiq edilməsi və mütəxəssislərin bilik və bacarıqlarının artırılmasına bundan sonra da ciddi əhəmiyyət veriləcəkdir.

Sonda fikrimi Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin “İtkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması üçün milli və beynəlxalq səylərin artırılması” mövzusunda ötən ilin sentyabrında keçirilmiş beynəlxalq konfransın iştirakçılarına müraciətindən gətirəcəyim bir sitatla yekunlaşdırmaq istəyirəm: “30 il əvvəl itkin düşmüş vətəndaşlarımızın taleyinin aydınlaşdırılması ciddi ictimai hadisə olmaqla yanaşı, həm də Azərbaycan dövlətinin öz vətəndaşına verdiyi dəyərin bariz nümunəsidir. Mən itkin ailələrini əmin edirəm ki, Vətən uğrunda döyüşlərdə itkin düşmüş bütün şəxslərin taleyinin aydınlaşdırılması üçün səylərimizi əsirgəməyəcəyik”.

***Qəzənfər ƏHMƏDOV,***
***Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi***

# 30 Avqust Beynəlxalq İtkinlər Günü münasibətilə Qarabağ itkin ailələri İctimai Birliyinin bəyanatı

**Biz, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş dörd minə yaxın azərbaycanlının ailə üzvlərini birləşdirən ictimai təşkilat kimi itkin ailələri adından 30 avqust - Beynəlxalq İtkinlər Günündə dünya ictimaiyyətinə müraciət edirik.**

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində XX əsrin 90-cı illərində Azərbaycan ərazisinin 20 faizi işğal edildi, şəhərləri, kəndləri vəhşicəsinə dağıdıldı, talan edildi, dinc insanlar qətlə yetirildi, əsir-girov götürüldü, itkin düşdü, soyqırımına və etnik təmizləməyə məruz qaldı, bir milyona yaxın Azərbaycan vətəndaşı qaçqın və məcburi köçkünə çevrildi.

Beynəlxalq humanitar hüququn və onun əsas mənbəyi olan 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyalarının tələblərinə əsasən, silahlı münaqişələr zamanı itkin düşmüş şəxslər barədə onların ailələrinin məlumat almaq haqqı birmənalı şəkildə tanınır. Lakin dəfələrlə bəyan etdiyimiz kimi, biz 30 ildən çoxdur ki, bu hüquqdan məhrumuq. Azərbaycanın dəfələrlə atdığı xoşməramlı addımlara baxmayaraq, Ermənistan yenə də itkin düşmüş azərbaycanlılar barədə məlumatları təqdim etməkdən imtina edir və yaxud müxtəlif bəhanələrlə yayınır.

Faktlar və şahid ifadələri təsdiq edir ki, birinci Qarabağ müharibəsində Ermənistan hərbçiləri tərəfindən Azərbaycan Respublikasının suveren əraziləri işğal edilərkən beynəlxalq humanitar hüququn normaları kobud şəkildə pozulmuş, o cümlədən mülki əhali hədəfə alınmış və zorakı itkin düşmə halları baş vermişdir.

O da məlumdur ki, birinci Qarabağ müharibəsi zamanı işğal edilmiş Azərbaycan əraziləri 30 ilə yaxın müddət ərzində Ermənistan ordusunun nəzarətində olmuşdur. Bu səbəbdən itkin düşmüş bütün şəxslərə, o cümlədən onların dəfn yerlərinə dair ətraflı məlumatların Ermənistan tərəfində olması şübhəsizdir. Bunu Azərbaycan ərazilərinin işğalında iştirak etmiş Ermənistanın yüksək rütbəli zabitləri kütləvi informasiya vasitələrinə verdikləri müsahibələrdə dəfələrlə etiraf etmişlər.

Biz - itkin ailələri bu etirafların nəticəsini əməli addımlarda görmək istəyirik. Başqa sözlə, biz itkin düşmüş Azərbaycan vətəndaşlarının məzar yerləri barədə məlumatların Azərbaycana təqdim edilməsini, Azərbaycan xalqına qarşı vəhşiliklər törətmiş şəxslərin mühakimə edilməsini Ermənistandan tələb edirik.

Eyni zamanda, biz Beynəlxalq İtkinlər Günü ilə bağlı dünyada itkin düşmüş bütün insanların xatirəsini hörmət və ehtiramla anır, tərəqqipərvər bəşəriyyəti insanların zorakı itkindüşmələrdən qorunması üçün zəruri addımlar atmağa çağırırıq.

İtkin düşmüş şəxslər problemi daim Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət mərkəzində olmuşdur. Məhz bu diqqətin sayəsində Vətən torpaqları işğaldan azad edildikdən sonra qısa müddətdə itkin düşmüş şəxslərin dəfn edildiyi 18 kütləvi məzarlıq aşkarlanmış, 151 itkin-şəhidin taleyinə aydınlıq gətirilərək nəşləri ailələrinə təhvil verilmiş və həmin ailələrin iztirabına son qoyulmuşdur.

İtkin düşmüş şəxslər problemi təkcə Azərbaycan üçün aktual deyil, qlobal mahiyyətlidir. Bu məsələ ilə daha yaxından məşğul olmaq üçün beynəlxalq təşkilatların da öz səylərini artırması vacibdir. Buna görə də biz, Azərbaycanlı itkin ailələri BMT-nin Baş katibi Antonio Quterreşə və digər BMT rəsmilərinə bir daha müraciət edərək onları bu problemə xüsusi diqqət ayırmağa və BMT-nin itkin düşmüş şəxslər üzrə xüsusi məruzəçisi institutunun yaradılmasına çağırırıq.

**Könül BEHBUDOV,**
**Qarabağ İtkin Ailələri İctimai Birliyinin sədri**

**30 avqust 2024-cü il**

# Vətən müharibəsinin fəlsəfəsi

**VII MƏQALƏ**

**Hamımızın bir Vətəni var. Bu, Azərbaycandır!**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**



## Oğuzdan gələn bir ənənə

Şəhidliyin və qaziliyin fəlsəfəsinin qısa təhlili onu göstərir ki, azərbaycanlıların həyat motivasiyasının mərkəzində ideya dayanır. Azərbaycanlılar qədimdən mənəviyyat, əxlaq, ruh insanlarıdır. Onların yaşam tərzinin təməlində mütləq ideya olmalıdır. Bu, Oğuzdan gələn bir ənənədir – türklərin mövcudolma özəlliyidir. Missiyası İlahi düzəni Yer üzündə bərqərar etməkdən ibarət olan bir qövm üçün başqa cür ola da bilməz. Tarix sübut edir ki, bu coğrafiyada yeni ideyalar, məfkurələr məhz Azərbaycanda meydana gəlir. Şübhəsiz, azərbaycançılıq ideya, ideologiya və məfkurə kimi o sırada ayrıca yer tutur.

II Qarabağ savaşının Vətən müharibəsi kimi fəlsəfi təhlilində azərbaycançılığın yeri və rolu ayrıcadır. Bütövlükdə, azərbaycançılığın ideologiya və məfkurə kimi araşdırılması müxtəlif alimlərimiz tərəfindən aparılmışdır və bu proses davam edir. Burada məsələ konkret olaraq Vətəni qorumaq uğrunda aparılan savaşın Vətən müharibəsi kimi xarakteristikasının fəlsəfəsi diqqət mərkəzindədir. Bu, fəlsəfə üçün prinsipial məsələdir. Çünki azərbaycançılığın Vətən savaşında rolunu dərk etmək strateji məsələdir. Hətta deyə bilərik ki, azərbaycançılıq II Qarabağ savaşının qələbə ilə sonuclanmasında başlıca ideya-məfkurəvi faktor rolunu oynamışdır. Azərbaycançılığın Heydər Əliyev tərəfindən əsaslı elmi-siyasi-nəzəri sistem halına salınmış məzmununda yer alan bir sıra xüsusiyyətləri bu qənaətin doğruluğunu sübut edir.

## Azərbaycançılıq fəlsəfəsinin aktuallığı

AMEA-nın yeni tarixi mərhələdə prioritet kimi müəyyən etdiyi 7 istiqamətdən birincisi aşağıdakı kimidir: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin andiçmə mərasimində ifadə olunmuş azərbaycançılıq ideyasının elmi-nəzəri və tarixi-fəlsəfi əsaslarının işlənib hazırlanması və bütün istiqamətlər üzrə həyata keçirilməsi ölkə elminin, Azərbaycan Milli Elmlər Akademiyasının qarşısında duran əsas vəzifələrdəndir. AMEA-nı ölkəmizin əsas azərbaycanşünaslıq mərkəzinə çevirmək bizim əsas vəzifəmizdir".

Azərbaycançılıq ideyasının elmi-nəzəri və tarixi-fəlsəfi əsaslarının işlənməsi keçmişi düzgün dərk etməkdə, indini adekvat anlamaqda və gələcəyi düzgün proqnozlaşdırmaqda dövlətçilik baxımından prinsipial rol oynayır. Bu prosesdə XXI əsrdə Azərbaycan dövləti və xalqının yaddaşında müstəsna yeri qalacaq Vətən müharibəsinin fəlsəfi obrazının formalaşmasında azəraycançılıq aparıcı rol oynamalıdır.

## Azərbaycançılığın dörd ideya özəlliyi

Azərbaycançılıq haqqında çox dəyərli araşdırmaların hər birinə böyük sayğı ilə Vətən müharibəsi kontekstində 4 ideya əlamətini vurğulamaq istərdik. Birincisi, "Azərbaycançılıq ümumtürk mənşəli milli məfkurədir". İkincisi, "Azərbaycançılıq Azərbaycanın ərazi bütövlüyünün, vahid Vətən, vətəndaş həmrəyliyi və milli birlik ideyalarının təcəssümü, ümumiləşmiş ifadəsidir". Üçüncüsü, "Milli iftixar və vətənpərvərlik azərbaycançılıq məfkurəsinin əsas ideya mənbəyidir". Dördüncüsü, "Azərbaycançılıq bəşəri dəyərləri özündə əks etdirən ümummilli məfkurədir" (İsa Həbibbəyli, 2015).

Mövzu ilə bağlı öncəki məqalələrdə yer almış fəlsəfi təhlil süjetini davam etdirsək, görərik ki, fəlsəfi xarakterli bu ideya vahidləri Vətən müharibəsi anlamında birləşirlər. Bu, toplumu Vətən anlayışına stimullaşdıran baxışlar sistemini (milli məfkurə), həmin ideyanı konkret məqsədə fokuslandıran ideya mexanizmini (ərazi bütövlüyü, vahid Vətən, vətəndaş həmrəyliyini və milli birlik), daxili fədakarlığı motivə edən duyğuları (Milli iftixar və vətənpərvərlik) və hər zaman bəşəri dəyərlər və beynəlxalq hüququn əhəmiyyətinin diqqətə alınmasını (bəşəri dəyərlər) özündə ehtiva edir. Vətən müharibəsi kontekstində bu ideya vahidlərinin hər birinin fəlsəfi anlamı üzərində qısa dayanaq. Ancaq öncə azərbaycançılığın fəlsəfi dərki üçün aktual hesab etdiyimiz iki aspekt üzərində ötəri dayanmaq istərdik.

## Azərbaycançılıq mənəvi, əxlaqi və ideya faktoru kimi

Azərbaycançılıq azərbaycanlılığın ümumi ifadəsi kimi ideyadır. Onun mənəvi, əxlaqi və mədəni mənasını Ulu öndər aşağıdakı kimi ifadə etmişdir – Azərbaycan dilinə, dinimizə, adət-ənənəmizə, ümumilikdə mədəniyyətimizə sadiqlik! Dil və din mədəniyyət anlamı çətiri altında hər bir xalqın kimliyinin nüvəsini təşkil edir.

Deməli, Heydər Əliyev mənasında azərbaycanlılıq insanın dilinə, dininə, adət-ənənəsinə və bütövlükdə, mədəniyyətinə sadiqliyini, onu üstün saymasını ifadə etməkdədir. Bu mənada azərbaycanlılıq etnik mənsubluğu deyil, kollektiv varlığın fəlsəfəsinin ideya əsasını təşkil edir.

Azərbaycanlılıq bu səbəbdən daim fəxarət qaynağı olmalıdır! Azərbaycanlı milli mənsubiyyətini öyməlidir, onu qürur mənbəyi kimi hiss etməlidir. Çünki bu, onun toplum kimi mövcudolma formasıdır, sosial-mədəni kimliyidir!

Buradan digər əhəmiyyətli fəlsəfi qənaət alınır: azərbaycançılıq və azərbaycanlılıq vahid Azərbaycan mədəniyyətini qəbul etməkdən, onu duymaqdan və onun semantik məna sahəsində mövcud olmasına tam əminlikdən başlayır!

Bu yanaşma azərbaycançılığı "türk–qeyri-türk" dixotomiyasının məna sahəsinin fövqünə yüksəldir. Türk kimliyinə heç şübhə yoxdur. Azərbaycan cəmiyyəti etnik mənsubluq məsələsini çoxdan dərk edib, yeni sosial-siyasi və mədəni səviyyədə "toplum" və "Millət" anlayışlarının dərkinə istiqamətlənmiş kollektiv dinamik varlıqdır. Bu, hər bir Böyük millət üçün xas olan xüsusiyyətdir.

Bununla Vətən uğrunda savaşın fəlsəfi əhəmiyyəti baxımından çox vacib saydığımız bir məqama çatırıq. Bəzi dövlətlərin tarixi təcrübəsi göstərir ki, (məsələn, ABŞ, Türkiyə, Rusiya, Çin...) kritik dövrlərdə tarixi xarakterli etnomədəni faktorların gərginləşdiyi mərhələlərdə cəmiyyətdə vahid siyasi, iqtisadi, əxlaqi, mədəni mənsubluq haqqında təsəvvürlər ön plana çıxır. Bu qatda birlik güclü olanda toplum savaşı qalib və daha sıx birləşmiş vəziyyətdə bitirir.

II Qarabağ savaşı sübut etdi ki, Azərbaycan cəmiyyətində siyasi, mədəni, əxlaqi, dini, iqtisadi və mənəvi birlik yüksək səviyyədədir. Prezidentin bir səslənişi ilə milyonları ayağa qaldıran güc məhz bundan ibarət idi. Azərbaycanlı gənc, qoca, qadın tarixi birliyin siyasi, əxlaqi, dini və mənəvi dəyərlərinin daşıyıcıları kimi cəbhəyə can atdılar. Vətən müharibəsinin ideya əsasını bu keyfiyyət təşkil edir. Həmin prizmada azərbaycançılığın digər aspekti də böyük əhəmiyyət daşıyır.

## Azərbaycançılıq və vətəndaşlıq

Azərbaycançılıq Vətən müharibəsində vətəndaşlıq kontekstində də ciddi rol oynadı. Vətəndaşlıq azərbaycanlının hüquqi səviyyədə özünün bu dövlətə, topluma və mədəniyyətə mənsubluğunu dərk etməsi ilə sıx bağlıdır. Azərbaycanda yaşayan hər bir insan bu dəyəri qəbul edirsə, Vətən uğrunda savaş onundur!

Təsadüfi deyildir ki, Qarabağ uğrunda aparılan savaşlarda Azərbaycan vətəndaşı olan bütün etnik mənsublar (türklər, ləzgilər, talışlar, tatlar, avarlar, yəhudilər, ruslar, malakanlar və başqaları) bir ailə kimi döyüşdülər! Onlar bununla azərbaycançılığın Azərbaycan vətəndaşı olmanın ana xəttini təşkil etdiyini göstərdilər.

Həm də bu monolitlik kənardan olan separatçılığı qızışdırmağa istiqamətlənmiş cəhdlərin fonunda baş verirdi. Azərbaycan vətəndaşını heç bir pozucu cəhd yolundan döndərə bilmədi.

Azərbaycan cəmiyyətinin bu yüksək keyfiyyəti ictimai şüur üçün aktual olan bir məsələni ön plana çıxarır. Azərbaycanda müstəqillik mərhələsində insanların hüquqi şüuru dövlətçilik şüuru çərçivəsində inkişaf etmişdir.

Şübhəsiz ki, bu prosesdə ulu öndər Heydər Əliyevin 1995-ci ildə qəbul etdiyi yeni Konstitusiya əsas rol oynamışdır. Yeni Konstitusiyada Azərbaycan dili, azərbaycançılıq, multikulturalizm konkret maddələrdə yer almışdır. Azərbaycan vətəndaşları anlamışlar ki, Vətən burada yaşayan hər kəs üçün Vətəndir. Dövlət onun dövlətidir, mədəniyyət onundur.

Bununla yanaşı, real həyatda konstitusion hüquqların aparıcı rol oynadığının başlıca ifadəsi Azərbaycan Prezidenti İlham Əliyevin dövlət başçısı seçiləndə bəyan etdiyi məşhur tezisdədir: "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam!"

İlham Əliyev real siyasi, idarəetmə, ideoloji və diplomatik fəaliyyətində də həmin prinsipə tam əməl etməkdədir. Bu baxımdan Azərbaycanın dövlət başçısı bütün cəmiyyətə nümunə göstərdi – Konstitusiyanın maddələrinə tam əməl etməklə.

Azərbaycanlılar real həyatlarında əmin oldular ki, Azərbaycan Respublikası dövləti yalnız hüquqi və multikultural dəyərlərlə idarə olunur. Burada hər hansı ayrı-seçkilikdən söhbət gedə bilməz. Məhz bu reallığı nəzərdə tutaraq, Azərbaycan Prezidenti əminliklə bəyan edir ki, "Azərbaycan üçün daxili risk yoxdur!"

Nəhayət, 1993-cü ilin ikinci yarısından başlayaraq bu gün də davam edən bir aktual siyasi-hüquqi prosesi də nəzərə almaq lazımdır. Azərbaycan dövləti etnik mənsubluğundan asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının (bu anlamda azərbaycanlının) dünyanın hər yerində hüquqlarını qorumaqda mükəlləf olduğunu praktiki sferada sübut etmişdir.

Həyatın çox müxtəlif sahələri üzrə bunu təsdiq edən çox sayda fakt vardır. Sadəcə, beynəlxalq idman yarışlarında Azərbaycanı təmsil edən insanların etnik kimliyinə baxın! Əsl multikultural bir cəmiyyəti təmsil edən komandalar yaradılır. Və uğur qazanan hər bir idmançını ölkə başçısı eyni səmimiyyətlə təbrik edir, yüksək səviyyədə mükafatlandırır.

Bütün bunlar 1993-cü ilin ikinci yarısından bu yana sistemli, düşünülmüş və ardıcıl olaraq aparılan "konstitusion, hüquqi, vətəndaşlıq tərbiyəsi"nin bəhrələridir. Bu istiqamət cəmiyyətdə insanları bir-birinə və toplumu dövlət başçısına sıx yaxınlaşdırdı, monolit bir reallıq yarandı.

Bununla Vətən müharibəsində Qələbəni təmin edən güclü mənəvi, mədəni, əxlaqi, hüquqi, konstitusion, multikultural birlik sinerjisi meydana gəldi. Bu sinerjinin təməlində Azərbaycanda liderliyin, dövlətçiliyin, idarəetmənin ümumi mentaliteti durur. Vətən savaşında hər bir Azərbayan əsgəri "Vətən biradır, başqa Vətən yoxdur!" anlayışı ilə mübarizə apardı!

Bunlar onu təsdiq edir ki, azərbaycançılıq və Azərbaycan vətəndaşlığının qarşılıqlı əlaqəsi aspektində fəlsəfi araşdırmalar aparılmalıdır.

İndi azərbaycançılığın yuxarıda vurğuladığımız dörd ideya vahidinin təhlilinə keçə bilərik.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Qərbi Azərbaycanda soydaşlarımız çoxluq təşkil edirdilər

**I YAZI**

**Ermənistan Respublikası müstəqilliyini 1918-ci ildə elan edənə qədər bu ölkədə əhalinin əksər hissəsinin ermənilərdən ibarət olmadığı tarixi reallıqdır. Bu gün isə bura yalnız ermənilərin yaşadığı monoetnik bir dövlətə çevrilmişdir. Min illər boyu bu torpaqlarda yaşayan türk-müsəlman əhali zaman-zaman təzyiqlərə məruz qalaraq doğma vətənlərini tərk etmək məcburiyyətində qalmışdır.**

Bütün bunlar niyə baş vermişdir? Niyə İrəvan xanlığına aid olan bu ərazilər tərk edilmişdir? Bu torpaqlara qayıtmaq üçün nə etməliyik?

Əvvəlcə hayların indi adına "Ermənistan" deyilən dövlətə köçürülmə və yerləşdirilmə dönəmlərinə baxaq. 1590 və 1728-ci illərə aid Osmanlı qeydlərindən məlum olur ki, Revan əyalətində (Bu gün Ermənistan adlandırılan ölkə – Q.M) türk əhalisi çoxluq təşkil edibdir.

Rusiyanın hazırladığı kameral dəftərlərdən bəlli olur ki, indiki Ermənistan ərazisində Azərbaycan türkləri çoxluqda olublar. Bölgənin yer adlarına (toponim) baxıldıqda belə, məskunlaşma vahidlərinin çoxunun türkcə olduğu bəlli olur. Bu vəziyyət bütün Ermənistanda eynidir. Eyni durum İqdır (Türkiyə) və ətrafı (Sürməli qəzası) üçün də səciyyəvidir.

Osmanlılar, adətən hər hansı bir bölgəni fəth etdiklərində, o bölgədəki ərazi və vergi verəcək əhalini qeydə alardılar. Revan və ətrafı da ələ keçirildikdə də dərhal ərazi və vergi verəcək əhali siyahıya alınmışdır. Yeri gəlmişkən, türklərin tərtib etdikləri vergialma qeydlərində yanlışlıqlar çox azdır. Çünki Osmanlı dövləti, müsəlman və qeyri-müsəlmanlardan fərqli vergilər alırdı, alınan vergilər eyni dinə mənsub olub-olmamaqla əlaqəli olduğundan, ermənilərin, təbii ki, islam inancında olmamasından, onlarda cizyə adı ilə bilinən vergi ayrıca alınırdı. Osmanlı tahrir (kameral) dəftərlərindəki qeydlərin gerçəyə çox yaxın olduğunu bir daha vurğulamaq istərdik.

Bölgədəki yer adlarının türk mənşəli olması həqiqətini erməni tarixçisi Zaven Gorgodyanın 1932-ci ildə İrəvanda erməni dilində nəşr edilən "1831-1931-ci illər arasında Sovet Ermənistanın əhalisi" adlı kitabında Ermənistanda qeydiyyatdan keçmiş 2310 yaşayış yerindən 2 mininin adının türk mənşəli olduğu yazılmışdır.

XIX əsrdən etibarən ruslar Qafqaza doğru işğal hərəkətinə başlamışlar. 1826-cı ildə Şimali Azərbaycanda ortaya çıxan xırda bir qiyamı bəhanə edərək, ruslar İranla müharibəyə başlamışlar. İrəvan xanlığı da İrana coğrafi cəhətdən yaxın olması səbəbindən bu savaşda tərəf olmuşdur. Türkmənçay müqaviləsi ilə 1828-ci ildə İrəvan (Rəvan) xanlığı Rusiyaya keçmişdir. Buraya məqsədli şəkildə ermənilər köçürülməyə başlamışlar. Rusiya bu torpaqları əbədi rus əraziləri etmək üçün erməni amilindən istifadə etmək istəyirdi. Eyni dövrdə Qərb dövlətləri də Osmanlı imperatorluğunu zəif salmaq, onu parçalamaq məqsədi ilə məkrli planlar qururdular. Bu dövlətin içərisində yaşayan xristianlar, xüsusilə ermənilər hər zaman istifadə üçün əldə bir vasitə olmuşdur.

Rusiya da bu vasitədən kifayət qədər faydalanmışdır. Rusiya Cənubi Qafqazda işğal etdiyi torpaqları əbədi Rusiya ərazisinə çevirmək üçün bura ermənilərin kütləvi köçürülməsi siyasətini həyata keçirməyə başlamışdı. Rusiyadan malakanların, Osmanlı və İrandan isə ermənilərin Qafqaza köçürülməsində məqsəd burada xristian əhalinin sayının artmasına nail olmaq idi.

Rusiyanın himayəsi altında erməni dövlətinin yaradılması, həmçinin ermənilərin İran və Türkiyədən Rusiyanın işğal etdiyi torpaqlara köçürülməsi təsadüfi hadisə sayıla bilməz. Bu, erməni-rus münasibətlərinin nəticəsi idi ki, bu əlaqələrin əsasını rus və erməni tarixi ədəbiyyatında



təbliğ edildiyi kimi, yalnız ticarət əlaqələri təşkil edə bilməzdi. Bu niyyətin arxasında Şərqin müsəlman dövlətlərinə, xüsusilə Osmanlıya, XVIII əsrdən etibarən isə həm də Azərbaycana qarşı düşmənçilik gizlənirdi.

Ermənilərin, ümumiyyətlə, Cənubi Qafqaza köçürülüb gətirilməsi və əsasən türklərin məhsuldar torpaqlarında yerləşdirilməsi son iki əsr içində olmuşdur. Bu tarixlərə qədər adıçəkilən bölgələrdə erməni əhalisi say etibarı ilə çox az idi, onların sayı 10 faizi belə keçmirdi. Rus çarı I Pyotrun fərmanı ilə 1724-cü ilin noyabrından ermənilərin Azərbaycanın Xəzər dənizi sahillərinə, xüsusilə Dərbənd və Bakı, həmçinin Gilyan, Mazandaran və Goran ərazilərinə köçürülməsi təşkil olunmuşdu. Bu sənədə görə ermənilər Rusiya imperiyasının Cənubi Qafqazdan İran körfəzinə kimi geniş əraziləri ələ keçirmək planının həyata keçirilməsində "beşinci qüvvə" rolunu oynayacaqdılar. Bu planın bir hissəsi kimi Rusiya generalları Azərbaycan əhalisini hansı yollarla olursa-olsun, yaşadığı yerlərdən tərk etdirmək əmri almışdılar.

Lakin Rusiyanın sonrakı dövrdə Qafqazdakı hərbi uğursuzluqları onun ermənilərin planlı məskunlaşdırılması siyasətini bir müddət dondurdu. Amma Türkmənçay müqaviləsinin nəticəsi olaraq 90 min erməni Azərbaycanın müxtəlif bölgələrində məskunlaşdırıldı.

1829-cu ilin Ədirnə sülhünün nəticələrinə görə isə, Osmanlı imperiyası ərazilərində yaşayan 40 min erməni də Azərbaycanda yerləşdirildi. Onlar Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarının torpaqlarında məskunlaşdırıldılar. Məşhur rus diplomatı, Rusiyanın İrandakı səfiri Qriboyedov ermənilərin Cənubi Qafqaza köçürülməsində fəal iştirak etmişdir.

Qriboyedov yazırdı: "Erməni xalqı əsasən müsəlman torpaq sahiblərinin ərazilərində yerləşdirilirdilər...Onlar yavaş-yavaş müsəlman əhalisini ərazilərdən sıxışdırıb çıxarmağa başlamışdılar. Biz müsəlman əhalisini düşdükləri çətin vəziyyətlə barışdırmağa və onları inandırmağa çalışmalıyıq ki, bu çətinliklər uzun sürməyəcək və ermənilər müvəqqəti olaraq onlara yaşamağa icazə verilən yerlərdə davamlı olaraq qalmayacaqlar".

Rusiya imperatorluğunun idarəçiləri Cənubi Qafqazda icra etdikləri müstəmləkə siyasətində ermənilərə çox güvənirdilər. Eyni inam Türkiyədə yaşayan ermənilərə Qərb dövlətləri tərəfindən aşılanırdı. Osmanlı dövlətinin parçalanmasında və zəiflədilməsində ermənilər ən cəlbedici ünsür sayılırdılar. 1828 və 1920-ci illər arasında Şimali Azərbaycana 560 min erməninin köçürülməsi həyata keçirildi. Beləcə Qafqazın ruslar tərəfindən işğalı nəticəsində Azərbaycan torpaqlarında - Araz çayının şimalında erməni əhalisi sürətlə artmağa başladı.

Qatı erməni irqçisi Z.Balayan bu məsələ ilə bağlı özü etiraf etmişdir: "Onun (Yerevanın) əhalisi başqa yerlərdən gəlmələrdir. Əslində gerçək yerevanlı yoxdur". Erməni akademik A. İ. İonisyan yazır ki, "İrəvan şəhərinin əhalisinin yalnız dörddə biri ermənilər idilər, azərbaycanlılar burada mütləq üstünlük təşkil edirdilər".

Rus çarı I Nikolayın 21 mart 1828-ci il tarixli fərmanına görə Azərbaycanın Naxçıvan və İrəvan xanlığı ləğv olunmuş, onların yerində rus hakimləri tərəfindən idarə olunan "Erməni vilayəti" deyilən yeni inzibati qurum yaradılmışdır. 1849-cu ildə bu mahal-vilayətin adı dəyişdirilərək "Erivan quberniyası" adlandırılmışdır.

Ermənilər 1836-cı ildə rusların köməyi ilə Azərbaycanda o zaman fəaliyyət göstərən Alban Patriarx Kilsəsinin ləğv edilməsinə və mülklərinin erməni kilsəsinə verilməsinə nail olmuşdular. Çünki alban əhalisinin müqavimət edəcək bir qurumu və təsirli təşkilatı olmamışdır. Albanlara məxsus hər şeyin ermənilər tərəfindən mənimsənilməsi və özününküləşdirilməsi sonrakı tarixlərdə də davam etmişdir.

*Qafar MEHDİYEV,*
*XQ-nin Türkiyə üzrə müxbiri*

# Transxəzər və Transqafqaz dəhlizləri Özbəkistanın Avropaya açılan qapısıdır

(əvvəli 1-ci səhifədə)



Ölkəsinin İnvestisiya, Sənaye və Ticarət Nazirliyinin bununla bağlı proqnozlarını xatırladan B.Sotiboldiyev bildirib ki, 2024-cü ildə bu istiqamətdə 1 milyon tondan çox Özbəkistan yükü daşınacaq. Özbəkistanın Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolunun imkanlarından dinamik şəkildə istifadə etdiyini xatırladan şöbə müdirinin sözlərinə görə, hazırda ölkəsi sözügedən nəqliyyat marşrutunun hərtərəfli modernləşdirilməsinin bu yaxınlarda yekunlaşmasını və ötürmə qabiliyyətinin ildə 5 milyon tona çatdırılmasını nəzərə alaraq tədarükün artırılmasını gözləyir.

Yaxın gələcəkdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə yükdaşımalarının artırılmasının perspektivli göründüyünü vurğulayan şöbə müdiri deyib ki, Özbəkistan burada anbar infrastrukturu yaratmaq və ayrıca terminal tikmək niyyətindədir. Bununla yanaşı, Azərbaycan tərəfi ilə gəmiqayırma və gəmiçilik sahəsində birgə layihələrin həyata keçirilməsinə dair danışıqlar da aparılır. “Asiyadan Avropaya ən qısa quru yolunun təmin edilməsi məqsədlərinə nail olmaq baxımından Özbəkistan və Azərbaycan öz tranzit potensialından qarşılıqlı faydalı istifadəyə yönəlib. Daşkənd öz logistik imkanlarını genişləndirdikcə Azərbaycanın infrastrukturu vasitəsilə yükdaşımaları artırmağa çalışır. Öz növbəsində, Bakı da planlaşdırılan Çin–Qırğızıstan–Özbəkistan dəmir yolu xəttinin Xəzər dənizinə qədər uzadılmasında maraqlıdır”, – deyə B.Sotiboldiyev bildirib.

Yeri gəlmişkən, Çin–Qırğızıstan–Özbəkistan dəmir yolunun çəkilməsi ilə bağlı layihə 2022-ci ilin sentyabr ayında həyata vəsiqə alıb. Həmin vaxt Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənd şəhərində keçirilən zirvə görüşündə Çin, Qırğızıstan və Özbəkistan arasında dəmir yolunun çəkilməsi haqqında saziş imzalanıb. Ümumi uzunluğu 454 kilometr olan yolun 18 stansiya, 81 körpü və 41 tuneldən ibarət olması nəzərdə tutulub. Ekspertlərin fikrincə, Çin–Qırğızıstan–Özbəkistan dəmir yolu layihəsinin uğurlu sonluğu həm də bu infrastrukturun Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinə qoşulması ilə bağlı olacaq. Başqa sözlə, bu layihə “Bir kəmər, bir yol” təşəbbüsü çərçivəsində yükdaşımaların həyata keçirilməsi üçün nəzərdə tutulan Orta Dəhliz marşrutlarından biri kimi fəaliyyət göstərəcək.

Qeyd edək ki, son illər səmərəli fəaliyyəti ilə diqqət çəkən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna (Orta Dəhliz) maraq getdikcə artır. Orta Dəhlizin funksionallığının artmasında yeni platformada birləşən Özbəkistan da artıq Orta Dəhlizin fəaliyyətindən yararlanmaq niyyətindədir. Bu məqsədlə yaxın illərdə Çin–Qırğızıstan–Özbəkistan dəmir yolunun bu dəhlizə birləşdirilməsi nəzərdə tutulur. Bununla da, Özbəkistanın Azərbaycanla, eləcə də Avropa ölkələri ilə iqtisadi əlaqələri xeyli güclənəcək.

Hazırda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun fəal iştirakçısına çevrilmiş Azərbaycan Orta Dəhlizin funksionallığının artırılmasına mühüm töhfələr verir. Təkcə onu qeyd etmək kifayətdir ki, son 20 ildən artıq bir müddətdə ölkəmiz nəqliyyat sektoruna böyük həcmlərdə investisiyalar yönəldərək öz ərazisində müasir yol-logistika infrastrukturu qurmağa nail olub. Bu baxımdan Özbəkistanın da xüsusi maraq göstərdiyi Bakı Dəniz Ticarəti Limanı müstəsna rol oynayır. Hazırda Ələt qəsəbəsində yerləşən bu limanın ötürücülük imkanlarının ildə 15 milyon tondan 25 milyon tona və 100 min konteynerdən 1 milyon konteynerə qədər artırılması ilə bağlı layihə icra olunur. Bununla yanaşı, Azərbaycan Xəzərdə ən böyük dəniz donanmasına malikdir. Ölkəmizin dünyanın gəmi istehsal edən dövlətinə çevrilməsi isə bu imkanları qat-qat artırır.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar-iyun aylarında Azərbaycanda dəniz nəqliyyatı ilə 1 milyon 435 min 665 ton yük daşınıb. Bu da ötən ilin eyni dövrünə nisbətən bir qədər çoxdur. Altı ayda dəniz nəqliyyatı ilə ixrac olunan yüklərin həcmi 41 min 626 ton (əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 8,4 faiz çox), idxal yüklərinin həcmi isə 1 milyon 394 min 39 ton (0,1 faiz az) təşkil edib.

Bununla yanaşı, hazırda Özbəkistan BTQ dəmir yolundan istifadəni də diqqətdə saxlayır. Orta Dəhlizin əsas seqmentlərindən olan beynəlxalq əhəmiyyətli polad magistral dost ölkənin məhsullarının dünya bazarına çıxarılmasında əhəmiyyətli rol oynayır. Bu məsələ Dünya İqtisadiyyatı və Diplomatiya Universitetinin Qabaqcıl Beynəlxalq Araşdırmalar İnstitutunun elmi işçisi, “Bilim Karvoni” qeyri-hökumət elmi müəssisəsinin eksperti Nərgiz Umarovanın “Nəqliyyat kommunikasiyaları sahəsində türk tərəfdaşlığının gücləndirilməsində Özbəkistanın rolu” adlı məqaləsində də geniş əksini tapıb.

Ölkələrimiz arasında nəqliyyat və beynəlxalq yükdaşımalar sahəsində uğurlu əməkdaşlığa yer ayıran ekspert bildirir ki, ötən illər ərzində Özbəkistan iki strateji əhəmiyyətli nəqliyyat arteriyası – Transxəzər və Transqafqaz dəhlizləri arasında birləşdirici halqa rolunu oynayan Cənubi Qafqaz regionunun ən böyük iqtisadiyyatı olan Azərbaycanla sıx dialoq qurub. Məqalədə Azərbaycanla ikitərəfli dialoqda yerli məhsulların dünya bazarlarına çıxışını təmin edən Bakı–Tbilisi–Qars dəmir yolundan səmərəli istifadəyə xüsusi maraq göstərildiyi vurğulanır.

Müəllif onu da qeyd edir ki, Azərbaycan Mərkəzi Asiya ilə Qafqazı birləşdirən nəqliyyat marşrutlarının əsas halqasına çevrilən Bakı Beynəlxalq Ticarət Limanının imkanlarını da artırır. Ələt limanı vasitəsilə yükdaşımaların müsbət dinamikasını qismən Özbəkistan və Azərbaycan arasında ticarətin intensivləşməsi ilə əlaqələndirən məqalə müəllifi 2016-cı ildən bəri iki ölkə arasında ticarət dövriyyəsinin 10 dəfədən çox artdığına diqqət çəkir. Onun sözlərinə görə, qarşıdakı beş il ərzində bu rəqəmin 1 milyard dollara çatdırılması nəzərdə tutulur.

# Oğuzda selə qarşı elliklə mübarizə

**Oğuzda daşqınlar zamanı əhalinin problemlə qarşılaşmaması üçün qabaqlayıcı tədbirlər görülür, eyni zamanda, rayon ərazisində olan əkin sahələrinin suvarılması da diqqətdə saxlanılır.**

Suvarılmanın mütəşəkkil aparılması üçün torpaq məcralı kanallar daimi olaraq lildən təmizlənir, su itkisinin qarşısının alınması məqsədilə kanallar beton üzlüyə salınır. Bundan başqa əhalinin suvarma və içməli suya olan tələbatını ödəmək üçün artezian və subartezian quyularının qazılaraq istifadəyə verilməsinə xüsusi önəm verilir.

Rayondakı su meliorasiya sistemlərinin istismarı idarəsi hər il olduğu kimi, bu il də mövcud əkin sahələrinin vaxtlı-vaxtında suvarılmasını, o cümlədən selə qarşı qabaqlayıcı tədbirləri davam etdirir. Oğuzda bu il 13 min 427 hektar sahədə kənd təsərrüfatı bitkilərinin suvarılması planlaşdırılıb. Suvarılan sahələrin 4 min 39 hektarını dənli, 115 hektarını texniki bitkilər, 596 hektarını yonca, 199 hektarını bostan-tərəvəz, 6 min 392 hektarını çoxillik əkmələr və 1828 hektarını həyətyanı əkmələr təşkil edib. Bu sahələrin suvarılması üçün suayırıcıdan su istifadəçilərinə



39 min kubmetr su verilməsi planlaşdırılıb. Cari ilin 7 ayı ərzində su istifadəçilərinə 21 min kubmetr su verilib. Hesabat dövründə rayon ərazisində iqlim şəraitinin yağıntılı olması ilə əlaqədar əvvəlki illərə nisbətən suvarma suyuna ehtiyac az olub.

İdarənin rəisi Nizami Əhmədov deyir:
– Rayon ərazisində idarəyə məxsus 79 subartezian və 14 artezian quyusu var. Həmin quyular 284 hektar əkin sahəsini suvarma suyu ilə, 4 kəndi bütünlüklə və 13 yaşayış məntəqəsini isə qismən içməli su ilə təmin edir. Cari ilin 7 ayı ərzində subartezian quyuları vasitəsi ilə 998 min kubmetr su çıxarılıb və 659 min kubmetr suvarma suyu, 274 min kubmetr içməli su istifadəçilərə verilib.

Oğuz Rayon Su Meliorasiya Sistemləri İstismarı İdarəsinin xidmət göstərdiyi ərazidə su istifadəçilərinə “Fətənburun” və “ Türyançay” sudan istifadəedənlər birlikləri xidmət göstərir. Hesabat dövründə həmin birliklər tərəfindən istifadəçilərə 20 min kubmetrdən çox su verilib və 15 min 478 hektar sahədə rejimlə suvarma aparılıb.

Suvarma suyu təsərrüfatlara idarənin balansında olan 74 suvarma kanalının öz axını ilə verilir. Bu kanalların su mənbəyi Daşağıl, Oğuz, Xal-xal, Qala çayları və Qarasu sistemləridir. Leysan yağışlar nəticəsində həmin dağ çaylarında əmələ gələn daşqınlar yol infrastrukturuna və şəxsi təsərrüfatlara ciddi ziyan vurur. Ümumiyyətlə, çaylar yaz və payız aylarında güclü yağışlar nəticəsində sel suları ilə diqqət çəkir, yay fəslində isə onlarda su qıtlığı müşahidə olunur.

Sel suları zamanı çayların daşması kanalların qum-çınqılla dolmasına və lillənməsinə gətirib çıxarır. Ona görə də bəzən bir kanal il ərzində bir neçə dəfə lildən təmizlənir. Bir başa çaylardan su götürən kanalların müəyyən hissələri isə çay yatağında yerləşdiyindən onlar da il ərzində bir neçə dəfə təmizlənir və bərpa olunur. Həmçinin kanalların 200 kilometrdən artıq hissəsi meşə fondunun ərazisindən keçdiyindən həmin sahələrdə təbii proseslər nəticəsində su itkisi yaranır. Buna görə də həmin hissələrdə təmizləmə işləri hər il aparılır.

Kanallarda suyun maneəsiz və itkisiz axması üçün idarənin istismar tədbirləri planına uyğun olaraq lildən təmizləmə işləri aparılır. Hesabat dövründə bu plana əsaslanaraq 25 kanalda 156 min kubmetr ekskavatorla və 62 min kubmetr buldozerlə 112 kilometr lildən təmizlənib.

Cari il güclü yağışlar səbəbindən çaylarda su sərfi orta illik göstəricidən 10-15 dəfə çox olub. Bu da ətraf ərazilər üçün sel və daşqın təhlükəsi yaranmasını şərtləndirib. Qala çayda tez-tez su sərfi kəskin artıb. Nəticədə çay yatağı güclü suların gətirdiyi daş-qum və digər kütlələrlə dolub. Xaçmaz kəndinin cənub-qərbi hissəsində həyətyanı sahələrin, bağların və kənd ərazisində yerləşən “Aqroinkişaf 2017” MMC-yə məxsus qoz bağının su basması təhlükəsi yaranıb. Çayın sol qolu olan Sincançayda su sərfi orta illik göstəricidən bir neçə dəfə artıb. Bu da Sincan kəndinin Orta məhəllə adlanan hissəsindəki həyətyanı sahələri su basması təhlükəsi ilə üzləşdirib. Buna görə də həmin ərazilərdə mexanizmlər vasitəsi ilə çay məcrasının tənzimlənməsi və sahil bərkitmə işləri görülüb.

İdarə suvarma ilə yanaşı, rayon ərazisindəki yaşayış məntəqələrini və əkin



sahələrinin sel və daşqın sularından mühafizəsini də təşkil edir. Bu məqsədlə istismar tədbirləri planına uyğun olaraq çaylarda mexanizmlərlə çay məcrasının tənzimlənməsi, daş-beton bəndlərinin təmiri işlərini həyata keçirir.

Xal-xalçayda Xal-xal, Xal-xal ışlaq, Ərmənət kəndlərinin mühafizəsi məqsədi ilə mexanizmlərlə çay məcrasının tənzimlənməsi işləri hazırda da davam etdirilir.

Türyan çayda yatağın dolması və bu səbəbdən də Mollalı kəndinin mühafizəsi üçün keçən ilin sentyabr-dekabr aylarında görülmüş məcra tənzimlənməsi işləri zamanı qurulmuş torpaq dambaların bir hissəsi çay suları tərəfindən yuyulub aparılıb. Təhlükənin qarşısının alınması məqsədilə ərazidə mexanizimlərlə məcra tənzimlənməsi işləri görülüb.

Bundan başqa, yerli əhalinin Ağçay adlandırdığı Nazar çayının kənd ərazisindən keçən ayrı-ayrı hissələrində kənd sakinlərinə məxsus olan çayətrafı həyətyanı və bağ sahələrinin daşqın təhlükəsindən mühafizəsi məqsədilə mexanizimlərlə çay məcrasının tənzimlənməsi işləri görülüb.

Oğuz çayında yaranmış daşqın Oğuz şəhərinin şimal hissəsindəki istirahət mərkəzlərini sel basması təhlükəsi ilə üzləşdirib, bəzi yerlərdə yollar yuyularaq dağılıb, bir necə ağac yıxılıb. Mexanizmlər vasitəsilə çayda məcratənzimlənmə işləri aparılaraq yaranmış təhlükəli vəziyyət aradan qaldırılıb. Daşağıl çayda da su sərfinin kəskin artması nəticəsində yataq dolub. Muxas kəndinin əkin sahələrinin mühafizəsi məqsədilə 2023-cü ilin oktyabr-dekabr aylarında görülmüş məcra tənzimlənməsi işləri zamanı qurulmuş torpaq dambaların bir hissəsini çay suları yuyub aparıb. Əkin sahələri üçün sel və daşqın təhlükəsi yaranıb. Bunun qarşısının alınması məqsədilə ərazidə tez bir vaxtda mexanizimlərlə məcra tənzimlənməsi işləri görülüb və bu işlər hazırda da davam etdirilir.

Bu il idarənin əsaslı təmir planına əsasən, 2 subartezian quyusunun əsaslı təmiri üçün layihə-smeta sənədlərinin hazırlanması, 3-nün əsaslı təmiri planlaşdırılıb. Bunlardan biri artıq əsaslı təmir edilib. Bundan əlavə, Həsənbəy kanalının 1660 metr hissəsinin beton üzlüyə alınması işi planlaşdırılıb.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Naxçıvanda əmək yarmarkası

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 50-dən çox işəgötürənin iştirakı ilə əmək yarmarkası keçirilib.**

Yarmarkada Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən Fərid Bağırzadə yarmarkanın açılışı münasibətilə iştirakçıları təbrik edib, çoxsaylı iş yeri təklifinin əhalinin məşğulluq problemlərinin həllində əhəmiyyətli rol oynadığını bildirib. Qeyd edib ki, muxtar respublikada işaxtaran şəxslərin məşğulluqlarının təmin edilməsi, o cümlədən əmək bazarında rəqabətə davamlılığın artırılması, kadr potensialının yüksəldilməsi daim diqqət mərkəzindədir. Bu baxımdan gənclərlə yanaşı, xüsusi ixtisası və ya peşəsi olmayan əmək qabiliyyətli şəxslərin məşğulluğunun təmin edilməsi də mühüm əhəmiyyət daşıyır. Əmək yarmarkaları bu kateqoriyadan olan şəxslərin işlə təmin olunması istiqamətində vacib məşğulluq tədbirlərindən biridir.

Qeyd edək ki, yarmarkada 30-dan artıq dövlət, 20-dən artıq özəl müəssisədən, ümumilikdə, 350-dən çox vakansiya



yarmarkada işsiz və işaxtaran vətəndaşlara təqdim olunub. Vakansiyalar üzrə müraciət edən işsiz və işaxtaran şəxslərdən CV-lər qəbul edilərək nəzərdən keçirilib. Onların həmin vakansiyalar üzrə məşğulluqlarının təmin edilməsi üçün işlərə başlanıb.

Yarmarkada, həmçinin işsiz və işaxtaran şəxslərə Agentliyin aktiv məşğulluq tədbirləri barədə də məlumat verilib, müraciət edən şəxslərlə ilkin sorğular aparılıb.

***Səbuhi HƏSƏNOV***
***XQ***

# Körfəz ölkələrinin Azərbaycana marağı artır

*Bu dövlətlər respublikamıza 7 milyard dollar sərmayə yatırıb*

**Fars Körfəzi Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının (GCC) Palatalar Federasiyası sentyabrın 25-26-da Bakıda II “Körfəz – Azərbaycan” İqtisadi Forumunu təşkil edəcək.**

Federasiyanın yaydığı məlumata əsasən, “Dayanıqlıq, investisiya, tərəfdaşlıq” adlanacaq forumun məqsədi Körfəz ölkələri ilə Azərbaycan arasında bir sıra perspektivli iqtisadi sahələrdə ticarət əlaqələrini inkişaf etdirməkdir.



Forum Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi ilə əməkdaşlıq çərçivəsində İqtisadiyyat Nazirliyi və Körfəz Əməkdaşlıq Şurasının Baş Katibliyinin dəstəyi ilə reallaşacaq. Tədbirdə ərzaq təhlükəsizliyi və kənd təsərrüfatı, bərpaolunan enerji mənbələri, logistika və nəqliyyat, eləcə də tərəflər arasında ticarət və investisiyaların artımını dəstəkləyən sektorlar da daxil olmaqla bir sıra iqtisadi sahələrdə əsas investisiya imkanları və birgə layihələr təqdim ediləcək.

Federasiyanın prezidenti Faisal bin Abdullah Əl-Ravvas qeyd edib ki, forum Körfəz ölkələri ilə Azərbaycan arasında ticarət əlaqələrinin möhkəmləndirilməsi və inkişafının, o cümlədən iki tərəf arasında ticarət mübadiləsinin həcminin artırılmasının vacibliyini əks etdirir. Əl-Ravvas əlavə edib ki, 2023-cü ildə Körfəz ölkələri ilə Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi 1,8 milyard ABŞ dollarına çatıb. Körfəz ölkələrinin Azərbaycan iqtisadiyyatına sərmayələri isə, təxminən, 7 milyard ABŞ dolları təşkil edib.

Birinci “Körfəz – Azərbaycan” İqtisadi Forumu 2017-ci ildə keçirilib.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




# COP29 qlobal su problemini də hədəfə alıb



**Qlobal iqlim dəyişiklikləri nəticəsində Azərbaycanda su ehtiyatları son illərdə təqribən 15 faizdən çox azalıb. Bunu ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov Bakıda “Su idarəetmə sistemlərinin iqlimə dayanıqlı kənd təsərrüfatında rolu: COP29 dəyirmi masa müzakirələri” mövzusunda keçirilən tədbirdə deyib.**

Proqnozların növbəti illər üçün daha kəskin olduğundan narahatlığını ifadə edən nazir müavini bu azalmanın davam edəcəyini vurğulayıb. “Bu dəyişikliklər kənd təsərrüfatı bitkilərinə və heyvandarlığa mühüm təsir göstərir. Bu baxımdan bitkiçilik və heyvandarlıq sahələrində iqlim dəyişikliklərinə uyğunlaşdırmaq məqsədilə konkret fəaliyyətlər həyata keçirilməlidir”, – deyə o əlavə edib.

Hazırda Azərbaycanın şirin su ehtiyatlarının 75 faizə qədəri ölkə hüdudlarından kənarda formalaşır. Son illər transsərhəd çayların birgə idarəetmə mexanizminin, onların tətbiqi ssenarilərinin hazırlanması ilə bağlı təkliflər səsləndirilir. Tədbirdə bu barədə məlumat verən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ekoloji siyasət şöbəsinin müdir müavini Rafiq Verdiyev bildirib ki, ölkəmizdə Kür çayı ilə bağlı hər hansı bir ssenari hazırlanarsa, bununla heç nəyə nail oluna bilməz.

Onun sözlərinə görə, COP29 çərçivəsində Azərbaycanda transsərhəd çayları üzrə birgə mexanizmlə bağlı senarinin işlənilməsi təklif olunacaq. “İstəyirik ki, su senarisi işlənilsin, onun icrası ilə bağlı adaptasiya planları çərçivəsində region ölkələri birgə tədbirlər həyata keçirsinlər. Əlbəttə ki, Yaşıl İqlim Fondunun və digər qurumların dəstəyi ilə adaptasiya fəaliyyətini həyata keçirməklə su ehtiyatlarımızın gələcək iqlim dəyişiklikləri fonunda davamlılığını artıra bilərik”, – deyə o əlavə edib.

Şimalda okean buzlarının əriməsi ilə əlaqədar dəniz səviyyəsinin qalxdığını diqqətə çatdıran şöbə müdiri deyib ki, ölkəmizin quraq ərazilərində bunun əksi baş verir, qapalı su hövzələri yağıntı və çay axının azalması səbəbindən quruyur. Məhz buna görə də həmin məsələnin iqlim dəyişiklikləri üzrə mexanizmlərin tərkibinə daxil edilməsi təklif olunur. O bildirib ki, İqlimə dair Paris razılaşmasına əməl edilməsə və temperatur 4-5 dərəcə artsa, Azərbaycanın su resursları əsrin sonuna 40-50 faiz azala bilər.

R.Verdiyev hesab edir ki, sözügedən razılaşmaya əməl ediləcəyi təqdirdə isə bu gösəricinin 20-25 faiz olacağı gözlənilir. “Buna baxmayaraq, biz indidən hazır olmalıyıq ki, gələcəkdə bu problemlərlə üzləşməyək. Bəzən quraqlıq illərdə illik normanın 40–50 faizi qədər su olur və bu kəskin qıtlığa səbəb olur. Bu səbəbdən də indidən infrastrukturumuzu hazır eləməliyik”, – deyə şöbə müdiri bildirib.

Ekoloqun fikrincə, erkən xəbərdarlıq sisteminin tətbiqi həm su ehtiyatları ilə bağlı, həm digər sahələrdə ciddi yaxşılaşmalara və inkişafa kömək edəcək, həm də qurumlara öz sahələrində su ilə bağlı hər hansısa hadisələrin azaldılmasına imkan verəcək. R. Verdiyev mövzunun davamı olaraq xatırladıb ki, 2023-cü ildə nazirliyin Milli Hidrometeorologiya Xidmətinin inzibati binasında Situasiya Mərkəzi fəaliyyətə başlayıb ki, bu da, erkən xəbərdarlıq sisteminin yaradılması layihəsi çərçivəsində atılan ilkin addımdır. Onun dediyinə görə, bu yaxınlarda Yaşıl İqlim Fondu nazirliyin erkən xəbərdarlıq sistemi ilə bağlı layihəyə 30 milyon ABŞ dolları maliyyələşmənin ayrılması ilə bağlı baxış mərhələsini sona çatdırıb və artıq layihə təsdiq üçün təqdim edilib.

Tədbirdə çıxış edən kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova hazırda ölkəmizdə aqrar sektorun intensiv inkişafına göstərilən dövlət dəstəyindən bəhs edib, müasir suvarma sistemlərinin yaradılmasını stimullaşdırmaq üçün müxtəlif güzəştlərin, subsidiyaların tətbiq olunduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, son 5 ildə Azərbaycanda 38,2 min hektar ərazidə suvarma sistemlərinin qurulmasına 93,3 milyon manat subsidiya ayrılıb. “Fermerlərin su ehtiyatlarını səmərəli istifadə etmələri və iqlim dəyişikliklərinə uyğunlaşmaları, sektorun davamlı inkişafı üçün həlledici addımlardır. Bu istiqamətdə fəaliyyətlər, COP29 çərçivəsində noyabrın 19-da keçiriləcək Ərzaq, Kənd Təsərrüfatı və Su Günündə təqdim ediləcək “Harmoniya Təşəbbüsü”nün əsas hədəflərindən biridir. Bu təşəbbüs, kənd təsərrüfatı icmalarına və fermerlərə müasir su idarəetmə sistemləri və iqlimə davamlı yanaşmaları tətbiq etmək üçün lazımi dəstəyi təmin etməyi qarşısına məqsəd qoyur”, – deyə nazir müavini əlavə edib. Qeyd olunub ki, hazırda ölkə üzrə 119 min 500 hektarda innovativ suvarma sistemləri tətbiq edilir ki, bu da ümumi suvarılan ərazilərin 8,05 faizini təşkil edir.

Nazir müavininin dediyinə görə, son illərdə azalan su ehtiyatları, quraqlıq, daşqınlar, torpağın deqradasiyası və digər ekstremal hava hadisələri dünya üzrə fermerlərə böyük çətinliklər yaradır. Azərbaycanda kənd təsərrüfatı sektorunun iqtisadiyyatın və cəmiyyətin mühüm bir hissəsi olduğunu vurğulayan nazir müavini deyib ki, iqlim dəyişikliklərinin təsirlərinə məruz qalma riski səbəbindən aqrar sektorun dayanıqlılığını təmin etmək üçün tədbirlər görülməli, su idarəetmə sistemləri təkmilləşdirilməlidir.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı nümayəndəsi Muhammad Nasar Hayat çıxışında ölkəmizdə su ehtiyatlarının idarə edilməsində mühüm addımlar atdığını vurğulayaraq Su Komissiyasının yaradılmasını təqdir edib. Onun fikrincə, kənd təsərrüfatı Azərbaycan üçün təkcə iqtisadiyyatın bir sahəsi deyil, həm də bir çox icmaların həyat tərzi və dolanışıq vasitəsidir.

Dəyirmi masa müzakirələrindən sonra iqlim dəyişikliklərinin su ehtiyatlarına təsiri, suyun düzgün paylanması və su itkisini minimuma endirmək üçün yeni texnologiyaların tətbiqi mövzusunda təqdimatlar keçirilib. Tədbirdə su ehtiyatlarının səmərəli istifadəsi, ərzaq təhlükəsizliyi və davamlı su təminatı üçün kənd təsərrüfatında idarəolunan suvarma sistemlərinin rolu, iqlim dəyişikliklərinin su ehtiyatlarına təsiri, müasir suvarma sistemlərinin qurulması və digər aktual məsələlər müzakirələr olunub. Həmçinin torpaqların mühafizəsi, biomüxtəlifliyin qorunması, torpaq çirklənməsinin qarşısının alınması, su resurslarından səmərəli istifadə və effektiv torpaq idarəçiliyinin qurulması istiqamətində müzakirələrdə yerli və xarici mütəxəssislər öz fikirlərini bölüşüblər.



## Şuşada beynəlxalq iqlim konfransı keçiriləcək

**Şuşada BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) həsr olunmuş “Qarabağ ekosistemlərinə antropogen amillərin və iqlim dəyişikliklərin təsiri” mövzusunda beynəlxaq konfrans keçiriləcək.**

Elmi məclis sentyabrın 30-da Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutunun təşkilatçılığı ilə gerçəkləşəcək. Konfransın keçirilməsində əsas məqsəd iqlim dəyişikliyi, onun ətraf mühitə təsiri məsələlərini biologiya sahəsində çalışan alim və mütəxəssislərlə müzakirə etmək, çıxış yolları tapmaq üçün fikir mübadiləsi aparmaq, beynəlxalq təcrübəni bölüşməkdir.

## Asiya İnkişaf Bankı ilə “yaşıl” əməkdaşlıq



**Azərbaycan Asiya İnkişaf Bankı (ADB) ilə ölkənin “yaşıl” enerji sektoruna xarici investisiyaların cəlbini müzakirə edib. Bu barədə “XQ”yə İqtisadiyyat Nazirliyindən məlumat verilib. Bildirilib ki, müzakirələr iqtisadiyyat nazirinin müavini Anar Axundovla ADB-nin Şərqi, Mərkəzi və Qərbi Asiya komandasının enerji direktoru Junho Hvanq arasında aparılıb.**

Görüşdə Azərbaycanın ADB ilə uğurlu tərəfdaşlığından məmnunluq ifadə olunub, bankın ölkəmizdəki fəaliyyəti yüksək qiymətləndirilib. Tərəflər, həmçinin bərpaolunan enerji mənbələrinin genişləndirilməsi, Azərbaycanın enerji sisteminin davamlılığını və səmərəliliyini təmin etmək üçün infrastrukturun inkişafı və maliyyələşməsinə ADB-nin potensial dəstəyi ilə bağlı fikir mübadiləsi aparıblar.

## Avstraliyada COP29 müzakirəsi



**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) prezidenti Muxtar Babayev Avstraliyanın iqlim dəyişikliyi və energetika naziri Kris Bouen ilə əməkdaşlıq məsələlərini müzakirə edib.**

Bu barədə COP29-un “X” sosial şəbəkəsindəki paylaşımda bildirilib: “Avstraliyada COP29 ərəfəsində və ondan sonrakı dövrdə iqlim dəyişikliyi ilə qlobal mübarizə səylərinin müzakirəsinə həsr olunmuş çox məhsuldar görüş keçirilib. Bərpaolunan enerji mənbələri, emissiyaların azaldılması və ekoloji təmiz sahələrə investisiyalarla bağlı mühüm fikir mübadiləsi aparılıb. Həmçinin noyabrda COP29-da iqlim maliyyələşdirilməsinin əhəmiyyəti də müzakirə olunub”.

**Media Təhlil Mərkəzinin (MTM) Dövlət Statistika Komitəsi, Energetika Nazirliyi və Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin müvafiq göstəriciləri əsasında hazırladığı analitik materialda bildirilir ki, Prezident İlham Əliyev 2004-cü il oktyabrın 21-də “Azərbaycan Respublikasında bərpaolunan enerji üzrə Milli Proqram”la bağlı sərəncam imzalayandan sonra bu sahədə genişmiqyaslı layihələrin icrasına başlanılıb və həmin vaxtdan indiyədək ölkəmizdə alternativ enerji üzrə qoyuluş gücü 74 faiz və ya 717,8 MVt yüksəlib.**

# Alternativ enerji ekoloji fəlakəti sovuşdurmağa xidmət edir



Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin 2009-cu il yanvarın 26-da Bonn şəhərində imzalanmış nizamnaməsinin dövlətimizin başçısı tərəfindən təsdiqləndiyi 2014-cü il mayın 2-dən bugünə kimi isə ölkəmizdə bərpaolunan enerji üzrə qoyuluş gücü 50,7 faiz və ya 567,9 MVt çoxalıb. Cari ilin iyul ayında isə ölkəmizdə bu sahə üzrə qoyuluş gücü 1687,9 MVt-a (5 il əvvəlki göstərici ilə müqayisədə 30,7 faiz və ya 396,6 MVt çox) yüksəlib.

Respublikada alternativ enerji üzrə elektrik stansiyalarının gücünə diqqət etsək, əsas enerji növünün su olduğunu görərik. Son 20 ildə bu sahədə fəaliyyət göstərən su elektrik stansiyalarının qoyuluş gücü 34,2 faiz və ya 331,6 MVt artıb. Hazırda isə su elektrik stansiyalarının qoyuluş gücü 1301,7 MVt-a (son 5 ildə 13,7 faiz çox) çatıb.

MTM-in hazırladığı təhlili materialda daha sonra qeyd edilir: “Azərbaycanda hazırda su elektrik stansiyalarının qoyuluş gücü 1301,7 MVt (son 5 ildə 13,7 faiz çox), külək elektrik stansiyalarının gücü 66,5 MVt (15 il əvvəlki göstəricidən 39,1 dəfə və ya 64,8 MVt çox) təşkil edir. Günəş elektrik stansiyalarının qoyuluş gücü isə 282 MVt-a (5 il əvvəl ilə müqayisədə 8 dəfə, 10 il əvvəl ilə müqayisədə 117,5 dəfə çox) çatır. Günəş elektrik stansiyalarının qoyuluş gücünün 81,6 faizini və ya 230 MVt-nı 2023-cü ildə açılışı reallaşan Qaradağ GES təşkil edir.

Xatırladaq ki, 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilən sənaye miqyaslı ilk günəş enerji infrastrukturu olan Qaradağ GES-də ildə 500 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacağı, bununla da il ərzində 110 milyon kubmetr təbii qaza qənaət ediləcəyi və 200 min tondan artıq karbon emissiyasının atmosferə atılmasının qarşısının alınacağı nəzərdə tutulub.

Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik ölkələrdən biridir. Mütəxəssislərin hesablamalarına əsasən, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135 qiqavat, dənizdə isə 157 qiqavat təşkil edir. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı isə 27 qiqavatdır ki, bunun da 3 min meqavatı külək, 23 min meqavatı günəş enerjisi, 380 meqavatı isə bioenerjinin payına düşür. Bununla yanaşı, ölkə ərazisindəki dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir.

MTM-in hazırladığı təhlili materialda bildirilir ki, ölkədə 9 günəş, 5 külək və 1 bioelektrik stansiyası fəaliyyət göstərir. Bundan başqa Azərbaycanda 2 hibrid elektrik stansiyası isə külək, günəş və bioqazdan istehsal olunan elektrik enerjisini hibrid formada elektrik şəbəkəsinə ötürür.

### Ekspert rəyi



**Samir HEYDƏROV, iqtisadçı-ekspert**

Son illər respublikamızda “yaşıl enerji”nin reallaşdırılması ilə bağlı tarixi layihələr həyata keçirilib. Məsələn, ötən il regionda ən böyük bərpaolunan enerji istehsalı müəssisələrindən olan 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyası istismara verilib. “Masdar” ilə ümumi gücü 1000 MVt olan 2 günəş və 1 külək elektrik stansiyasının təməli qoyulub. Bu il mayın 3-də “ACWA Power” şirkəti ilə 200 MVt Batareya Enerji Saxlama Sistemi üzrə İcra Sazişi və 200 MVt gücündə külək elektrik stansiyası üçün Çərçivə Sazişi imzalanıb. Eyni zamanda 1870 MVt gücündə bərpaolunan enerji güclərinin (istismara verilmiş və təməli qoyulmuş stansiyalar daxil olmaqla 2 külək və 6 günəş stansiyası) ölkəmizin ümumi elektroenergetika şəbəkəsinə inteqrasiyası üzrə proqram uğurla gerçəkləşdirilib.

Yuxarıda sadalananlarla bərabər bu ilin iyun ayında ümumi gücü 1000 MVt olan, illik təqribən 2 milyard kilovat-saatdan çox yaşıl enerjinin istehsalı nəzərdə tutulan 3 bərpaolunan enerji infrastrukturunun– Biləsuvarda 445 MVt gücündə günəş elektrik stansiyası, Neftçalada 315 MVt gücündə günəş elektrik stansiyası və Abşeron-Qaradağ ərazisində isə 240 MVt gücündə külək elektrik stansiyasının təməlqoyma mərasimi keçirilib.

Yeri gəlmişkən, təqribən 1 milyard dollara yaxın həcmdə investisiya hesabına reallaşdırılacaq həmin layihələr haqlı olaraq respublikamızda iqtisadi sabitliyə və əlverişli investisiya mühitinə olan inamın göstəricisi kimi dəyərləndirilir. Eyni zamanda bu müasir bərpaolunan enerji infrastrukturları fəaliyyətə başlayandan sonra ölkə iqtisadiyyatının və enerji istehsalının şaxələndirilməsinə, müstəqil enerji istehsalının artırılmasına və ətraf mühitin mühafizəsinə müsbət təsir göstərəcəyi bildirilir.

Burada bir məqamı da xatırlatmaq istərdim. Azərbaycanda bərpaolunan enerji potensialının reallaşdırılması işğaldan azad edilən ərazilərimizdə də diqqət mərkəzində saxlanılır. Ötən il Qarabağ və Şərqi Zəngəzurun 12 bölgəsində tikilən yarımstansiya və su elektrik stansiyalarının istifadəyə verilməsi də bunun bariz ifadəsidir.

Qeyd edilir ki, hazırda elektrik stansiyalarının qoyuluş gücü 8320,9 MVt təşkil edir və onun 79,72 faizi istilik elektrik stansiyalarının, digər 20,28 faizi (15,64 faizi su ES, 3,39 faizi Günəş ES, 0,8 faizi külək ES, 0,45 faizi isə bio ES) bərpaolunan enerji üzrə fəaliyyət göstərən elektrik stansiyalarının payına düşür.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Mina "savaş"ının zərif qəhrəmanları

**Şanlı zəfərimizlə nəticələnən 44 günlük İkinci Qarabağ müharibəsindən ötən müddət göstərdi ki, Azərbaycandan fərqli olaraq Ermənistan sülh danışıqlarında qeyri-konstruktiv mövqe tutduğu kimi, beynəlxalq səviyyədə qəbul edilmiş humanist dəyərlərə də məhəl qoymur. Əgər bu işğalçı dövlət etimad mühitinin formalaşmasında həqiqətən maraqlı olsaydı, o zaman müharibədən dərhal sonra minaladığı ərazilərin dəqiq xəritələrini Azərbaycana təhvil verərdi.**



Gerçəklik isə tamamilə fərqli oldu. Əvvəlcə 2021-ci il iyunun 12-də Gürcüstanın vasitəçiliyi ilə Ağdam rayonu üzrə 97 min tank və piyada əleyhinə minanı özündə əks etdirən xəritələr, daha sonra isə 2021-ci il noyabrın 26-da Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında keçirilmiş üçtərəfli Soçi görüşünün nəticəsi olaraq həmin ilin dekabrın 4-də digər ərazilərin mina xəritələri Ermənistan tərəfindən Azərbaycana verildi.

Mütəxəssislərin qısa araşdırmalarından sonra məlum oldu ki, bu xəritələrin dəqiqliyi 25 faizdən çox deyil, bəzi hallarda isə xəritələr ümumiyyətlə reallığı əks etdirmir. 2024-cü ilin fevral ayında Ermənistan tərəfindən Kəlbəcər rayonunun Murovdağ dağ silsiləsini əhatə edən minalanmış ərazilərə dair daha 8 xəritə Azərbaycana təqdim edilsə də, bu xəritələr də əvvəlkilər kimi qeyri-dəqiqdir. Halbuki hərbi ekspertlərin yekdil rəyincə, Ermənistanda daha dəqiq xəritələr mövcuddur.

### Yeraltı terror davam edir

Həqiqət bundan ibarətdir ki, işğaldan azad edilmiş ərazilərimiz minalar və ölüm saçan partlamamış hərbi sursatlarla ciddi





şəkildə çirkləndirilib. Faktlar da məsələnin nə qədər aktual olduğunu göstərir. Təxmini hesablamalara görə, ermənilər 30 il ərzində Azərbaycanın işğaldan azad edilmiş ərazisində 1,5 milyona yaxın mina basdırıblar. Ermənistanın təhvil verdiyi mina xəritələrinin dəqiq olmaması əraziləri minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsini ləngitməklə yanaşı, insan faktoru baxımından da ciddi təhlükə kimi qalmaqdadır.

2020-ci ilin noyabr ayından bugünədək Azərbaycanda 377 nəfər partlayıcı sursatların qurbanına çevrilib. Onlardan 69 nəfər həlak olub, 308 nəfəri müxtəlif bədən xəsarətləri alıb. Ümumilikdə 1991-ci ildən bu yana minaların partlamasından zərər çəkən azərbaycanlıların sayı isə 3 400 nəfərdən artıqdır. Ən acınacaqlısı odur ki, mina qurbanları arasında mülki şəxslər, o cümlədən qadınlar və uşaqlar da az deyil.

Ərazilərin minalardan təmizlənməsi Azərbaycan dövlətinin xüsusi diqqət ayırdığı prioritet fəaliyyət istiqamətlərindəndir. İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA), bir sıra müvafiq dövlət qurumları, eləcə də yerli şirkətlər və qeyri-hökumət təşkilatı humanitar minatəmizləmə fəaliyyətinə cəlb olunub. Həmin qurumlar tərəfindən 2020-ci ilin noyabr ayından 2024-cü ilin15 avqust tarixinədək, ümumilikdə, 156 min hektara yaxın ərazi minalardan və müharibənin digər partlayıcı qalıqlarından təmizlənib, 151 mindən artıq mina və PHS aşkar edilib. Qarabağ və Şərqi Zəngəzur ərazisində icra edilən minatəmizləmə əməliyyatları intensiv olaraq davam etdirilir.

Xatırladaq ki, ANAMA ölkəmizdə həyata keçirilən humanitar minatəmizləmə ilə bağlı bütün fəaliyyətləri planlaşdırmaq, əlaqələndirmək, idarə və nəzarət etməklə bərabər, həm də hökumətin bu sahə üzrə səlahiyyətli və əsas icraçı qurumudur.

### Tərtərin yaralı binası

1992-ci ildə müxtəlif ölkələrdən olan bir qrup jurnalistlər tərəfindən yaradılmış Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) isə yeganə müstəqil beynəlxalq qeyri-hökumət təşkilatıdır ki, Azərbaycanda birbaşa olaraq minatəmizləmə əməliyyatlarında iştirak edir. Həmkarımız Umud Rəhimoğlunun rəhbərlik etdiyi fond fəaliyyəti dövründə sözügedən problemi hər zaman diqqətdə saxlayıb, müxtəlif layihələr reallaşdırıb.

2023-cü ildə Beynəlxalq Avrasiya Mətbuat Fondu tərəfindən Avropa İttifaqı və ABŞ Dövlət Departamentinin maliyyə dəstəyi, BMT-nin İnkişaf Proqramının, ANAMA-nın vasitəçiliyi və Minalar üzrə Məsləhət Qrupu (MAG) ilə birgə ölkədə ilk dəfə qadınlardan ibarət minatəmizləmə qrupları yaradılıb. Elə uzun illər işğalçı Ermənistan ordusunun amansız hücumlarına mərdliklə sinə gərmiş qəhrəman Tərtərə növbəti səfərimin məqsədi də minalanmış sahələrdə qəhrəmanlıq mücadiləsi verən həmin Həcər cəsarətli xanımlarla görüşmək, onlarla həmsöhbət olmaq idi. BAMF-nin regional ofisinin yerləşdiyi binaya çatar-çatmaz diqqətimi ilk cəlb edən ikinci və üçüncü mərtəbələrin şüşələrindəki güllə yerləri oldu. Öyrəndim ki, həmin "yaralar" Tərtərdə dinc əhalini atəşə tutan ermənilərin vəhşiliyinin nümunəsi kimi saxlanılır...

İlk olaraq BAMF-nin gördüyü işlər və qadın minatəmizləmə qrupunun yaradılması ilə bağlı fondun vitse-prezidenti Oğuz Mirzəyevlə söhbətləşdik: "BAMF-nin 32 illik fəaliyyətinin əsas hissəsi müharibədən zərərçəkmiş və işğaldan azad olunmuş regionlarda sosial-humanitar layihələrin icrası, qaçqın və keçmiş məcburi köçkünlərin diqqətdə saxlanılması, səfirlərin, xarici diplomatların, jurnalistlərin, tələbələrin həmin ərazilərə səfərlərinin təşkili və s. ilə bağlı olub.

Böhranın idarə olunması, sülhməramlı aksiyalar, konfliktologiya və insan haqlarının müdafiəsi sahəsində səmərəli iş aparan BAMF hələ Vətən müharibəsindən xeyli əvvəl, 2000-ci illərdən başlayaraq mina problemi və ərazilərimizin minalardan təmizlənməsi ilə bağlı da layihələr həyata keçirib. Bu layihələrdən bəziləri bu gün də davam etdirilir".

Müsahibimiz qeyd etdi ki, qadın minatəmizləmə qrupunun yaradılması, təxminən, bir il əvvəl reallaşdırılıb: "Qrupun yaradılması ilə bağlı elan verildikdən sonra paramedik vəzifəsi (ilk tibbi yardım mütəxəssisi – M.R.) də daxil olmaqla ümumilikdə 54 nəfər layihədə çalışmaq üçün müraciət etdi. Fiziki və psixoloji vəziyyəti tələblərə cavab verən 33 qadın 16 iyun 2023-cü ildə təlimlərə cəlb olundu. 25 sentyabr 2023-cü ildə isə qrup fəaliyyətə başladı və hazırda 23-ü minatəmizləyən, 2-si paramedik olmaqla 25 qadın ərazilərdə minatəmizləmə əməliyyatları həyata keçirir. Dörd komanda formalaşdırmışıq. Onlardan 3-ü tamamilə qadınlardan, biri isə həm qadın, həm də kişilərdən təşkil edilib".

Oğuz Mirzəyev daha sonra söylədi ki, qadın minatəmizləmə qrupları hazırda Ağdam rayonunun Nəmirli kəndində mina sahəsinin, Güllücə kəndində isə döyüş sahəsinin təmizlənməsini həyata keçirirlər. Bundan başqa, Güllücə kəndində texniki tədqiqat əməliyyatları da aparılır: "Ümumilikdə fədakar xanımlarımız fəaliyyətə başladıqları gündən indiyədək 3 203 997 kvadratmetr ərazini təmizləyiblər. Həmin ərazilərdə 25 tank əleyhinə və 12 piyada əleyhinə mina, həmçinin 77 PHS aşkarlanaraq zərərsizləşdirilib".

Zərif qəhrəmanlarımızla görüşmək üçün BAMF-nin regional inzibati direktoru Ruslan İbrahimbəylinin müşayiəti ilə minatəmizləyən xanımların yerləşdikləri evə yollandıq. Yeri gəlmişkən, Tərtərdə onların yaşayışı üçün lazımi şərait yaradılıb. Yaxında isə xanımlar fondun ofisinin yanında yerləşən, təmiri yekunlaşmaqda olan yeni yaşayış yeri ilə təmin ediləcəklər.

Direktor bildirdi ki, qrup üzvləri həftənin beş günü səhər tezdən sahəyə yollanırlar və hava işıqlananda artıq təmizləyəcəkləri ərazidə olurlar. Mina axtarışı prosesi günorta saatlarına qədər davam edir. Bunun da maraqlı bir səbəbi var. Belə ki, qadın minatəmizləmə qruplarının fəaliyyətinə BAMF-ın İcma Mina Aksiyası komandasının peşəkar mütəxəssisləri ilə yanaşı, xüsusi təlim keçmiş minaaxtaran itlər və siçovullar da ləstək verilir. Mina axtaran siçovullar isə günün müəyyən saatlarına qədər "işləyə" bilirlər. Gün qızanda onların kəməyindən istifadə etmək məhdudlaşır. Bundan başqa, sahədəki fəaliyyətdən asılı olaraq ANAMA tərəfindən minaaxtaran maşınlar da əməliyyatlara cəlb edilir.

Ruslan müəllimin sözlərinə görə, mina axtarışı əsasən iki nəfərlik qruplar şəklində həyata keçirilir. Xanımlardan biri təmizlənəcək kvadratda işləyir, digəri isə onun fəaliyyətinə nəzarət edir. Yəni təhlükəsizlik maksimum şəkildə nəzərə alınır. Qəhrəmanlarımız hava şəraiti minatəmizləmə əməliyyatlarını həyata keçirməyə imkan verməyəndə də işsiz oturmurlar. Belə günlərdə onlar mühitlərin təsirinə məruz qalmış keçmiş cəbhəyanı kəndlərdə yerli əhalinin mina təhlükəsi ilə bağlı maarifləndirilməsi üzrə tədbirlərə cəlb edilirlər.

Qeyd edək ki, qadınlardan ibarət minaaxtaranlar qrupunun yaradılması layihəsi ərazilərin minalardan təmizlənməsi, məcburi köçkünlərin təhlükəsiz və davamlı şəkildə qayıdışının təmin edilməsi, o cümlədən ANAMA-nın potensialının artırılması, minalarla mübarizədə gender əsaslı fəaliyyətlərin təşviqi baxımından xüsusi əhəmiyyət kəsb edir.

### Qorxubilməz savaşçılar

Gəlişimiz xanımların işdən sonrakı istirahət saatları ilə eyni vaxta düşmüşdü. Bu səbəbdən səhər tezdən, hələ gün çıxmamış oyanıb əraziyə yollanan, ağır, məsuliyyətli işdən qayıdan dəstə üzvlərinin hamısı ilə görüşmək mümkün olmadı. Həmsöhbət olduğumuz Leman Abdullayeva, Səmayə Əhmədli, Əfsanə Bayramova, Gültəkin Mehdiyeva, Səbinə Mayılova, Əfsanə Allahverdiyeva bildirdilər ki, qadınlardan ibarət minatəmizləyən dəstənin yaradılması ilə bağlı elandan xəbər tutan kimi, tərəddüd etmədən müraciət ediblər. Çünki gördükləri işin nə qədər əhəmiyyətli olduğunu başa düşürlər.

Azərbaycanımızın müxtəlif bölgələrindən – Bakıdan, Gəncədən, Zəngilandan, Şəmkirdən, Ağdərədən, digər şəhər və rayonlardan olan bu xanımların bir çoxu ali təhsillidir. Ancaq onlar ixtisasları üzrə daha rahat işləri deyil, məhz mina axtarmağı, tapmağı, bununla da insan həyatlarını xilas etməyi seçiblər. "Minatəmizləyən" deyəndə ağla ilk kişilər gəlsə də, bu zərif qəhrəmanlar sübut ediblər ki, Azərbaycan qadını



mühribədə, qanlı döyüşlərdə öz ataları, qardaşları, həyat yoldaşları ilə çiyin-çiyinə dayanmağı, savaşmağı bacardıqları kimi, qorxmadan, cəsarətlə minalanmış əraziləri təmizləməkdə də heç kimdən geri qalmırlar.

Xanımlar keçdikləri təlimlərdən, ilk işə başladıqları günün həyəcanından, ilk mina və ya PHS aşkarlamağın sevincindən danışdılar. Söhbət etdiyimiz dəstə üzvləri hamılıqla bildirdilər ki, Vətən torpaqlarını mənfur düşmənin "miras qoyduğu" ölüm saçan minalardan təmizləməyin verdiyi qürur sözlə ifadə edilə biləcək deyil. Üstəlik, qorxmağa da heç bir səbəb yoxdur. Çünki hamısı xüsusi təlimlərdən keçiblər, iş prosesi zamanı təhlükəsizlik qaydalarına əməl etməyin nə qədər vacib olduğunu bilirlər. Onu da bilirlər ki, tapdıqları hər mina bir və bir neçə insanın, canlının həyatının xilas edilməsi deməkdir.

Əksəriyyəti gənc olan xanımlar onlar üçün yaradılmış şəraitdən də razılıq etdilər. Söhbət etdikcə onların qüruruna şərik olmamaq, onlara baxıb qürurlanmamaq mümkün deyil. İnam dolu sözləri, cəsarət yağan baxışları "adın şərəflidir sənin, ey qadın!" misralarını yada salır. Hərəsinin gələcəklə bağlı bir planı, ancaq hamısının ümumi bir arzusu var – gözəl Azərbaycanımızın bütün torpaqlarının altının da üstü kimi "düşmən"dən, onun qalıqlarından təmizlənməsi. Onlar bu arzularının reallaşması üçün savaşırlar. Yolunuz açıq olsun, zərif qəhrəmanlarımız!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri,***

**Tərtər**

---

# Avqust şəhidlərinə ehtiram

## Naxçıvan xəbərləri

***"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təşkilatçılığı və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə avqust ayında doğum günü olan şəhidlərin anım tədbiri keçirilib.***



Dövlət və hökumət rəsmiləri, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə əvvəlcə ümummilli lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Naxçıvan televiziyasının yad olunan şəhidlərlə bağlı hazırladığı videoçarx nümayiş etdirilib, tələbələr videoçarxda adları çəkilən 39 şəhidin portretləri ilə səhnəyə çıxıblar.

Naxçıvan Muxtar Respublikası Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Fərid Bağırzadə bildirib ki, səlahiyyətli nümayəndəliyin dəstəyi ilə bu ilin əvvəlindən etibarən hər ayın sonunda doğum günü həmin aya düşən şəhidlərin xatirəsinə həsr olunan anım tədbiri keçirilir. Bu, artıq 8-ci anım tədbiridir.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov qeyd edib ki, Vətən müharibəsindəki şanlı qələbədə Naxçıvanın ümumtəhsil məktəblərinin məzunlarının da imzası vardır.

Şəhid Zülal Mədətlinin atası Rəhim Mədətov və şəhid Şükür Hacıyevin anası Fatma Şükürlü igid övladları ilə fəxr etdiklərini bildirib, onların xatirəsinin əziz tutulmasına görə minnətdarlıq ediblər. Sonra "Altay" teatrının aktyorlarının ifasında şəhidlərin xatirəsinə həsr olunmuş şeir-kompozisiya təqdim olunub.

# Yüksək bal toplamış məzunlar

***Naxçıvan Dövlət Milli Dram Teatrında ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış məzunların mükafatlandırılması mərasimi keçirilib.***

Naxçıvan Muxtar Respublikasının baş naziri Ceyhun Cəlilov ölkəmizdə təhsilə qayğıdan, Naxçıvanda bu sahədə qazanılan uğurlardan bəhs edib. O, muxtar respublikada Prezidentin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin tədbir iştirakçılarına salamlarını, uğur qazanmış məzunlara, onların müəllimlərinə və valideynlərinə təbriklərini çatdırıb.

Baş nazir bildirib ki, 2023–2024-cü tədris ilində muxtar respublikada 4569 şagird ümumi orta təhsil səviyyəsini, 3500 şagird tam orta təhsil səviyyəsini başa vurub. 8 şagird qızıl, 1 şagird gümüş nişana, 256 şagird isə fərqlənmə attestatına layiq görülüb. Tam orta təhsil səviyyəsi üzrə fərqlənmə attestatına layiq görülən 56 şagird sayı ötən illə müqayisədə 3 dəfə çox olub. Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində 222 nəfər 500–600, 78 məzun 600–650, 27 şagird isə 650–700 intervalında bal toplayıb. Ötən illə müqayisədə yüksək nəticə göstərən məzunların sayı 67 faiz artıb. Bu da muxtar respublikada son 5 ildə əldə olunan ən yüksək göstəricidir.



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Gültəkin Rüstəmova ötən tədris ilində əldə olunan ümumi nəticələr barədə məlumat verib.

Valideynlər adından çıxış edən Ordubad rayonunun Dırnıs kənd tam orta məktəbinin direktoru Taleh Qasımov öz övladı da daxil olmaqla rəhbərlik etdiyi məktəbin 8 məzununun hər birinin tələbə adını qazandığını, onlardan birinin artıq Qarabağ Universitetinin tələbəsi olduğunu bildirib.

Ali məktəblərə keçirilən qəbul imtahanlarında 691,9 bal toplayaraq muxtar respublika 1-cisi olan Kənan İsmayıllı qazandığı uğurun təməlində müasir tədris şəraitinin dayandığını bildirib.

Sonra Naxçıvan Muxtar Respublikasının baş naziri Ceyhun Cəlilov 500–700 intervalında nəticə əldə etmiş məzunlara mükafatlar təqdim edib.

***Səbuhi HƏSƏNOV***
***XQ***

# “Xalq qəzeti” redaksiyasına yubiley təbrikləri

## Milli-mənəvi dəyərlərimizin güzgüsü

**105 yaşını qeyd edən gündəlik ictimai-siyasi qəzet kimi tanıdığımız “Xalq qəzeti” mürəkkəb və mübarizələrlə dolu tarixi dövrlərdən keçərək milli mətbuatımızın inkişafında böyük rol oynamışdır.**



Azərbaycanın böyük ziyalıları və tanınmış xadimləri, təcrübəli qələm sahibləri, görkəmli fırça ustaları, bir sözlə, yüzlərlə görkəmli şəxsiyyətimiz televiziyanın, elektron medianın olmadığı bir dövrdə əsasən bu qəzetin vasitəsilə geniş oxucu auditoriyasında tanınmış və sevilmişlər. Üzeyir Hacıbəyli, Cəfər Cabbarlı, Məmməd Səid Ordubadi, Səməd Vurğun, Mirzə İbrahimov, Mir Cəlal, Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Qara Qarayev, Tofiq Quliyev, Xan Şuşinski, Rəşid Behbudov, Adil İsgəndərov, Həsən Seyidbəyli, Nəsibə Zeynalova, İsmayıl Şıxlı kimi onlarla görkəmli sənətkar fəaliyyət sahələrində ucalsalar da, “Xalq qəzeti”nin səhifələrində populyarlaşmışlar.

Ölkəmizdən kənarda da tanınan qəzet ötən onilliklərdə xalqımızın ictimai-siyasi, mədəni həyatının güzgüsü olmuşdur. Qəzetin daim mədəniyyətimizin müxtəlif problemlərinə geniş yer ayırması, milli incəsənətimizin önəmli bir qolu olan kino yaradıcılığını ardıcıl izləməsi, onun uğur və problemlərini gündəmdə saxlaması kinematoqrafçılarımızda böyük məmnunluq yaradır. İlk filmlərimizin ərsəyə gəlməsindən “Arşın mal alan” kimi dünya ekranını fəth edən sənət şedevrinin yaranmasınadək bu qəzet kinomuzun inkişafına daim ayna tutmuşdur. 1946-cı ildə qəzetdə “Arşın mal alan” filminə görə Üzeyir Hacıbəyliyə, Rza Təhmasibə, Rəşid Behbudova, Leyla Bədirbəyliyə, Ələkbər Hüseynzadəyə, Lütfəli Abdullayevə və Münəvvər Kələntərliyə Dövlət mükafatı verilməsi “Xalq qəzeti”nin səhifələrində qiymətli xronikaya çevrilmişdir. Milli kinomuza belə həssaslıq bugünədək yüksək səviyyədə davam edir.

SSRİ dağıldıqdan sonra müstəqilliyin ilk illərində ölkəmizdə cərəyan edən mürəkkəb hadisələrlə bağlı yaranmış ağır ictimai-siyasi şəraitdə “Xalq qəzeti” öz simasını və mövqeyini qoruyub saxlaya bilmiş, Azərbaycanda demokratik dövlət quruculuğu, cəmiyyət həyatının bütün sahələrini əhatə edən geniş islahatlar prosesinin informasiya təminatında fəal rol oynamışdır. İnanırıq ki, 105 ildən bəri xalqımıza özünün yüksək ictimai məzmunlu, işıqlı sözü ilə xidmət göstərən, milli-mənəvi dəyərləri uca tutan “Xalq qəzeti” bundan sonra da Azərbaycan dövlətinin və xalqının taleyüklü məsələlərini yüksək peşəkarlıqla işıqlandıracaq.

“Xalq qəzeti”nin yaradıcı kollektivini fəaliyyətinin ikinci yüzilliyinin ilk yubileyi münasibətilə kinematoqrafçılar adından səmimi təbrik edir, redaksiyaya xalqın qəzeti olmaq şərəfindən daim güc almağı arzulayıram!

***Rasim BALAYEV,***
***Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti***

## 105 ilin misilsiz söz saxlancı

**Bu gün ölkənin aparıcı mətbu nəşrlərindən olan “Xalq qəzeti”nin 105 yaşı tamam olur. Bu tarixin 72 ilini “Kommunist” adı ilə çıxmış rəsmi-ideoloji qəzet uzun illər ölkə həyatının, xüsusən milli mədəniyyətin də güzgüsü olub.**



Bir əsrdən uzun müddətdə ümummilli söz tribunası rolu oynayan bu qəzetin 105 yaşının tamam olması təkcə bir redaksiya kollektivinin, milli mətbuatımızın deyil, bütövlükdə, xalqımızın həyatında, ictimai fikir və mədəni tərəqqi tariximizdə əlamətdar hadisədir. Sovet dövrünün yeganə gündəlik anadilli nəşri dövlət müstəqilliyimizin astanasında xalqa xidmət məramını üstün mövqeyə qaldıraraq, sonrakı 33 ildə fəaliyyətini “Xalq qəzeti” adı altında uğurla davam etdirməkdədir.

Ötən əsrin sonlarında xalq hərəkatı baş qaldıranda qəzet “Topxana harayı” yazısı və “Meydan epopeyası” günlərində sərgilədiyi cəsarətli mövqeyi ilə xalqın tərəfində dayandığını göstərdi. Həmin dövrdən “Kommunist” qəzeti sürətlə “Xalq qəzeti”nə çevrilməyə başladı. İndiki ümumxalq sevgisi və ümumdövlət etimadı “Xalq qəzeti”nin qazandığı ən böyük dəyər və fəaliyyətinə verilən ən böyük qiymətdir.

Bütun bu qeyd edilənlər bir daha sübut edir ki, “Xalq qəzeti” xalqımızın taleyində və yaddaşında dərin, silinməz izlər qoymuş, zamanın sınağından üzüağ çıxmış milli mətbuat vasitəsi, ötən 105 ilin sistemli söz saxlancıdır. Bu dərin və sağlam əsaslar qəzeti növbəti əsrin onilliklərinə inamla aparacaq. “Xalq qəzeti” bu gün Azərbaycan şəraitində öz funksiyasını yerinə yetirən ən yaxşı və informativ qəzetlərdən biridir.

Yubiley münasibətilə redaktor Əflatun Amaşov başda olmaqla qəzetin kollektivini təbrik edir, oradakı vicdanlı qələm sahiblərinə uğurlar arzulayıram!

***Qulu MƏHƏRRƏMLİ,***
***BDU-nun professoru***

## Xalqın qəzeti olmaq səlahiyyəti

**Bugünlərdə 105 illik yubileyini xalq hesabat formatı və keçilmiş şərəfli yoldan qaynaqlanan öyünc hissi ilə qeyd edən “Xalq qəzeti” kollektivinin yaşadığı duyğu-düşüncələr Azərbaycan cəmiyyəti üçün də önəmlidir.**



Ötən 105 ildə xalqa sözlə xidmət etmək, milli maraqların ifadəçisi olmaq məfkurəsinə sadiq qalan “Xalq qəzeti” Azərbaycanın ictimai-siyasi, elmi-mədəni həyatına misilsiz töhfələr vermişdir. 70 illik kommunist rejimi şəraitində xalqımızın köklü maraqlarına sadiqlik, iqtisadi inkişafa, mədəni tərəqqiyə xidmət bu qəzetə müstəqillik şəraitində də fəaliyyətini davam etdirmək səlahiyyəti qazandırmışdır.

Həyatımızın müxtəlif sahələrində qazanılan uğurlardan, ölkəmizin mədəni inkişafından, istedadlı soydaşlarımızın yaradıcılığından bəhs edən yazılar oxuculara Azərbaycanımızı sevdirmiş, xüsusilə gənc nəslə milli ruh, vətənpərvərlik hissi aşılamışdır. Sovet dövründə kosmopolit sferalarda milli varlığımıza, ana dilimizə etinasız, məsuliyyətsiz münasibət hökm sürsə də, “Xalq qəzeti” milli-mənəvi dəyərlərimizi uca tutmuş, xalqı müstəqillik epoxasına hazırlamışdır

Qəzet bu ənənəsinə sadiq qalaraq bu gün də milli kimliyimizi yad təsirlərdən qoruyur, yurd sevgisinə çıraq tutur. “Xalq qəzeti”ni digər mətbu orqanlardan fərqləndirən bir cəhət də səhifələrində ədəbi dil normalarına düzgün riayət etməsidir.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Pezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilən müstəqilliyin möhkəmləndirilməsi və hərtərəfli inkişaf siyasətinin Azərbaycana qazandırdığı tarixi nailiyyətlərə göstərdiyi geniş informasiya dəstəyi “Xalq qəzeti”nin avanqard nəşr olmaq missiyasını mötəbər səviyyəyə qaldırmışdır. Kollektiv bu məramla ölkəmizin tarixi uğurlarına ardıcıl və sistemli şəkildə ayna tutmuşdur. Regionun lider dövlətinə çevrilmiş ölkəmizin nailiyyətləri qəzetin səhifələrində əzəmətli salnaməyə çevrilir.

Bakı Slavyan Universitetinin professor-müəllim heyəti və tələbələri də sevimli qəzetimizin 105 illik yubileyini milli mediamızın tarixində önəmli bir hadisə kimi qeyd edir. Əsr yarımlıq mətbuat tariximizdə 105 il davamlı fəaliyyət yalnız “Xalq qəzeti”nə nəsib olub. Bu şanlı hadisə münasibətilə qəzetin kollektivini təbrik edir, redaksiyaya yeni yaradıcılıq uğurları arzu edirik.

***Anar NAĞIYEV,***
***Bakı Slavyan Universitetinin rektoru***

# Milli kinomuzun dünənini yaşadan Film Fondu

**“Bu kino ki var, çox qəliz məsələdir. Həm qəlizdir, həm də ki, vacib...” Kinodan danışarkən, hər dəfə gözümün önününə “Bəyin oğurlanması” filmində ölməz sənətkarımız Səməndər Rzayevin yaratdığı bu səhnə gəlir. Azərbaycan kinosu daim inkişafda olub. Cığırları yola çevirən milli kinomuz ötən 126 ildə bir-birindən maraqlı filmlərlə zənginləşib, bir neçə sənətkar nəsli qəlblərdə əbədi məskan qurub.**

Yolumuzu bu dəfə filmlərimizin saxlanc ünvanı sayılan Dövlət Film Fondundan saldıq. Milli kinolarımız burada göz bəbəyi kimi qorunub saxlanır. Fondun 1-ci mərtəbəsində bizi qurumun şöbə müdiri Rəşad Qasımov qarşıladı. Öyrəndik ki, kinematoqrafiyamızın “qızl dövrü” sayılan 1970–80-ci illərdə 110 bədii, 500 sənədli və 44 cizgi filmi çəkilib. Onlardan bir qismi ara-sıra mavi ekranlarda göstərilsə də, bu sənət incilərinin bir çoxu unudulub. Yaxşı ki, həm sovet dönəmində, həm də müstəqillik illərində ekranlaşdırılan kinolarımız burada etibarlı qorunur.

**Rəşad Qasımov əvvəlcə Dövlət Film Fondunun yaradılması tarixi barədə sualımızı cavablandırdı:**

– Sovet dönəmində Azərbaycanda istehsal olunan filmlər birbaşa Moskvanın sifarişi ilə çəkilirdi və orada da qəbul edilirdi. O vaxt ölkəmizdə ekranlaşdırılan filmlərin qorunub saxlanılması üçün arxiv təşkilatı yox idi. Dövrün tələblərinə görə buna ehtiyac duyulmurdu. Çünki senzuradan keçməyən filmlər geri qaytarılmırdı, Rusiya Film Fondunda və dövlət arxivində saxlanılırdı. Azərbaycan müstəqillik əldə edəndən sonra ölkəmizdə filmlərin qorunub saxlanılması üçün arxiv təşkilatının yaradılması zərurəti yarandı. Odur ki, bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 22 dekabr 1993-cü il tarixli qərarı verildi və rəsmi olaraq Dövlət Film Fondu yaradıldı.

Fond ilk dəfə 1994-cü ildən keçmiş “Qələbə” kinoteatrının binasında fəaliyyətə başlayıb. Azərbaycanda kino prokatında istifadə olunmuş filmlər bir yerə toplanılıb, Dövlət Film Fondunun kinoarxiv bazasının əsası təşkil edilib. Sonralar özəl şəxsi arxivlərdə, kinoteatrlarda olan yeni çəkilən filmlər əsasında baza genişləndirildi. O vaxtlar mövcud şərait yararsız olduğuna görə, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə müasir tələblərə və standartlara uyğun, texnoloji avadanlıqlarla təchiz edilmiş yeni bina inşa olundu. Fond 2009-cu ildən fəaliyyətini yeni binada davam etdirir.

Sonra şöbə müdiri ilə söhbətimizi kinolentlərin saxlanıldığı otaqda davam etdirdik. Burada filmlər adları ilə deyil, xüsusi kodlarla qorunur. Kinolentlərin saxlanıldığına görə otağın temperaturu bir qədər soyuq idi. İçəridə bakteriyaları öldürən lampalar quraşdırılıb. Bu otaqda rütubəti götürmək üçün avadanlıq və otaq temperaturunu tənzimləyən kondisioner var. Binanın bütün mərtəbələrində kino istehsalında istifadə edilməyən texnika eksponat kimi sərgilənir. Köhnə kinoproyektorlar, aktyorların filmlərdə geyindiyi əlbisələrin asıldığı maketlər məxsusi bir mənzərə yaradır.

**Rəşad Qasımov fondun fəaliyyət istiqamətlərindən də söz açdı:**

– Dövlət Film Fondu öz işini 5 istiqamətdə qurub. Buraya filmlərin bərpası və qorunması, kino sənətinin təbliği, arxiv materiallarının toplanması, elmi-tədqiqat və araşdırma aparılması, beynəlxalq əlaqələr daxildir. Fondda 70 min saxlanma vahidindən artıq kinomaterial qorunur. Burada kinolentdə olan filmlər, ədəbi və rejissor ssenariləri, foto və digər materiallar saxlanılır. Kinematoqrafçıların şəxsi arxivləri, filmlərin sonradan əldə edilmiş nüsxələri saxlama vahidləridir. Fondun arxivində kino sənətkarlarının əlyazmaları, filmlərin istehsalına aid sənəd və materiallar, montaj vərəqələri, diplom və mükafatlar da mühafizə olunur.



Burada qorunan ən qədim film 1923-cü ildə çəkilmiş “Qız qalası”dır. Azərbaycan kinosunun tarxi başlanğıcı sayılan 1898-ci ildə çəkilmiş “Balaxanıda neft fontanı” filminin xronikal kadrlarının nüsxələri də qorunan nadir materiallardandır. Bu film Fransa sinematekasından götürülərək, rəqəmsal daşıyıcılarda ölkəmizə gətirilib. Köhnə lentlər kimyəvi tərkibinə görə xüsusi şəraitdə qorunur. Çünki kinolentlər tərkib etibarilə həssas olur. Rütubət və temperatur rejimi xüsusi hazırlanamış bokslar vasitəsilə tənzim olunur. Fondda 18 belə boks var. Mühafizə bazasında saxlanılan kinolentlər daimi baxışdan keçirilir, tənzimlənmə və bərpa işi aparılır.

**Uzun illərdən bəri burada çalışan mütəxəssis Sevda Ələkbərova işin bəzi incəliklərini açıqladı:**

– Kinolentlərə bəzən kadrlar düz yapışdırılmır. Biz həmin kadrları bərpa edirik. Lentlərin “diş”ləri qırıq olur, onları da əvvəlki vəziyyətinə qaytarırıq. Filmi yoxladıqdan sonra, onun qüsur kağızına metrajları yazırıq. Elə filmlər də var ki, lentində yağ ləkələri olur. O da xüsusi maşınla yuyulur və əvvəlki vəziyyətinə qayıdır.

Fondun baş mütəxəssisi Nailə Bünyatova isə montaj masasında filmlərin səslərini yoxlayır. O dedi ki, masanın üzərində olan müasir texnika vasitəsilə filmlərin həm səsini yoxlayır, həm də rənginə diqqət yetirirlər. Filmlərin tarixi də daxil olmaqla, hansı kinostudiyada çəkilməsinə qədər hər bir incəlik yoxlanır. Digər baş mütəxəssis Nəsir Ağayev lentin zədələnmiş hissələrini bərpa edir. O da gördüyü iş barədə bizə həvəslə bilgi verdi. Öyrəndik ki, otaqda filmlərin rəng çalarlarını daha da yaxşılaşdırmaq üçün hər cür avadanlıq var. Köhnə filmlərin əksəriyyəti bir vaxtlar yaxşı şəraitdə saxlanılmadığı üçün rəng solğunluğu yaranıb. O filmlərin hər birinə bu otaqda yeni həyat verilir.

**Kinomexanik Mikayıl İsmayılov isə köhnə filmlərin bərpası ilə məşğul olur:**

– Çəkiliş tarixi 70-ci illərə aid olan lentlərlə işləmək həddən artıq diqqət tələb edir. Kinolentlər həssas olduğu üçün bəzən əldə qırılır. Təcrübəmdə belə hallarla bir neçə dəfə qarşılaşmışam. Yeni filmlər bir az möhkəm olur. Köhnə filmlər 350–400, yeniləri isə 1000 seansa qədər davamlıdır.

**Fondun muzeyinə də baş çəkdik. Şöbə müdiri buradakı eksponatları təqdim etdi:**

– Bunlar hələ fonda verilənlərin bir qismidir. Sərgiləyirik ki, gələn qonaqlara da göstərək. Burada şüşə lövhələrin arxasında gördüyünüz “Sehrli xalat” filmində istifadə edilmiş xalatdır. Azərbaycanın ilk səssiz filmlərini çəkən 1910-cu ilə aid “Debri” kamerası, Leyla Bədirbəylinin, Xan Babayevin, Qəmər Salamzadənin evlərindən götürülmüş əşyalar da muzeydə yer alıb. İlk cizgi filmində istifadə olunan kuklalar da buradadır. Saxlanan ən maraqlı eksponat isə tardır. Rejissor Səməd Mərdanovun çəkdiyi Azərbaycanın ilk səsli filmi “Mavi dənizin sahilində”nin yadigarıdır. Muzeydə bir neçə filmimizə verilmiş mükafatlar da sərgilənir. Bir başqa eksponat isə “Dia filmdir”. Cihazdan sovet dönəmində orta məktəblərdə uşaqlara müxtəlif şəkilləri izah etmək üçün istifadə olunub. O, indiki proyektorlardan fərqli olaraq video deyil, foto göstərir. Bir otaq da var ki, burada müxtəlif dövrlərdə çəkilmiş kinoların orijinal afişasını görmək mümkündür.

Sonda onu da öyrəndik ki, kino təbliği də Dövlət Film Fondunun əsas fəaliyyət istiqamətlərindəndir. Burada bir çox kino xadimlərinin yaradıclıq gecələri və yubileyləri təşkil olunur. Hər il dövlət sifarişi ilə ekranlaşdırılan filmlər fonda təhvil verilir...

Dövlət Film Fondu ilə tanışlıq göstərdi ki, bu xəzinə kinomuzla bağlı nə varsa, hamsının saxlancıdır.









***Ceyhun ALIŞLI***
***XQ***

# Avropa Türkiyənin Aralıq dənizində güclənməsindən niyə narahatdır?



(əvvəli 1-ci səhifədə)

Məsələ ondadır ki, bu yaxınlarda Aİ-nin Xarici İşlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrel iddia edib ki, guya Ankara Şimali Afrikada təsirini gücləndirərək "Aralıq dənizi nizamını" dəyişdirir. Ancaq reallıq budur ki, Türkiyənin regionda güclənməsi miqrantlar və təhlükəsizlik problemlərilə üz-üzə qalan "Qoca qitə"nin də maraqlarına cavab verir.

Brüsseldə keçirilən danışıqlarda Türkiyə tərəfini xarici işlər naziri Hakan Fidan təmsil edib. Türkiyə KİV-nin məlumatına görə, XİN rəhbəri toplantıda Brüsselə münasibətlərin möhkəmləndirilməsi istiqamətində konkret addımların atılmasının vacibliyini çatdırıb. O, Brüsseldə Aİ xarici işlər nazirlərinin qeyri-rəsmi toplantısına qatıldıqdan sonra qiymətləndirmələrini "Anadolu" agentliyinin müxbiri ilə bölüşüb. Cənab Fidan bildirib ki, Brüsseldəki görüş Aİ ilə Türkiyə əlaqələrinin canlanması baxımından əhəmiyyətlidir. İki saata yaxın davam edən görüşdə Türkiyə ilə Aİ arasında əlaqələrin inkişaf etdirilməsi yolları, qlobal və ümumbəşəri əlaqələr sahəsində əməkdaşlıq, eləcə də regional məsələlər ətraflı müzakirə olunub.

Hakan Fidan müsahibəsində bildirib ki, Aİ Türkiyə ilə bütün sahələrdə müntəzəm dialoq və məsləhətləşmələrin davam etdirilməsinin vacibliyini vurğulayıb. Nazir qeyd edib ki, qarşıdakı dövrdə münasibətlərin sürətlənməsi üçün texniki məsələlərlə bağlı konkret addımlar atılmalıdır. Onun fikrincə, ilk növbədə, 2019-cu ildə dayandırılmış dialoq mexanizmlərinin işini bərpa etmək lazımdır: "Biz Gömrük İttifaqının yenilənməsini səbirsizliklə gözləyirik". O deyib ki, prioritet məsələlərdən biri viza rejiminin liberallaşdırılmasıdır. Fidan bildirib ki, artıq 66 meyar yerinə yetirilib, aidiyyəti qurumlar qalan 6 meyarın yerinə yetirilməsi üzərində işləyir: "Vizanın liberallaşdırılmasına nail olunmasa da, biz vətəndaşlarımızın Şengen vizasının alınması prosesində qarşılaşdıqları çətinlikləri və maneələri aradan qaldırmaq üçün işimizi davam etdiririk".

Türkiyənin xarici işlər naziri əlavə edib ki, Türkiyə ilə Aİ arasında münasibətlərin canlanması bütün tərəflərin maraqlarına uyğundur. Cənab Fidan Aİ üzvlüyünün Türkiyə üçün strateji hədəf olduğunu vurğulayıb. Nazir xatırladıb ki, Prezident Rəcəb Tayyib Ərdoğan bu mövqeyi açıq şəkildə ifadə edib: "Biz müsbət gündəmlə irəliləmək istəyirik. Aİ eyni müsbət yanaşma nümayiş etdirsə, bu, bütün tərəflərin maraqlarına uyğun olacaq".

TRT mənbələri son 5 ildə ilk dəfə Türkiyənin dəvət edilməsini Aİ-nin əməkdaşlığa artan marağının əlaməti adlandırırdılar. Lakin bəzi türkiyəli politoloqların qeyd etdikləri kimi, danışıqlar ərəfəsində Brüssel o qədər də dostluq siqnalları göndərmirdi. Məsələn, bir həftə əvvəl Borrel belə açıqlama vermişdi: "Biz Afrikada baş verənlərdən narahat olmalıyıq. Mən Brüsselə gələndə o vaxt Liviyada fransızlar və italyanlar var idi. Onlar həmişə bir-birləri ilə yaxşı yola getmirdilər, amma orada idilər. Bu gün Liviyada bir nəfər də olsun avropalı qalmayıb – yalnız türklər və ruslar". Azərbaycana qarşı da qərəzli mövqe nümayiş etdirən Borrel daha sonra belə deyib: "Liviya sahillərindəki bazalar artıq Avropanın deyil. Onlar Türkiyə və Rusiyaya məxsusdur. Bu, bizim təsəvvür etdiyimiz Aralıq dənizi nizamı deyil". Göründüyü kimi, Aİ Türkiyənin Şimali Afrika regionunda möhkəmlənməsindən ciddi narahatdır.

Liviya Ankaranın Afrikada son illər öz mövqelərini gücləndirməyə çalışdığı yeganə yer deyil. Türkiyə Statistika Təşkilatının (TÜİK) məlumatına görə, ötən il Ankara ilə qitə ölkələri arasında ticarətin həcmi 32 milyard dollara çatıb ki, bu da 2013-cü illə müqayisədə təxminən 50 faiz çoxdur. Qardaş ölkənin regionda tərəfdaşlarının sayı da artır. Türk inşaat podratçıları digər xarici şirkətlərin təhlükəsizlik baxımından uzaq durmağa meyilli olduqları ölkələr də daxil olmaqla ən azı 1800 infrastruktur layihəsində çalışıb. Birləşmiş Ərəb Əmirliyinin "The National" nəşri Afrika bazarına bələd olan türk biznes elitasının nümayəndələrindən birinə istinadla yazır: "Türkiyə özəl sektorunun Afrikada öz təsir rıçaqları var: bu, çox praqmatikdir. Türk şirkətləri Afrikanı həm ucuz, həm də keyfiyyətli mal və xidmətlərlə təmin edir. Çinlilərlə asanlıqla rəqabət apara bilirlər". Bu il Türkiyənin uranın işlənməsi ilə bağlı bəzi Qərb ölkələrinin yerini doldurmağa hazır olduğuna dair əlamətlər də var.

Eyni zamanda, Türkiyə Nigerdən Somaliyə qədər geniş spektrli aktorlarla təhlükəsizlik əlaqələri də qura bilib. Belə şəraitdə Avropa İttifaqı son illərdə qitənin sürətlə dəyişən hissələrində öz mövqelərini gücləndirə bilən regiondankənar oyunçularla qarşılıqlı əlaqədə maraqlı olmalıdır. Buna görə də politoloqlar bildirirlər ki, Borrelin iddialarına baxmayaraq, Aİ Türkiyənin Afrikadakı artan rolunu nəzərə alaraq Ankara ilə bu sahədə əməkdaşlığını gücləndərməyə məcburdur. Çünki "Qoca qitə"nin üzvləri "qara qitə"də yaxşı qarşılanmırlar.

***S.ELAY***
***XQ***


## "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının balansında olan bəzi əmlakların (aktivlərin) satışa çıxarılması barədə

## ELAN

**I. Satılacaq əmlaklar barədə məlumat:**

| S/N | Növü | Ünvanı | Tikili sahəsi (kv.m) | Torpaq sahəsi (ha) | Torpaq sahəsinin kateqoriyası (təyinatı) | Yüklülük vəziyyəti | Start qiyməti (manatla) |
|---|---|---|---|---|---|---|---|
| 1. | Fərdi yaşayış evi | Zaqatala rayonu, Yuxarı Tala kəndi | 161.1 | 0.0917 | Yaşayış məntəqələrinin torpaqları | Yüklü deyil | 80253.0 |
| 2. | Qeyri- yaşayış binası | Zaqatala rayonu, Yuxarı Tala kəndi | 240.1 | 0.0283 | Yaşayış məntəqələrinin torpaqları | Yüklü deyil | 39000.0 |
| 3. | Torpaq sahəsi | Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, 384A saylı sahə | - | 0.12 | Yaşayış məntəqələrinin torpaqları | Yüklü deyil | 216000.0 |
| 4. | Torpaq sahəsi | Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, 390A saylı sahə | - | 0.12 | Yaşayış məntəqələrinin torpaqları | Yüklü deyil | 216000.0 |
| 5. | Torpaq sahəsi | Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi 388A saylı sahə | - | 0.12 | Yaşayış məntəqələrinin torpaqları | Yüklü deyil | 216000.0 |
| 6. | 126 ədəd qaraj | Bakı şəhəri, Xətai rayonu, Sadıqcan küçəsi, 2934-cü məhəllə ev 2A | 15.30-dan-35.10-dək | - | - | Yüklü deyil | 15.792,0-dan başlayaraq |

**Ərizə və təkliflər sifarişli məktub göndərməklə və ya şəxsən (və ya səlahiyyətli nümayəndə vasitəsi ilə) təqdim etməklə rəsmiləşdirilir:** "Aqrarkredit" QSC-nin baş ofisi, AZ1006, Azərbaycan Respublikası, Bakı şəhəri, Qədirli küçəsi 125.

**Əmlaka, onun növü və parametrləri ilə bağlı sənədlərlə tanış olmaq qaydası və müddəti:**

"Aqrarkredit" QSC-nin baş ofisi: Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125 nömrəli ünvanda yerləşən inzibati binada, həftənin 3 və 5-ci günləri.

**Əlaqələndirici şəxs –** Şahin Seyidov. Tel–050-235-99-90.


**Həyat fəlsəfəsi**

# Zaman uzun – ömür qısadır

**"İnsan öləndə belə dirilərin əlindən canını qurtara bilmir". Bu fikri neçə illər bundan qabaq Əziz Nesinin hansısa kitabında oxumuşam və həmişəlik yaddaşıma hopub. O, sağlığında narahat bir həyat yaşadı, neçə dəfə sürgün olunmaq zorunda qaldı. Ölümündən sonra da dirilər ona dinclik vermədi. Oğlu atası üçün 8 yerdə məzar qazdırmışdı ki, düşmənləri onun dəfn olunduğu yeri tapmasınlar.**



Əziz Nesinin yaşadığı ömrün son qənaəti kimi səslənən, ölümündən sonra da təsdiqlənən bu fikrin özəyində çox böyük, həm də sadə mətləblər gizlənir. Ölümündən sonra da dirilər tərəfindən zaman-zaman haqlı-haqsız mühakimə olunan və özlərini müdafiə etmək imkanı olmayan zərərçəkmişləri həmin goreşənlərin əlindən xilas etmək mümkün olmur.

Ədəbiyyatda dünyasını çoxdan dəyişmiş insanların pasportu ilə yaşayan və onların artıq çoxdan tamamlanmış ömrünün davamını yaşayan qəhrəmanlara da rast gəlmişik. Bu obrazlar adətən, dedektiv əsərlərdə oxucunun rastına çıxır. Bu halda yazıçı əsərdə bir insanın həyatını ikinci dəfə sanki "istismar" edir. Bədii əsərdə də ölmüş qəhrəman diri yazıçının əlindən canını biryolluq qurtara bilmir.

Yazıçının öldürüb-diriltdiyi obrazlar əsər çap olunandan sonra da tənqidçilərin əlinə keçir, tənqidçilər də hər iki dünyasından olmuş bu didərgin obrazlar üzərində növbəti əməliyyatlar aparırlar. Tarixi şəxsiyyətlərin obrazını yaradan yazıçılar da öz müstəsna hüquqlarından yararlanıb onları görmək istədikləri kimi təsvir edirlər və nəticədə oxucu düşüncəsində çox böyük ziddiyyətlər əmələ gəlir.

XVII əsr Fransasında dövlət xadimi kimi yetişmiş Kardinal Rişelye Avropa tarixinin gedişatına çox güclü təsir göstərmiş şəxsiyyətlərdən olub. Lakin Fransız yazıçısı Aleksandr Düma "Üç müşketyor" əsərində Rişelyenin obrazını məqsədli şəkildə mənfi planda təsvir edib. Özünün də bu haqda fikri var: "Mən Rişelyenin obrazını elə yaradacağam ki, hamı ona nifrət eləsin". Düma niyyətinin səbəbini açıqlamayıb və bu sualın cavabı hələ də açıq qalır. Dümanın Rişelyesi ilə eyni taleyi bölüşən, ədəbiyyata təhrif olunmuş şəkildə düşmüş tarixi şəxsiyyətlər çoxdur, onlar bu hermetik mühitdən çıxa bilmirlər. Onların ölümlərindən sonrakı talelərini sığortalamaq üçün nə imkanları var, nə də belə bir təşkilat mövcud deyil.

Fantastik romanlar ilə vaxtı qabaqlamış Herbert Uelsin "zaman maşını" da ölüləri gələcəyə apara bilmir. Yalnız yaddaşımız vasitəsilə keçmişə qayıdıb "ölənləri sağ görmək" (Ramiz Rövşən) imkanımız var. Amma gerçək mənada da nisbilik nəzəriyyəsi zamanla geriyə dönməni istisna etmir. Digər tərəfdən, bu dünya ilə bağları qırılmaqda olan insanı keçmiş yox, gələcək düşündürür. O, gələcəklə bağlı nigarançılıqlarını da özüylə birgə qəbrə aparır. Gələcək onun xeyrinə, yoxsa ziyanına işləyəcək? Zaman həyat lövhəsindən onun adını siləcək, ya saxlayacaq? Bu sualların cavabı onlara ayrılmış zamanın xaricindədir.



Bəlkə də o dünyadan qayıdıb gəlsələr və onlar haqqında yazılmış romanları oxusalar, özlərini o əsərlərdə tapa bilməzlər. Sağlıqlarında heç ağıllarının ucundan keçməyən fikirlərin onların adına yazılmasını yəqin ki, həmin yazıçılara bağışlamazlar. Amma yazıqlar olsun ki, kütlə öz tarixi şəxsiyyətini tarix kitablarında yox, bədii əsərlərdə olduğu kimi qəbul edir.

Ədəbiyyatdan kənara çıxaq, yenə eyni mənzərənin şahidi olacağıq. Çox uzağa getməyək, sovet ideologiyası uzun illər repressiyaya məruz qalmış klassiklərimizin adına min cür ləkə yaxdı, onların adını tarix kitablarından, yaddaşlardan sildi. Onların tarixi xidmətləri bilərəkdən unutduruldu. Əziz Nesinin sözüylə desək, sağlıqlarında çəkdikləri zillətlər bəs deyilmiş kimi, öləndən sonra da dirilərin əlindən xilas ola bilmədilər.

Bu ölülər səltənətinin müfəttişləri əslində özləri də bilmədən onların ölümdən sonrakı həyatlarına donorluq edirlər. Digər tərəfdən insanın (xüsusən yaradıcı insanın) özündən sonra qoyub getdiyi həyat anarxist xassəlidir, zaman-zaman müzakirə obyektinə çevrilən yaşanıb bitmiş ömür hər dəfə dəyişən, yeniləşən dəyərlər prizmasından çözülür. Biz bəzən sələflərimizə kontekstdən çıxarılmış mətn kimi yanaşırıq və bu da yanlış nəticələrə gətirib çıxarır. Bu, həm də keçmişlə gələcək zaman arasında "sınmış körpülər" deməkdir, yəni keçmişdəki insanlar gələcəyə salamat gedib çıxa bilmirlər.

XVIII əsrdə yaşamış məşhur avantürist, macəraçı, şəhvət düşgünü Cakomo Kazanovanın həyatını xatırlayın. Bu adam tarixdə misli görünməmiş fırıldaqçı olub. Stefan Sveyq "Öz nəğməsini oxuyanlar" kitabında Kazanovanın portretini ustalıqla yaradıb. Sveyqin bu cümləsi Kazanovanın ziddiyyətli şəxsiyyətini çox aydın xarakterizə edir: "İnsanlığın həyat enerjisi ilə dolu, qanlı-canlı və arzuyla dolub-daşan belə bir örnəyinin psixoloji cəsədi yarılsa, ilk olaraq ortaya çıxan mənzərə heç bir əxlaqi orqanın tapılmaması olacaq".

Bütün müqəddəs, insani hisslərdən məhrum olan Kazanova özünün fitnəkar təbiətilə bütün bağlı qapılara açar sala bilirdi. O, ömrünün sonuna yaxın tarixin zibilliklərindən on iki cildlik "Xatirələr"i ilə çıxdı. Sveyq yazır ki, "Kazanovanın dühasını göstərən şey həyatını danışmaq və yazmaq forması deyil, yaşama formasıdır. Bir başqasının icad etmək zorunda qaldığı şeyi o, öz nəfəsilə hiss etmişdir, başqasının beynində planlaşdırdığı şeyi o, isti və şəhvətli bədənilə gerçəkləşdirmişdir, buna görə də burada qələmin və xəyal gücünün reallığı sonradan süsləməsinə gərək yoxdur: forma baxımından tam anlamıyla dramatik olan belə bir həyatın içərisində hər hansı bir anı təsvir etməsi yetərlidir. Öz zamanının heç bir yazarı (o gündən bu yana bəlkə Balzakdan başqa, demək olar ki, heç bir yazar) Kazanovanın həqiqətən yaşadığı qədər fərqli hadisələr və vəziyyətlər icad edə bilməmişdir..."

Kazanova həyatda sudan necə quru çıxırdısa, ölümündən sonra da özünə misilsiz bir bəraətnamə qoyub getdi; nə az-nə çox, on iki cildlik xatirələr! Onun xatirələrində hər cür alçaqlığa "haqq qazandırmaq" mümkündür. Bu dahi fırıldaqçı ölümündən sonrakı həyatını da xatirələrilə bir növ, sığortalayır. Kazanova üçün günah hissi və tövbə deyilən bir məfhum yoxdur. Onun sanki həyatda bir sadiq dostu olub - şeytan. O şeytan da yan-yörəsində yox, içində idi və bütünlüklə onun ruhuna hakim kəsilmişdi. Bütün qüvvəsi tükənəndən sonra ölüm ayağında onun əlinə qələm verib on iki cildlik kitab yazdıran da elə həmin sadiq dost idi. O kitab əslində şeytanın yazdığı bir əsər idi. Həyatın son mərhələsi olan qocalıq onun bədənini mühasirəyə alsa da, şeytani xislətini islah edə bilmədi.

Alman filosofu və riyaziyyatçısı Leybnis deyirdi ki, biz dünyaların ən yaxşısında yaşayırıq. Vaxtilə Volter bu fikrə ironiya ilə yanaşmışdı. Hər halda yaşadığımız dünyadan ayrısı bizə tanış deyil və buna görə də müqayisə etmək imkanımız yoxdur. "Dünyaların ən yaxşısı" olan bu dünyada hər kəsin öz həqiqəti var və hər kəs yaşadığı ömrü özü üçün müəyyənləşdirdiyi həqiqət prinsiplərinə uyğun yaşamağa çalışır. Amma dəyişməyən əbədi həqiqətlər də var. Onlardan biri də budur: necə yaşamısansa, elə də xatırlanacaqsan.

Tarixdə müfəttişlər yox, təftiş obyektləri qalır. İnsanlara təlqin edilən uydurma həqiqətlər gec-tez dövriyyədən çıxır və yerini sabit həqiqətlərə verir. Hüseyn Cavidin, Mikayıl Müşfiqin, Əhməd Cavadın və məhbəslərdə, sürgünlərdə haqsız yerə çürüdülən insanların haqqını tarix onlara qaytardı. Qoca tarix Nazim Hikmətin öz vətənində vətəndaşlığının bərpa edilməsini gözlərimiz önündə sərgilədi. Zaman uzun, həyatsa qısadır, buna görə onlar bu tarixi qələbədən xəbərsiz qaldılar.

Əziz Nesin isə deyirdi: "Həyat acı bir zarafatdır".

***Kənan HACI,***
***yazıçı-publisist***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 187 (30591) 31 avqust 2024-cü il, şənbə

# Paralimpiyaçımız finalda



**Paris Yay Paralimpiya Oyunlarında Azərbaycan komandasının çıxışı davam edir. Dünən daha 3 paralimpiyaçımız "Paris-2024"də mübarizəyə qoşulub.**

Əvvəlcə paraatıcımız Kamran Zeynalov (P1 kateqoriyası) 10 metr məsafəyə atəşaçma yarışında qüvvəsini sınayıb. P1 kateqoriyasında çıxış edən idmançı 10 metr məsafəyə atəşaçma yarışında qüvvəsini sınayıb. Yarışda 559 xal toplayan K.Zeynalov 26 iştirakçı arasında 13-cü yeri tutub. O, bu nəticə ilə final mərhələsinə vəsiqə qazana bilməyib. Təmsilçimiz sentyabrın 4-də P4 kateqoriyasında 50 metr məsafəyə atəşaçmada da bacarığını nümayiş etdirəcək.

Yarışların 2-ci günü parataekvondoçu İmamədddin Xəlilov (K44 kateqoriyası) dayanq üzərinə çıxıb. 70 kiloqram çəki dərəcəsində mübarizəyə 1/4 finaldan başlayan idmançımız ilk görüşdə Miçel Ernesto Uolkerlə (Kuba) üz-üzə gəlib. Rəqibi üzərində 12:2 hesabı ilə qələbə qazanan təmsilçimiz yarımfinala yüksəlib. Rəqibinə 7:2 hesabı ilə qalib gələn Xəlilov finala vəsiqə qazanıb.

Bununla da parataekvondoçumuz ən azı gümüş medalı özü üçün təmin edib.

Paraatlet Oloxan Musayev (F55 kateqoriyası) isə nüvə itələmə növündə məharətini göstərib. "Pekin-2008"in qalibi yarışı medalsız başa vurub.

Qeyd edək ki, Azərbaycan sentyabrın 8-dək davam edəcək yarışda 7 növ üzrə 18 idmançı ilə təmsil olunur. Milli komandanın heyətində ötən gün parataekvondoçu Sabir Zeynalov (58 kiloqram) bürünc medal qazanıb.

***Leyla QURBANOVA***
***XQ***

## "Qarabağ"ın rəqibləri




**UEFA Avropa Liqasının Liqa mərhələsində "Qarabağ"ın rəqibləri müəyyənləşib.**

Azərbaycan çempionu turnirin əsas raundunda 8 oyun keçirəcək. Qurban Qurbanovun yetirmələri 4 rəqiblə evdə, 4 komanda ilə səfərdə oynayacaqlar.

"Qarabağ" "Ayaks" (Niderland), "Lion" (Fransa), "Malmö" (İsveç) və FCSB (Rumıniya) ilə doğma meydanda qarşılaşacaq. Səfər oyunlarını isə təmsilçimiz "Tottenhem" (İngiltərə), "Olimpiakos" (Yunanıstan), "Bodo Qlimt" (Norveç) və "Elfsborq"la (İsveç) keçirəcək.

Liqa mərhələsinə sentyabrda start veriləcək və matçlar gələn ilin yanvarında başa çatacaq. Bu mərhələdə ilk 8 yeri tutanlar 1/8 finala adlayacaq, 9-24-cü pillələri tutanlar pley-offda oynayacaqlar. Oyunların təqvimi UEFA tərəfindən qarşıdakı günlərdə müəyyənləşəcək.

## Niyə qızıl, gümüş yox – bürünc?



**Fransada keçirilən "Paris-2024" Yay Paralimpiya Oyunlarında bürünc medal qazanan Azərbaycanın parataekvondoçusu Sabir Zeynalov (58 kq) qələbəsini şərh edib.**

O bildirib ki, 19 yaşda belə bir mötəbər yarışda medal qazanıb, Azərbaycan bayrağını yüksəklərdə dalğalandırdığı üçün qürur hissi keçirir. İdmançı məqsədinin Vətənə çempion olaraq qayıtmaq olduğunu, ancaq səhvlərə görə qızıl mükafatı əldən verdiyini vurğulayıb. Sabir Zeynalov qarşıdakı hədəflərdən də danışıb:

– Qarşıda yeni hədəflər var. Arzum dünya və Avropa çempionu olmaq, Los-Anceles Paralimpiadasında qızıl medal qazanmaqdır. Dəstək və diqqətə görə cənab prezidentimiz İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, Gənclər və İdman Nazirliyinə, Milli Paralimpiya Komitəsinə, Taekvondo Federasiyası ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə öz təşəkkürümü bildirirəm!

Qeyd edək ki, bu, Paris Paralimpiadasında və parataekvondo tariximizdə qazanılan ilk medaldır.

***L.QURBANOVA***
***XQ***

## "Məqsəd mübariz komanda qurmaqdır"

**AFFA-nın inzibati binasında Azərbaycan milli komandasının baş məşqçisi Fernandu Santuşun mətbuat konfransı keçirilib.**



UEFA Millətlər Liqasının qrup mərhələsinin ilk iki turunda İsveç və Slovakiya yığmalarına qarşı keçiriləcək oyunların heyətini açıqlayan portuqaliyalı mütəxəssis media nümayəndələrinin suallarını cavablandırıb.

O, bəzi futbolçuların zədə səbəbindən millidən kənarda qaldıqlarını açıqlayıb: "50 nəfərə yaxın siyahı var idi, onların arasından seçim etdik. Şahrudin Məhəmmədəliyev, Musa Qurbanlı, Mahir Emreli, Anton Krivotsyuk, Hacıağa Hacılı, İsmayıl İbrahimli kimi oyunçular zədəli olduqları üçün siyahıya salınmayıblar".

Baş məşqçi gələcək üçün mübariz komanda formalaşdırmağa çalışacaqlarını bildirib: "Bura gəlməyimizdə məqsəd rəqabətədavamlı komanda qurmaqdır ki, həmin kollektiv gələcəkdə ölkəni uğurla təmsil edə bilsin. İndiki məqamda köklü dəyişiklik etməyə ehtiyac yoxdur. Futbolçularla ilk dəfə birgə işləyəcəyik. Cəmi bir məşq etmək imkanımız olacaq. Həm onlar bizi, həm də biz onları tanıyacağıq. Azərbaycan naminə bayraq, himn üçün əzmkar, mübarizə aparan kollektiv qurmaq istəyirik. Hamımız Azərbaycan naminə nəsə etmək üçün buradayıq. Əsas Azərbaycanın adı, bayrağıdır. Hazırkı məqamda bu, əsas məqsəddir".

Çalışdırıcı İsveç və Slovakiya yığmalarını təhlil etdiklərini söyləyib: "Rəqiblərin bütün futbolçuları haqqında ətraflı məlumata malikik. Dünyada elə bir məşqçi yoxdur ki, qələbədən başqa nəticə istəsin. Biz də elə kollektiv qurmaq istəyirik ki, futbolçular inamlı və iddialı olsunlar. Öz dəst-xətti olan, çox qol vurub, az qol buraxan komanda yaratmağa çalışacağıq".

Qeyd edək ki, Azərbaycan milli komandası sentyabrın 5-də Bakıda İsveç yığması, sentyabrın 8-də isə Koşitsedə Slovakiya seçməsi ilə qarşılaşacaq.

## Azərbaycan yığmasının yeni heyəti




**Azərbaycan millisinin sentyabrın 5-də evdə İsveç, 8-də səfərdə Slovakiya yığmasına qarşı keçirəcəyi UEFA Millətlər Liqasının oyunları üçün heyəti bəlli olub.**

Baş məşqçi Fernandu Santuş siyahıya 24 oyunçu cəlb edib.

Qapıçılar: Mehdi Cənnətov ("Sumqayıt"), Rza Cəfərov ("Neftçi"), Yusif İmanov ("Sabah")

Müdafiəçilər: Amin Seydiyev ("Sabah"), Qismət Alıyev ("Zirə"), Şəhriyar Əliyev ("Turan Tovuz"), Rahil Məmmədov ("Radomyak", Polşa), Abbas Hüseynov, Bədavi Hüseynov , Bəhlul Mustafazadə, Elvin Cəfərquliyev, Toral Bayramov (hamısı "Qarabağ")

Yarımmüdafiəçilər: Elvin Camalov ("Sabah"), Coşqun Diniyev ("Bandırmaspor", Türkiyə), Aleksey İsayev ("Qarabağ"), Xəyal Nəcəfov ("Turan Tovuz"), Emil Mustafayev ("Polesye", Ukrayna), Emin Mahmudov ("Neftçi"), Ceyhun Nuriyev ("Zirə")

Hücumçular: Ozan Can Kökçü (HİK, Finlandiya) Ramil Şeydayev ("Neftçi"), Nəriman Axundzadə ("Qarabağ"), Rüstəm Əhmədzadə ("Zirə"), Renat Dadaşov ("Ankaragücü", Türkiyə)

SOS

## Kölgəli ağaclarımız nədən quruyur?

**Bu şəkilləri Ağsu rayonunun Cəlayır kəndi yaxınlığındakı meşəlikdə çəkmişəm. Kəndə yaxın ərazidə, asfalt yolun kənarında yüzlərlə şam ağacı hansısa xəstəlik, yaxud baxımsızlıq səbəbindən quruyub. Bu mənzərəyə baxdıqca adamın ürəyi göynəyir. Çünki 50-60 illik bu ağacların əkilib-böyüdülməsinə, qorunmasına ətək-ətək vəsait xərclənib.**



Onu da deyim ki, xəstəlik, nədənsə, digər ağac və kollara çox da sirayət etməyib.

Aran ərazidə yerləşən bu yaşıllıq, canlı sərvət olmaqla, səhrada vadiyə bənzəyir. Ən isti günlərdə belə bu ağacların altı sərin olur, lap cənnəti xatırladır. Sovetlər dövründə salınmış süni meşə illər ötdükcı müxtəlif təsirlərdən məhv olub gedir.

Görəsən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi meşəlikdəki bu dəhşətli vəziyyətdən xəbərdardırmı? Əgər xəbərdardırsa, niyə vaxtında tədbir görülməyib? Görülübsə, bəs niyə bu qədər ağac quruyub?

***Səməd MƏLİKZADƏ***

## Aranda yağmursuz, dağlarda yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 31-də Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək.**



Lakin səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-25°, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulba) 26-27° isti,

Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə zəif duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 33-38°, dağlarda gecə 12-17°, gündüz 21-26° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

✓ *Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci tərəfindən kompüter sistemləri və kompleksləri fakültəsinin tələbəsi Tural Vuqar oğlu Tənzilzadənin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.*

✓ *"LUX–M Travel" MMC-yə məxsus dairəvi möhür itdiyi üçün etibarsız sayılır. VÖEN– 1402833211.*

## ALLAH RƏHMƏT ELƏSİN

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Birinci vitse-prezidentin katibliyi rəisinin müavini Mehdi Dadaşova dayısı

**AYDIN SÜLEYMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Milli Konservatoriyasının kollektivi iş yoldaşları İbadət Hüseynova bacısı

**NAİLƏ ASLANOVANIN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3729
SİFARİŞ 1868
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00